# ANAMIN DUASI

**Türkiyəli müharibə əlili İsa Şəbahət Məhdəvinin həyat hekayəsi**




**Kitabın adı:..................................Anamın duası**
**Müəllif:.................Məsumə Hüseyni Mehrabadi**
**Çap tarixi:....................................................2023**
**Çap növbəsi:..............................................Birinci**
**Tiraj:..............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 58-52-024518-56

# GİRİŞ

Ev işlərini görə-görə qonaq otağındakı televizoru dinləyirdim. Xəbərlər proqramı verilirdi. Xəbərlərin biri üç hərəm şəhidinin dəfni barədəydi: Seyid Mürtəza Hüseyni, Əli Hüseyni və Məhəmmədcavad Rüstəmi. Diktor deyirdi ki, hər üç şəhid Fatimiyyun diviziyasından olub, cəsədləri beş ildən sonra DNA testi ilə müəyyən edilib.

"Xoş hallarına! – deyə öz-özümə düşündüm. – Belə görünür ki, ən çox hərəm müdafiəsi şəhidi medalı əfqanıstanlılara məxsusdur!"

Birdən səkkizillik müharibəmiz yadıma düşdü: Əfqanıstanlılar o müharibədə İran xalqınına köməyə gəlmişdilərmi? İranı bəəsçi düşmən çəkmələrindən xilas etmək üçün Xomeyni övladlarının köməyinə gəlmiş qeyri-həmvətənlərim barədə axtarış etdim. Az deyildilər; Əfqanıstandan, Pakistandan, hətta İraqdan şəhidlər vardı. Heç birinin şəhadəti mənə qəribə

gəlmirdi. Çünki onların hökumətləri ilə problemimiz olsa da, xalqları ilə yaxın idik, qardaşdıq.

Davam edib bir az da uzaq sərhədlərə çatdım: Türkiyədən Şəhid Kamal Qızılqaya. Bu ölkənin təkcə böyüklərinin deyil, xalqının da Cəmaran imamının haqlılığına şübhəsi vardı. Həvəslə onun digər rəşadətli övladlarını - imamın döyünən ürəyini sakitləşdirməkdən ötrü İranın azadlığı uğrunda can qoymuş, ana vətən naminə olmasa da, qorumağı özlərinə ən vacib iş saydıqları İslam naminə vuruşmuş insanları axtarmağa başladım.

Çox keçmədən mənə həmin qəhrəmanlardan biri barədə yazmaq təklif olundu: müharibə əlili Hacı İsa Məhdəvi. Ondan bəzi müsahibələr alınmışdı, amma kitab yazmaq həddində deyildi; bəzi hissələr ümumi idi və yenidən müsahibəyə ehtiyac vardı.

Yazıçılığa məndən öncə başlamış və bu yolda bələdçim olan bacımla birgə onun evinə ilk görüşə yollandıq. Fədakar xanımı ilə birlikdə bizi qarşıladılar. Orada olduğum müddətdə özümü bütün vücudundan iman və ixlas yağan, var qüvvəsi ilə İslama xidmət etmiş, hələ də özünü İslama və şəhidlərə borclu bilən bir insan qarşısında hiss edirdim.

Əvvəlki müsahibələrdən iki ilə yaxın vaxt ötsə də, ağa Məhdəvi hələ də kitabın çapına ürəkdən razılıq vermirdi, kimlərinsə israrına boyun əydiyi hiss olunurdu. Düşünürdü ki, İslam üçün heç nə etməmişəm, bu əlillik döyüşçülərin şəhadəti qarşısında yalnız bir damla kimidir. O deyirdi: “Kim

bilir ki, aqibətim xeyirli olacaq və xatirələrim digərlərinin istifadəsinə yarayacaq?” Onun indiki şəraitdə xüsusi örnək və cəmiyyətin bütün təbəqələri, xüsusən də din və İslam İranı qarşısında vəzifələrindən boyun qaçıranlara nümunə olduğunu bildirəndən sonra sonsuz səbir və alicənablıqla əməkdaşlığını davam etdirdi. Həmin əməkdaşlıq isə sonunda qarşınızdakı kitabla nəticələndi. Ümidvaram, bu kitab müharibənin az görülən qəhrəmanlarının rəşadətlərinin bir hissəsini də olsa, təsvir edə bilmişdir.

Məsumə Hüseyni Mehrabadi

# 1

Bir ayağımı yük maşınının ayaqlığına qoyub qalxdım. Mən oturan kimi Cabbar qaza basdı, artıq inandım ki, zarafat deyil, həqiqətən, gedirəm. Gözdən itənə qədər yan güzgüdən anama və Oruca baxıb əl yellədim, boğazımda qalmış qəhəri çətinliklə udub göz yaşlarımın qarşısını almağa çalışdım.

Qış idi, yolun hər iki tərəfindəki ağaclar paltarlarını soyunmuşdular. Qapıların arasından içəri soyuq girir, qızdırıcının təsirini azaldırdı. Radiodan gələn musiqini dinləyib gözlərimi məni röyalarıma doğru aparan yola dikdim. O şəkli gördüyüm gündən dörd ay ötürdü və mən yer üzünün ən xoşbəxt adamı olmaq üzrəydim.

Cabbar barmaqlarının arasındakı siqaretdən bir qullab vurub mənə ötəri göz atdı.

– Mənə bax, İsa, yaxşı fikirləşmisən? Əminsən ki, iki gündən sonra fikrindən dönüb evə qayıtmaq istəməyəcəksən? – deyə qəhqəhə ilə güldü.

Bir az qızışım deyə qollarımı qoynuma qoyub sıxdım. Bilirdim ki, atam, anam, kənd və restoran üçün mütləq darıxacağam, peşmançılıq isə əsla. Məgər bir-iki günün fikridir ki, peşman olam?! Aylarla düşünüb bu qərara gəlmişdim. Çətindi, əlbəttə ki, çətindi, amma əmindim ki, məyus olmayacağam; əmindim ki, anamın arzusunu həyata keçirməyincə qayıtmayacağam.

İllərlə restoranda işləyib yığdığım pullarla dolu kisəni ovcumda sıxdım. Beş il kiçikli-böyüklü bütün müştərilərin önündə əyilmiş, yemək aparıb-gətirmiş, süfrə toplamışdım. Fərəhləndim. Necə də tez böyümüşdüm! Necə də tez öz ayaqlarım üstə dayana bilmişdim! Oruca görə kənd həyatını buraxıb İğdıra getdiyim və Mustafa dadaşın restoranında fəhlə işlədiyim gün axırımın belə olacağını düşünməzdim; hansı ki, on dörd yaşıma qədər bütün dünyadan yalnız Oğruca kəndini görmüşdüm, dünyanın bütün işlərindən də yalnız əkinçilik və maldarlıqla tanış idim.

Mustafanın bir dostu ilə birlikdə İğdırda bir restoran aldığını eşitdiyimiz gün necə də sevinmişdik! Hamıdan qabaq Yəqub orada işə başladı. Ondan bir neçə ay sonra Oruc ailə qurdu, otaqlarımızın biri onlara verildi və yer darlığı məni də həmin restorana apardı.

Üç ay yayda kəndə atama kömək etməyə gedirdim, qalan doqquz ayda isə rayonda qalır, axşamlar Yəqubla birgə Mustafagilə gedirdik. Restoran balaca idi, təzə açılmışdı, o qədər müştərisi yox idi ki,

Mustafa həm mənə, həm də Yəquba zəhməthaqqı verə bilsin. Buna görə bir neçə aydan sonra oradan çıxıb Burhanın restoranına getdim.

Yük avtomobilinin tərləmiş şüşəsini dəsmalla sildim. Ürəyim istəyirdi ki, tez-tez arxada qalan bayırdakı səhnələr kimi Burhan və onun yanında işlədiyim çətin günlər də həmişəlik beynimdən silinsin. O günlər barədə əsla fikirləşmək istəmirdim.

Mən restoranın yeganə xörəkpaylayanı idim, müştərilərsə çoxdu. Orada "namaz" sözünü dilimə gətirməyə cürət etmirdim. Namazımın qəza olacağından qorxub bir küncdə tez-tez əyilib qalxanda mənə ağzına gələni deyirdi. Belə rəftarına görə orada bir neçə aydan artıq qala bilmədim, bu peşəni öyrənəndən sonra İğdırın ən böyük restoranı olan Saraya getdim. Orada bir neçə ofisiant işləyirdi, səhər saat 8-dən axşam 10-a qədər müştəri olurdu.

Saray restoranı İğdırın ən yaxşı və ən gözəl restoranı idi. Cəfər adlı iranlı sahibi həm mehriban idi, həm yaxşı zəhməthaqqı verirdi, həm də, ən önəmlisi, namaz qılanda məni həvəsləndirirdi. Restoranın əksər işçiləri iranlılar idi. Onların arasında Hüseyn tamam başqa idi. Bekar olanda oturub onunla danışırdıq. Günbatan çağı müştəri olmayanda bayıra çıxıb qıpqırmızı səmaya baxırdıq. Onunla tanış olandan bəri qürub vaxtı işimiz bundan ibarət olmuşdu. Əlbəttə, orada çox qala bilmirdik; müştəri gələn kimi tez içəri girir, müdirimiz Cəfərin mehribanlığından sui-istifadə etmək istəmirdik. Onun

namaz qılmağa icazə verməsi bizim üçün dünyaya dəyərdi.

Gözlərimi yola dikmişdim, yavaş-yavaş dağların arxasına çəkilən günəşə baxırdım. Hüseyni düşünürdüm. Hər şeyimi ona borclu idim, arabir söylədiyi sözlərə və mənə öyrətdiyi məsələlərə görə. Yekə qarınla restorana gəldiyi gündən dörd ay ötürdü, amma mənim üçün bir göz qırpımı qədər tez ötmüşdü. Həmin gün adət üzrə mənə bəyanat gətirmişdi. Paketi verəndə səs tonunu endirib dedi: "Ehtiyatlı ol, bu dəfə içində mühüm bir şey var". Paketi alıb gizlicə soyuducunun altına qoydum.

Saatın əqrəbləri 6-ya çatanda bəyanatları paltarımın altına yerləşdirdim, Cəfərdən icazə alıb restorandan çıxdım. Bunu kimsə bilsəydi, işim bitərdi. İranda inqilabın qələbəsindən sonra Amerika və onun nəzarəti altında olan ölkələr, o cümlədən Türkiyə bu dövləti devirmək üçün əlindən gələni edirdi.

O vaxtlar daha çox, varlı ailələrdə televizor vardı. Arabir gördüyüm televiziya proqramlarında İranı, imamı və özlərinin dediyi kimi, diktator ruhaniləri təhqir etmək Türkiyə kanallarının gündəlik işlərindən olmuşdu. Şayiələr o qədər çoxalmışdı ki, hətta kənd məscidinin imamı da İmam Xomeynini söyürdü. O vəziyyətdə kimsə İran inqilabını təbliğ etsəydi, dövlətin işgəncələri altında başına nə gələcəyi məlum deyildi.

Bəyanatlar məndə olanda Mustafagilə getmirdim, tez icazə alırdım ki, gecə düşmədən kəndə çatım. İğdırdan Oğrucaya 60 km məsafə vardı, onun yalnız

40 km-ini maşınla getmək olurdu. Qalanını piyada getməli idim.

Kəndə çatınca gecə oldu. Birbaş məscidə getdim. Bəyanatların bir qədərini məscidin taxçasına qoydum, qalanını yoldakı həyətlərə atıb təxminən saat 1-də evə çatdım. Sakit bir yer tapıb imam Xomeyninin türkcə yazılmış bəyanatını bir-iki dəfə deyil, on dəfə oxuyub öpdüm. Hamısı nurlu, həqiqət dolu sözlər idi. Onlar azad bir insanın ruhunun dərinliyindən gələn fəryadlar idi, amma çoxu bundan xəbərsizdi.

Həmin bəyanatların öncəki bəyanatlarla fərqi bir şəkildə idi. Bu şəkil səhərə qədər məni yatmağa qoymadı. Şəkli öpüb ağlayırdım. Bir tərəfdən imamı, onun sakitliyini, İslam üçün çəkdiyi bütün zəhmətləri görürdüm, bir tərəfdə də özümü. Fikirləşirdim ki, on səkkiz ildə İslam üçün nə etmişəm? İslama görə özümdən nə qədər keçmişəm? Dinimi nə qədər tanıyıram? İslamı tam öyrənmək və təbliğ etmək mənim və mənim kimilərin vəzifəsi deyilmi?! Belə suallar həmin gecə dəfələrlə beynimdə fırlanıb məni həyatımın ən böyük qərarına yönəltdi.

Cabbar bədənini yük maşınının pəncərəsindən bayıra çıxarıb bütün saçı ağarmış bir sürücü ilə hal-əhval tuturdu. Mən üşüyürdüm. Büzüşüb gözlərimi yumdum.

Ertəsi gün necə də şirin keçmişdi. O günün hər bir anını beynimdən keçirmək istəyirdim:

Səhər həmişəkindən də tez yuxudan oyandım, əl-üzümü yuyub süfrə başında oturdum. Anam üç stəkanı çayla ağzınacan doldurub mənim, atamın və

özünün qabağına qoydu. Bir qədər çörək kəsdim. Nə qədər çeynəyirdimsə, aşağı getmirdi. Stəkanı başıma çəkdim. Sözümü deyib rahatlaşmalı idim. Anam sarıdan arxayın idim, atamdan isə yox.

Boğazımı arıtlayıb başıaşağı halda dedim:

– Düzü, mən sizə bir söz demək istəyirdim.

Hər ikisi gözlərini mənə dikdi. Baxışlarının ağırlığını hiss etdiyim üçün başımı qaldıra bilmirdim. O vaxtacan bilməzdim ki, danışmaq dünyanın ən çətin işlərindən biridir. Heç bir söz tapmırdım, hamısı yadımdan çıxmışdı. Ən yaxşısını seçib düz hədəfə vurmaq lazım idi. Başımı anama tərəf çevirib dedim:

– Ana, yadındadır, həmişə sənə deyirdim ki, çoxları İrana gedib bir neçə il hövzədə dərs oxuyur, ruhani olub qayıdır?

Anamın gözlərində narahatlıq hiss olunurdu. Atamın stəkanı havada qalmışdı. Boğazımda qalmış suyu udub əlavə etdim:

– İndi özüm bu işi görmək istəyirəm. İrana gedib hövzədə təhsil almaq, ruhani olub qayıtmaq istəyirəm.

Anamın gözləri yaşla doldu, dodaqlarında təbəssüm yarandı:

– Mənim narazılığım yoxdur, oğlum, yaxşı fikirdir, - dedi.

Rahat nəfəs alıb narahat baxışımı atama tərəf çevirdim. Çayını içib qurtarmış, gözlərini mənə dikmişdi. Bilirdim ki, razı deyil. Səbəbini də bilirdim: əkinçilik və köməyə ehtiyac. Beş qardaşdan ikisi rayonda yaşayırdı, Yəqub hərbi xidmətdə idi, mən də İrana gedirdim; atam Vəli ilə qalacaqdı.

Ancaq mən də bu asanlığa geri çəkilən adam deyildim. Ən önəmlisi, on səkkiz yaşım vardı, əsgərlik tuthatutundan qorxurdum. Yəqub qayıtsaydı, mənim növbəm idi; tez hazırlaşıb getməli idim. Gərək əlimdən gələni edəydim. Vəlinin adından atama lazımınca kömək sözü verdim. Öz adımdan da kişi sözü verdim ki, dərslərim bitən kimi kəndə qayıdıb ona kömək etməklə yanaşı, həm də məscidimizin ruhanisi olacağam.

Yalvarışlarım, dəlillərim və anamın xahişləri ilə keçən bir saatdan sonra atamın razılığını da aldım. Artıq yer üzünün ən xoşbəxt adamı idim, sanki bütün arzularıma çatmışdım. Az qalmışdı qanad açıb İrana qədər uçum.

# 2

Nəhayət, gecənin yarısı Təbrizə çatdıq. Yük maşınından yerə hoppandım, hər şeydən öncə bir neçə dəfə dərindən nəfəs alıb ciyərlərimi şəhərin 1982-ci il 6 fevral havası ilə doldurdum. Sonra da yol yoldaşımla birlikdə Vağzal xiyabanında yerləşən bir otelə getdim.

Ertəsi gün oteldən çıxanda Cabbar dedi ki, Təbriz bazarına getmək istəyir. Xahiş etdi ki, mən də onunla gedim. Razılaşmadım. Mədrəsəni görməyi o qədər səbirsizliklə gözləyirdim ki, beynimə başqa heç bir şey gəlmirdi. Bazarın yanında onunla sağollaşıb mədrəsəni tapmaq üçün bütün əşyalarımla birlikdə Təbriz xiyabanlarında gəzməyə başladım. Mədrəsənin yerini Cabbar da bilmirdi və mən onu necə tapacağımı düşünürdüm.

Mədrəsə barədə yalnız bir ad bilirdim, onu da ağa Şükürdən eşitmişdim. Onun Saray restoranının yanında çərəz dükanı vardı, restoranın sifarişlərini həmişə ona verirdik. Oraya gedib-gələndə

öyrənmişdim ki, oğlu Təbrizdə Vəliəsr adlı mədrəsədə tələbədir. Mən də o mədrəsəyə girməyə ümidlə İrana gəlmişdim.

Türkiyədən və türkdilli olmağıma baxmayaraq, ləhcəm təbrizlilərlə yerlə göy qədər fərqlənirdi. Bir neçə nəfərdən ünvanı soruşdum, amma heç biri məni başa düşmədi. Polisdən soruşmağa da qorxurdum. Türkiyədə polisdən bir söz soruşanda cavabdan öncə kim olduğunu, nə işlə məşğul olduğunu və haradan gəldiyini söyləməli olurdun. Mənim də nə danışmağa dilim vardı, nə də görkəmim iranlılara bənzəyirdi. Uzun palto geymiş, öz bölgəmizə məxsus çox fərqli bir papaq qoymuşdum. Polis bundan şübhələnər və mənə başağrısı yaranardı.

Qərara gəldim ki, özüm mədrəsəni axtarım. Bu xiyabandan o xiyabana, bu məhəllədən o məhəlləyə, hətta bazarlarda və pasajlarda da mədrəsə ardınca gəzdim, amma tapılmadı ki, tapılmadı.

Yorulmuşdum. Nə qədər axtarırdımsa, nəticəsi olmurdu. Təbrizin xiyabanlarında çox sıxlıq vardı. Bizim vilayətimizin ən böyük şəhəri Qarsdır. Orada hər yarım saatda xiyabandan səkkiz maşın keçirdi. Təbrizdə isə hər dəqiqədə qarşından səkkiz maşın ötürdü. Yolda bir neçə nəfərdən ünvanı soruşdum, amma heç biri sözlərimi anlamadı; hamısı mat-məəttəl mənə baxıb başını yelləyir, gedirdi.

Yorğun halda gəzdiyim yerdə birdən gözlərim bir ruhaniyə sataşdı. İranlı ruhanilərin necə geyindiklərini görmüşdüm. Tez yaxınlaşıb salam verdim. İyirmi beş yaşlı bir gənc idi. Çoxlu işarə və mimikalarla başa

saldım ki, Türkiyədən gəlmişəm və elm hövzəsinə getmək istəyirəm. Yorğun və qərib olduğumu görüb əlimdən tutdu, məni Talibiyyə mədrəsəsinə apardı. Rayonun came məscidinə bitişmiş bir mədrəsə idi, orada iranlı tələbələr təhsil alırdılar.

Günortaya yaxın oraya çatdıq. Cümə axşamı idi, mədrəsə tətil olmuş, müdiriyyət getmişdi. Tətil günlərində oranı idarə edən şəxs pasportumu alıb məni həyətdəki hücrələrin birinə apardı. 12-13 kv metrlik bir otaq idi, ortasında neftlə guruldayıb hücrəni qızdıran bir soba vardı.

Otaqdakı üç tələbəyə salam verib əşyalarımla birlikdə hücrənin bir küncündə oturdum. Orada da işarələrlə otaq yoldaşlarıma başa saldım ki, kiməm və nə üçün gəlmişəm. Onlar da təsdiq əlaməti kimi başlarını yellədilər. Hələ yolun yorğunluğu bədənimdə idi, səhərdən çoxlu yüklə ora-bura getmişdim. Beləliklə, gözlərimin nə vaxt yumulduğunu bilmədən yuxuya getdim.

Axşam azanının səsinə oyandım. Namazımı qılıb hücrədə oturdum. Orada qalmağa çox hövsələm yox idi. Mədrəsəyə girəndən bəri tələbələrin təəccüblü baxışlarını hiss edirdim. Buna haqları vardı; hamısı iranlı idi, mən başdan-ayağa onlardan fərqlənirdim: ləhcəm, görkəmim, geyimim. Sözlərimi heç kim başa düşmürdü. Ata-anam yadıma düşdü. Düşünməzdim ki, qürbət hissi məni bu qədər tez yaxalaya bilər. Daim fikirləşirdim ki, görəsən, bu yolu sonacan gedə biləcəyəm, yoxsa yox. Əgər yarıyolda peşman olsam, ailəmə necə xəbər verərəm? Anam məni böyük

ümidlə yola salmışdı. Yəqin, səhərə qədər on dəfə yuxuda görmüşdü ki, ən yaraşıqlı oğlu hacı ağa olub İğdıra qayıdıb və kəndin məscidində imamlıq edir.

Məscidin səsucaldanından yayılan səs diqqətimi cəlb elədi. Gözəl səslə ərəbcə nəsə oxunurdu. Mən Quranı yaxşı öyrənmişdim, bu, Quran mətni deyildi. Əşyalarımı hücrə yoldaşlarıma tapşırıb mənimlə yaşıd olan və məni digərlərinə nisbətən daha yaxşı anlayan bir tələbə ilə came məscidinə getdim. Camaat sıra ilə oturmuşdu. İlk dəfə orada Kumeyl duası oxuyub doyunca ağladım. Bilmirdim ki, bu ağlamaq Allahdan ötrüdür, yoxsa darıxdığım üçün.

Hövzəyə qayıdıb hücrə yoldaşlarımın yanında yatdım. Ertəsi gün cümə günü idi, cümə namazı qılınacaqdı. Yenə yeni dostumla məscidə yola düşdüm. Ömrümün ilk cümə namazını da orada Ayətullah Mələkutinin imamlığı ilə qıldım. Amma necə qıldığımı özüm də bilmədim. Birinci rükətdə Həmd və surədən sonra rükuya gedib üç dəfə "Subhanəllah" dedim, amma nə qədər gözlədimsə, yanımdakılar əyilmədilər. Bir qədər başımı qaldırıb ətrafa göz qoydum: məndən başqa hamı qünutda idi. Mən gündəlik namazlar kimi qiraətdən sonra rükuya getmişdim, nə edəcəyimi də bilmirdim. Tez qamətimi düzəldib qünut üçün əllərimi qaldırdım.

Birinci rükət bitdi, ikinciyə qalxdıq. Bu dəfə qərara gəldim bütün diqqətim imamda olsun ki, problem yaranmasın. Həmd və surədən sonra hamı rükuya getdi. Bir qədər gözləyəndən sonra mən də arxayın şəkildə əyildim, düşündüm ki, yəqin, birinci rükətdə

tutduğumuz qünut ikinci rükətin əvəzinə imiş. Rükudan qalxandan sonra arxayın şəkildə səcdəyə baş vurmaq istəyərkən, yarıyolda mükəbbirin səsi gəldi: "Qünut! Qünut!" Hirsləndim. Mən rükuya gedəndə də qünut tuturdular, səcdəyə gedəndə də. Məcbur qalıb yarıyoldan qayıtdım və qünut tutdum.

Məsciddən qayıdanda fikirləşdim ki, mən niyə bu iki günü Talibiyyə mədrəsəsində qalıb şənbə günü müdirin gəlməsini gözləyirəm. Fikirləşdim ki, buradakı adamlardan Vəliəsr mədrəsəsinin ünvanını alıb oraya gedim. Mədrəsəyə girən kimi tətil günlərində oranı idarə edən adamın yanına getdim. Soyadı yadımda qalmayıb. Ona başa saldım ki, mən Vəliəsr mədrəsəsinə getməliyəm, türkiyəlilər orada dərs oxuyurlar. Həmin şəxs bir kağıza telefon nömrəsi yazıb mənə verdi.

Mədrəsədə metal pulla işləyən bir telefon aparatı vardı. İrana gəlməzdən öncə bir qədər İran pulu da almışdım. Birinci pulu aparata saldım. Telefona cavab verən adam ilk salam-əleykdən sonra, söhbətimiz bitmədən telefon əlaqəsini kəsdi. İkinci və üçüncü dəfə də qışqıra-qışqıra nəsə deyib yenə əlaqəni kəsdi. Dördüncü, ya da beşinci dəfə necə oldusa, onu başa sala bildim ki, yaxınlıqdakı türkiyəli tələbələrdən birini çağırsın, onunla danışım. Telefona gələn adam Şeyx Qədir Akaras idi. Mənə dedi ki, həmin mədrəsədə qalım, sabah gəlib məni aparacaq.

Ertəsi gün bir nəfərlə gəldi. Məni bir qədər sorğu-sual etdilər ki, kiməm, İrana niyə gəlmişəm və nə vaxta qədər qalmaq istəyirəm. Sualları bitəndən və

casus olmadığımı öyrənəndən sonra özləri maşınla məni Təbrizin Vəliəsr mədrəsəsinə apardılar.

Mədrəsə böyük idi, ağac dolu həyət hücrələrlə dövrəyə alınmışdı. Lakin ayağımı mədrəsəyə qoyar-qoymaz bildirdilər ki, fars dilini bilmədiyinə görə səni qəbul edə bilmərik, gərək əvvəlcə Bonab rayonuna gedib farsca öyrənəsən.

Qədir məni avtovağzala apardı, avtobus bileti alıb tapşırdı ki, Bonaba çatan kimi bir taksi ilə came məscidinə gedərsən.

Mənə deyilən avtobusa mindim. Nədənsə elə bilirdim ki, Bonab axırıncı dayanacaqdır. Bu fikirlə axırıncıda avtobusdan endim. Orada bir taksi tutub came məscidinə yollandım. Came məscidi, həqiqətən də, vardı, ancaq problem bu idi ki, yanında elm hövzəsi yoxdu. Bir nəfərin qarşısını kəsib yenə çətinliklə başa saldım ki, türkiyəlilərin mədrəsəsinə getmək istəyirəm. Həmin adam təəccübdən gözləri bərəlmiş halda dedi:

- Mənim bildiyim qədərincə burada Türkiyə mədrəsəsi yoxdur.

- Məgər bura came məscidi deyil?! – deyə soruşdum.

- Hə, amma burda mədrəsə yoxdur.

Düşündüm ki, yəqin, sözümü başa sala bilməmişəm, çünki burada mütləq Türkiyə mədrəsəsi olmalıdır.

Günorta namazının vaxtı idi. Namaza çatmaq üçün bir ruhani sürətlə məscidə tərəf gedirdi. Bu dəfə də problemimin bir ruhani tərəfindən həll olunacağına

ümidlə ondan ünvanı soruşdum. Eşitdiyim yeganə cavab bu idi ki, bura Erməni xiyabanıdır, bu rayonda sənin dediyin mədrəsə yoxdur. “Erməni” sözünü eşidəndə çox narahat oldum, o qədər hirsləndim ki, üzümü yana çevirdim. Bizdə "erməni" sözü ən pis söyüşlərdəndi. Elə bildim ki, namazına mane olduğuma görə məni söyür.

Yorğun və dilxor idim. Namaz qılıb istirahət etməkdən ötrü came məscidinə girməkdən başqa yolum yox idi. Namazımı qılıb məscidin bir tərəfində oturdum. Mədrəsəni tapmaqdan ötrü nə qədər sual-cavab etməli olduğumu düşünəndə dəli olurdum. Dil problemimdən əlavə, əşyalarım da çətinlik yaradırdı. Anam analıq haqqını verərək mənə 5 kq-lıq yun yorğan vermişdi. Ondan əlavə, yemək, paltar və digər əşyalarım vardı. Ümumilikdə 15 kq yükü, hara gedirdimsə, daşımalı olurdum.

Məscidin tez-tez oyan-buyana gedən və məni görəndə gülümsəyən xadimini gördüm. Məscidin həyətində otağı vardı, görünür, orada yaşayırdı. Oraya getdim, yarımçıq salam-əleykdən sonra xahiş etdim ki, əşyalarımı bir neçə saatlıq oraya qoyum, gedib mədrəsəni tapım. O vaxta qədər üzündən təbəssüm əskilməyən xadim qaşlarını düyünləyib dedi: "Yox, ağa, əşyaların burda itər, mən bunun məsuliyyətini qəbul edə bilmərəm". Çarəm yox idi; 15 kq yükü çiynimə atıb məscidin həyətindən çıxdım.

Günorta saat 2 idi. Acqarına küçələrdə gəzdiyim yerdə birdən yolun kənarında dayanmış bir araba gördüm, içindəki püstələr yoldan ötənlərə göz

vururdu. Satıcı qışqırırdı: "Püstənin kilosu on tümən". İran xörəklərinə öyrəşməmişdim. Yarım kilo püstə alıb əşyalarımı yerə qoydum, aclıqdan hamısını birdəfəyə yedim. Boş qarına yediyim yarım kilo püstə mədəmi pozdu, bütün problemlərimə başgicəllənmə və ürəkbulanma da əlavə olundu.

Çox narahat idim. Hava get-gedə qaralırdı və mən hələ də mədrəsəni tapmamışdım. Axşam düşsəydi, o soyuqda gecələmək də problem olacaqdı; gərək beşkiloluq yorğanı çıxarıb yolun kənarında yataydım. Qarşıdan gələn bir gəncə yaxınlaşıb Bonab xiyabanını soruşdum. Gənc dedi ki, bura Marağa rayonudur, Bonab da xiyaban deyil, başqa bir rayondur. Bunu eşidən kimi sinəmdən bir ah qopdu. Səhərdən axşama qədər Marağada Bonab xiyabanını axtarmışdım. Onda başa düşdüm ki, məscidin önündəki ruhani məni söyməyib, xiyabanın adını söyləyib.

Gəncin köməyi ilə bir taksiyə minib avtovağzala yola düşdüm. Sürücü köməkçisinin sərnişin yığmaq üçün "Bonab! Bonab!" deyə qışqırdığı bir mikroavtobusa yaxınlaşdım. Dörd sərnişin vardı, dördü də pasdar idi. Türkiyədə bəzi adamlar mənim İrana getmək istədiyimi biləndə təəccüblə demişdilər: "Bu fikri başından çıxar. İran pasdarla doludur, hamısı da adamöldürəndir. Sən qərib olacaqsan; əllərinə keçsən, işin bitdi!" Mənsə bu sözlərə inanmırdım, çünki Hüseyndən eşitdiklərim tam fərqli idi.

Arxayın şəkildə oturacaqda oturdum. Pasdarların biri, yəqin ki, mənim qəribə görkəmimi görüb

yanımda oturdu, gülümsəyərək hal-əhval tutdu, iranlı olmadığımı bilib gəlişimin səbəbini soruşdu. Başıma gələnləri birtəhər başa saldım, bildirdim ki, İrana hövzə eşqi ilə gəlmişəm, indi də Bonaba Şeyx Mustafa Bonabinin yanına getmək istəyirəm.

Marağadan Bonaba cəmi 15 km yol vardı; yarım saata getdik. Mikroavtobusdan enəndə gediş haqqımı həmin pasdar verdi, Bonabda itməyim deyə dostlarından ayrılıb məni mədrəsəyə apardı. Mədrəsə came məscidinin zirzəmisində yerləşirdi, bir mətbəxi, türkiyəli tələbələrə məxsus 10 kv metrlik dörd hücrəsi vardı. Böyük bir hücrə də qonaqlıq və toplantılar üçün nəzərdə tutulmuşdu. Hövzəyə girən kimi üzündən türkiyəli olduğu bilinən azyaşlı bir tələbə məni gördü. Hər halda, o da qərib idi və qürbətdə insanı tanış birini görmək qədər heç nə sevindirmir. Birdən-birə qışqırdı: "Uşaqlar, yeni tələbə gəlib!"

Bir göz qırpımında on-on beş türkiyəli tələbə məni dövrəyə alıb şeyxin otağına apardı. Pasdar mədrəsənin müdirinin orada olduğunu bilib arxayın şəkildə mənimlə sağollaşdı və iranlı pasdarlara dair məndə çox gözəl təsəvvürü yadigar qoydu.

Müdirin otağı digər otaqlardan kiçik idi. Şeyx Mustafa gözlədiyimin əksinə olaraq, 35-36 yaşındaydı. Mənə xoşgəldin deyib hücrələrin birini göstərdi. Hücrədə üç-dörd gənc tələbə vardı. O qədər yorğun idim ki, onlarla danışıb xoş-beş etməyə halım yox idi. Bu iki gündə dünyanın müsibətini başıma açmış yorğanı üzərimə atıb arxayın şəkildə gözlərimi yumdum. Ən azı, arxayın idim ki, sabah yenə yükləri özümlə daşımalı olmayacağam.

# 3

Oğruca kəndində çox çətinliklə dərs oxuduğum illərdə düşünməzdim ki, bir gün hamısı heç olacaq və mən yenidən birinci sinifdə oturmaq məcburiyyətində qalacağam. Kəndimizdə cəmi bir məktəb vardı: bir sinif otağı olan bir məktəb. Birincidən beşinciyə qədər bütün ibtidai sinif şagirdləri bir otağa toplaşır, ümumilikdə 50-60 nəfər olurduq. Əvvəlcə birinci siniflərin dərsi başlanırdı. Bu zaman digərləri sakit qalıb dərslərini oxumalı idilər. Bir qədər sonra növbə ikincilərə, üçüncülərə və bu minvalla digərlərinə çatırdı.

Evimizdən məktəbə qədər 400 metr məsafə vardı. Lakin qışın soyuğunda bu məsafəni getmək çətin olurdu. Əxlaqsız və məsuliyyətsiz müəllimlərə, soyuq havaya, münasib çanta və ayaqqabı, habelə kənddə yuxarı siniflər üçün məktəb olmadığına görə uşaqların çoxu beşinci sinifdən sonra təhsillə vidalaşırdı. Bu, mənim də başıma gəldi. Dərs oxumağa böyük həvəsimə və həmişə ən əlaçı şagird olduğuma

baxmayaraq, beşinci sinifdən sonra dərs və məktəblə vidalaşmağa məcbur oldum. Müəllimim ailəmin qərarını öyrənən gün atamın yanına gəlib yalvardı: "Oğlun istedadlıdır, heyifdir. Özüm onu rayona apararam, xərcini çəkərəm, amma icazə ver, təhsilini davam etdirsin". Atam razılaşmadı; həm rayonda qərib olacağıma, həm də köməyimə ehtiyacı olduğuna görə.

Kəndimizə qar çox yağırdı. Bəzən qarın hündürlüyü 3-4 metrə çatırdı. Həm də soyuğa və yolun problemlərinə görə ilin altı ayında rayonla heç bir əlaqəmiz olmurdu. Buna görə yaz və yay fəsillərində kiçikdən-böyüyə hamımız işləməyə məcbur olur, buğda, arpa və kartof əkib ilin növbəti altı ayına ərzaq toplayırdıq. Bu işlərə görə atamın mənə ehtiyacı vardı.

Əlbəttə, mən də bu asanlığa geri çəkilən adam deyildim. O qədər yalvardım ki, ata-anam təhsil bəhanələrimin qarşısını almaq üçün məni ikiəlli Hacı Güldoğuşa təhvil verdilər. O, kəndin yeganə Quran müəllimi idi, əsasən altı ayda tamamlanan Quran kursunun haqqı bir qoyun olurdu. Mən bu kursu dörd aya bitirdim. Hacı axırıncı gün əllərimi tutdu, gözlərini gözlərimə dikib dedi: "İsa, sən istedadlı uşaqsan. Əgər əməlli-başlı bir ruhani olmaq istəyirsənsə, İrana getməkdən başqa yolun yoxdur". Və mən artıq İrandaydım, “əməlli-başlı” ruhani olmaq üçün Bonabda fars dilini öyrənirdim.

Mədrəsə uşaqları fərqli səviyyələrdə idilər. Bəziləri iki, bəziləri dörd və ya altı ay idi gəlmişdilər. Fars dili

əsas dərs idi, əlifbadan başlayaraq yazıb-oxumağı öyrənirdik. Diqqətlə və kəlmə-kəlmə oxuyurduq. Biologiya, riyaziyyat və dini dərslər fars dili qədər əhəmiyyətli deyildi. Məsələn, riyaziyyatı saymaq və hesablamaq, din dərsini ümumi etiqadlar səviyyəsində öyrənirdik. Hücrə yoldaşım Əhəd Talanla hər axşam dərsləri birlikdə oxuyub bir-birimizə danışırdıq, farsca sözlərin mənasını soruşur, cümlə qurur, başayaq cümlələrimizə doyunca gülürdük.

Günün çoxunu fars dili dərslərini öyrənməklə keçirirdik, amma onun yanında, daha çox, sübh namazından sonra Quran dərsimiz də olurdu. Əxlaq dərsimiz müdirimizin qardaşı Şeyx Məcid Bonabinin moizəsi ilə keçirdi. O, kamil insan idi, söhbətləri məni - o vaxta qədər əxlaq dərsi görməmiş on səkkiz yaşlı bir gənci valeh edirdi. Mən dərsdən sonra saatlarla mat-məəttəl qalırdım ki, bu qədər ili necə qəflət içində olmuşam. İbtidai sinifdə bir müəllimimiz şərab içir, sərxoş halda uşaqları döyürdü. Şeyx Məcidin dərslərindən sonra bildim ki, əsl müəllim oxuyub-yazmağı öyrətməklə kifayətlənməyən, şagirdlərinə həm də əxlaq öyrədən müəllimdir.

Bonabda sayımız az idi, ən çox, on beş nəfər olurduq. Mən, Bayram Dalğa, Hürriyyət Varol və Möhsün Polad 19, digərləri isə 15-16 yaşlarında idilər. O zaman təhsil kodu, təqaüd və bu kimi şeylər yox idi. Bizə təhsil xərcinə yardım adı altında cəmi 150 tümən pul verilirdi, biraylıq xərcimizi də ödəmirdi. Sayımız az olduğuna görə şeyx korpusdan hər gün bizə xörək gətirmələrini istəmişdi. Korpus

arabir nahar yeməyimizin əziyyətini çəkirdi, amma əsas xərclərimiz öz öhdəmizəydi.

İşləri bölmüşdük: Möhsün Polad mədrəsənin çayçısı idi; çay dəmləmək işinə baxırdı. Cəfər Bayarı alış-veriş işinə təyin etmişdik. Qalanımız da hər gün növbə ilə qabları yuyurduq.

Bir gün Cəfər alış-verişə gedəndə mən də ona qoşuldum. Min cür məşəqqətlə yorğan gətirmişdim, amma döşəyim yox idi. Mədrəsədə də hər adama bir ədyal verilirdi. Gedib böyük bir süngər döşəklə qayıtdım. Mədrəsədə döşəyi olan birinci adam idim. Bunu mədrəsəyə girişimdən və tələbələrin təəccüblü baxışlarından anladım. Lakin bəzilərinin baxışlarında təəccübdən əlavə maraq da vardı. Bunun mənasını həmin axşam bildim.

Yatanda süngər döşəyimi gətirdim. Hələ döşək üzərində düz-əməlli uzanmadan hiss etdim ki, bədənim islandı. Bilmirəm hansı halal süd əmmiş nə vaxt gedib ona su vermişdi! Gecə ikən döşəyi çıxarıb nərdələrin üstünə atdım. Səhər çağı uşaqların gülüşündən mədrəsə partlasaydı da, döşəyi sərməli idim.

Sübh çağı da birtəhər dözüb heç kimə bir söz demədim. Ancaq növbəti axşam döşəyi gətirməyə gedəndə gördüm ki, ondan hələ də su damır. Bu dəfə isə mədrəsə mənim nərələrimdən partlamağa qaldı. Fikirləşirdim ki, bir qədər hay-küy salsam, işə yarayar. Ancaq olmadı. Növbəti gecə yenə böyük ümidlə döşəyə yaxınlaşanda eyni vəziyyətlə qarşılaşdım.

Çarə yox idi; gedib mədrəsənin verdiyi ədyalın üzərində uzanır, əllərimi başımın altına qoyub sürahilərə və döşəkdən daman su damcılarına baxırdım. Döşəyi isladan adamı bircə dəfə də olsa, yaxalamaq istəyirdim. Onda Allah bilir, onun başına nə oyun açardım! Kimin işi olduğunu da bilmirdim. Tələbələrin üzlərini bir-bir təsəvvürümdə canlandırırdım, mədrəsənin dəcəllərinə nəzarət edirdim, hədələyirdim, amma vəziyyət dəyişmirdi. Fikirləşirdim ki, bir gecə oyaq qalıb cinayətkarı tapım, amma özüm də bilmədən kirpiklərim ağırlaşırdı, məni yuxu tuturdu və sübh çağı yenə tələbələrin gülüşünə oyanırdım. Düz iki ay bu vəziyyət davam etdi. Qış bitdi və mənim isti yumşaq döşək üzərində yatmaq arzum ürəyimdə qaldı.

Bonabda hər şey dərslə bitmirdi, idman və əyləncəmiz də olurdu. Müdirimizin Əbülhəsən adlı üçüncü qardaşı vardı. Ruhani deyildi, amma ruhanilərdən geri qalmırdı; çox mənəviyyatlı və əxlaqlı insan idi. Bağı vardı, arabir Vanet kiçik yük avtomobili ilə mədrəsəyə gəlirdi. Uşaqlarla yük yerinə qalxır, hamıdan axırda da Möhsün Poladı 3-4 çay termosu ilə mindirib üzüm bağına gedirdik. Bu, bağda meyvə olmayan və suvarılma zamanlarına aiddi. Meyvə yetişəndə isə on beşimiz də üst-üstə minib qutuları başımızın üstünə qoyurduq, bağa qədər zarafatlaşırdıq, gülməkdən qarnımız ağrıyırdı. Bağa çatan kimi hamımız ətrafa səpələnir, iki-üç saat ərzində ağacları boşaldırdıq.

Bağdan təmiz bir arx keçirdi. Yorulub əldən düşəndə Hacı Əbülhəsən bir qutu kişmiş üzümünü suya batırıb çıxarırdı. Suyu axandan sonra qutunu ortaya qoyub deyirdi: "Yorulmayasınız! Nuşi-can!" Biz də aclıqdan çıxmış adamlar kimi yeşiyə daraşıb son dənəsinə qədər yeyirdik. Günbatana yaxın mədrəsəyə qayıdanda üzüm yeşiklərini üst-üstə yığır, özümüz Vanetdən sallanırdıq. Mədrəsəyə çatandan sonra öz payımız olan iki yeşik üzümü götürüb Əbülhəsəni yükü ilə birgə yola salırdıq.

Hacı Əbülhəsənin bağından əlavə, idman etmək və dərs oxumaq üçün başqa bir gözəl yerimiz də vardı. Mədrəsənin arxasında Dərya adlı bir xiyaban vardı. Sonu Urmiya gölünə bitişdiyinə görə ona belə ad qoymuşdular. Mən Seyid Rəzəvi, Möhsün Polad, Bayram Dalğa, Hürriyyət Varol və Əhəd Talanla birlikdə arabir kitabları qoltuğumuza vurub 1-2 km piyada gedərək gölə çatırdıq. Sağ tərəf ağac və yaşıllıqla dolu olurdu, sol tərəfdə isə bataqlığa çevrilmiş böyük bir çala vardı. Mən ömrümdə elə çirkli və qara çala görməmişdim.

Bir gün cüməydi, darıxırdıq; xüsusən də ailəmizlə son görüşümüzdən bir neçə ay ötən bizlər üçün. Kitabları götürüb həmişəki qrupla yola düşdük. Gəlişimizdən bir saat ötmədən göydə gurultu qopmağa başladı. İki təyyarə səmanı yara-yara irəliləyirdi. İraq qırıcılarının yaşayış bölgələrini, xüsusən də böyük və həssas şəhərləri bombaladığını eşitmişdim, amma görməmişdim. Hər şey bir anda baş verdi. Bir göz qırpımında kitablar havaya uçdu və

hərəmiz bir sığınacağa qaçdıq. Mən əlimi başıma qoymuşdum, nə qədər dua və zikr bilirdimsə, oxuyub qaçırdım. Birdən təyyarələrin gurultusundan da güclü bir səs gəldi. Seyid Rəzəvi idi; qaçdığı yerdə, necə olmuşdusa, bataqlığa düşmüşdü.

Yerə uzanıb əllərimi üzümə tutmuşdum, barmaqlarımın arasından baxırdım. Seyid qışqırıb kömək istəyirdi. Hətta o məsafədən balaca dilinin boğazında titrədiyini görmək olurdu. Ancaq heç birimiz sığınacağımızdan çıxmağa cürət etmirdik. Hamımız qorxur, yalnız dua edirdik. Allaha şükür, məsələ xeyirlə bitdi.

Təyyarələr gedəndən sonra hamımız seyidi dövrəyə aldıq. Bu dəfə kömək etmək üçün on əl birdən ona doğru uzandı. Bataqlıqdan çıxanda başdan-ayağa bütün bədənindən palçıq damırdı. Əşyalarımızı toplayıb yola düşdük. Yolboyu seyidin üzünə baxmağa üzümüz gəlmədi. Ona köməyə getmədiyimizə görə çox xəcalət çəkirdik.

Hər şeyə rəğmən, Bonabda mənəviyyat da öz yerində idi. Namaz vaxtı dərsi və mədrəsəni buraxıb dörd pillə yuxarı qalxır, came məscidinə girirdik. İmam Ayətullah Yusif Bonabi idi, Bonabi qardaşlarının atası. Məscid ağzınacan dolurdu. Şeyx namazın sözlərini fəsahətlə tələffüz edir, səsi məsciddə əks-səda verirdi.

Bonab kiçik rayon idi, namaz vaxtı xəbərlərin çoxu məsciddə dolaşırdı. O zaman hər yerdə birinci mövzu müharibəydi. Bəsicilərin də hamısı məscid uşaqları idilər. Mən fars dilindən əlavə, müəyyən həddə yerli

dili də öyrənmişdim, onlarla rahat danışa bilirdim. Bəsicilərin çoxu ilə dostlaşmışdım, arabir söhbət edirdik. Onlar cəbhəyə gedəndə yerləri görünürdü, qayıdanda yenə söhbətlərimiz davam edirdi. Bəzən də gedişin dönüşü olmur və bütün rayon matəmə qərq olurdu.

Şəhidlər gələndə bizim vəziyyətimiz də dəyişirdi. Şeyx Mustafa başsağlığına getmək üçün şəhidlərin evlərinin ünvanını öyrənirdi. Hər dəfə bir neçə nəfərimiz onunla gedirdik; rövzə və mərsiyə, şəhidin yaxınlarının danışığı, səbri... Bütün bunlar bizdə qəribə əhvali-ruhiyyə yaradırdı.

1982-ci ilin 24 mayında Xürrəmşəhrin azadlığı xəbəri İranı lərzəyə salanda küçələr sevinclərini bölüşməyə can atan insanlarla doldu. Evlər Xürrəmşəhr sevincinə balacalıq edirdi. Maşınlar siqnal verir, qadınlar noğul və konfet paylayır, üzərliklər ocaq üzərində tüstülənir, kişilər şirniyyat paylayırdılar. Mən artıq özümü bir iranlı saydığım üçün sevinclərinə şərik oldum və ürəkdən sevindim. Özümü əsla qərib hiss etmirdim, elə bilirdim ki, öz vətənimdəyəm. Yalnız mən yox, mədrəsənin bütün on səkkiz tələbəsi belə hiss edirdi. Hamımız İran xalqının narahatlığı ilə narahat olur, sevincləri ilə sevinirdik və bizimçün İranın qələbəsindən gözəl bir şey yox idi.

Came məscidində çox qalmadım; bəlkə də üç-dörd ay. Bonabın Vəliəsr mədrəsəsi tikiləndən sonra əşyalarımızı toplayıb oraya getdik. Bu mədrəsə daha türkiyəli tələbələrə məxsus deyildi, iranlı tələbələr də orada təhsil alırdılar. Biz beş ayda az-çox fars dilini

öyrəndiyimizə görə iranlılarla birlikdə ərəb dili dərslərinə başlaya bilərdik.

Artıq rəsmi tələbə olmuşdum və hər şeydən öncə tələbə kartı almalı idim. Ad-soyadım İsa Şəbahət idi. Mədrəsə müəllimlərimdən ağa Kazimi təklif etdi ki, Səfəvi, Cənnəti və ya Məhdəvi soyadlarından birini seçim. Mən də üçüncü variantı bəyənib Bonab Vəliəsr mədrəsəsindəki dördüncü günümdə İsa Məhdəvi oldum.

Proqramlar əvvəlki kimi davam edirdi: gündüzlər dərs və mütaliə ilə məşğul olur, boş vaxtlarımızda istirahət edir, əylənirdik. Came məscidi bizdən 700 metr aralıda yerləşirdi, arabir oraya gedirdik. Qış imtahanlarından sonra Şeyx Mustafa tələbələri mühüm bir xəbər üçün toplantı zalına çağırdı. Xəbər nə idi? Əlaçı tələbələri mükafat gözləyirdi. Bəs mükafat nə idi? Hamımız bir-birimizə baxdıq. Gözlərimizdən hər şey oxunurdu, şeyxin dediyindən başqa: İmam Xomeyni ilə görüş! Bu arzunu mən heç yuxumda da görə bilməzdim.

Çoxlu gecə və gündüzlər bu anı düşünərək göz yaşı tökmüş, həsrət çəkmişdim. Oğrucadakı evimizdə taxçanın üstünə bir çərçivə qoymuşduq. Hər gün səhər çağı onun üzərindəki parçanı çəkib imamın şüşənin arxasından gülümsəyən üzünə tamaşa edirdim. İnana bilmirdim ki, gedib onu yaxından görəcəyəm. Mən onu qəlbimin dərinliyindən sevirdim və məhz onun eşqi ilə İrana gəlmişdim.

Fevralın 18-ində Təbriz əhalisi imamla görüşə gedəcəkdi. Problem say idi. Mərasimə yalnız beş

iranlı, beş türkiyəli tələbə qatıla bilərdi. Şeyx söz-söhbət olmasın deyə hamını toplayıb on beş qovluqla gəldi. Dedi ki, meyar imtahan qiymətləridir; kimin balı daha yüksək olsa, görüşə gedəcək. Qovluqları götürüb bir-bir oxumağa başladı. Ürəyim bir an da sakitləşmirdi. Bilmirdim ki, görüşə gedənlərdənəm, yoxsa yox. Növbə mənim qovluğuma çatana qədər neçə dəfə ölüb-dirildim.

– Məhdəvi: bir "20", iki "20"...

Dörd dərsin dördündən də "20" aldığıma görə görüşə gedənlərdən oldum. Görüşə iki gün qalmış sevincim ikiqat artdı. Razılaşmaya görə, imamla görüşəndən sonra həzrət Məsumənin ziyarətinə gedəcəkdik. Az qalmışdı sevindiyimdən qanad açıb uçum.

Bonabdan Tehrana qədər yol uzun idi. Ayın 17-sində axşam saat 9-da mikroavtobusla yola düşüb səhər tezdən Tehrana çatdıq. Bir məscidə gedib namaz qıldıq və səhər yeməyindən sonra Cəmarana yollandıq. Çoxlu post keçəndən, iki-üç dəfə yoxlanandan sonra hüseyniyyəyə girib oturduq.

Ürəyim bir an da sakitləşmirdi. İmamı görməyincə inana bilməzdim. İnsanların sevinci və həyəcanı çox yüksək idi. Hamı birlikdə nəğmə oxuyur, şüar və salavat deyirdi. İmam gələndə sanki Cəmaran birdən-birə partladı. Mən dördüncü-beşinci sırada idim, camaatla birlikdə dalğa kimi irəli-geri gedirdim. Boğazımı qəhər sıxırdı. Elə bilirdim ki, yuxudayam. İxtiyarsız olaraq gözlərimdən yaş süzülürdü. İmam çox heybətli idi. Anam heç vaxt şəklin üzərindən

parçanı götürməyə icazə vermirdi. O deyirdi: "Bu şəklin hörməti var; Peyğəmbər övladının şəklidir. Üstünü örtün, ona napak göz düşməsin". İndi isə şəkil yox, o Allah adamının özünü görürdüm. Görəsən, gözlərim onu görməyə layiq idimi?

İmam oturdu. Biz də oturduq. İmamın səsi ruhumun dərinliyinə nüfuz edib məni rahatlaşdırırdı. Necə gözəl hiss idi! Birbaş bizə baxmırdı, ötəri nəzər salırdı. Bilmirəm, bəlkə, baxışının təsirini bildiyinə görə gözünü heç kimə dikmirdi, lütfünü hamı arasında bölürdü. Ailəmin yeri görünürdü. İmama doyunca baxdım; atamın, anamın, bu günlərdə mənim əvəzimə də işləyən Vəlinin, Yəqubun, Mustafanın, Orucun, Tükəzin, Türkanın, Pinhanın, Gülhanın və Çiçəyin niyyəti ilə.

Bütün çıxış boyunca gözlərimi imamdan çəkmədim. Özümü elə itirmişdim ki, dediklərini başa düşmür, yalnız baxırdım. Sanki orada məndən və imamdan başqa heç nə yox idi. Ürəyim istəyirdi ki, xüsusi cazibəsi olan o nurlu çöhrəni həmişəlik yaddaşımda saxlayım.

# 4

1983-cü ilin novruz bayramı idi. Havadan bahar ətri gəlirdi. Bəsicilər maşınla xiyabanlarda gəzib döyüş mahnıları səsləndirir, insanları cəbhəyə getməyə həvəsləndirirdilər. Döyüşçülərlə söhbətlər nəticəsində uzun müddət öncədən məndə yaranmış cəbhə həvəsi günbəgün güclənirdi, daim bu haqda düşünürdüm. Bəzən saatlarla fikrə dalıb doğru yolu tapmağa çalışırdım. Mən İrana gəlmişdim ki, dərs oxuyub ruhani olum, sonra da kəndə qayıdım. Amma o şəraitdə İslamın mənim dərsimdən çox cihadıma ehtiyacı vardı.

Bəzən uşaqlarla söhbətləşəndə cəbhəyə getmək istədiklərini görürdüm, amma əksəri dərslərini müəyyən yerə çatdırıb sonra getməyi üstün tuturdu. Mənsə o qədər gözləyə bilmirdim. Eşitmişdim ki, cəbhəyə getmək üçün mədrəsə müdirinin icazəsi vacibdir. Nəhayət, bir gün müdiriyyətlə danışmaq qərarına gəldim. Şeyx Mustafa məni dinləyən kimi narahat halda dedi: "Siz gərək dərs oxuyub İslamı

təbliğ edəsiniz. Bizim yetərincə əsgərimiz var. Sonra da, Allah eləməmiş, başına bir iş gəlsə, ya da əsir düşsən, düşmən üçün yaxşı təbliğat vasitəsi olarsan, Bəəs rejimi hər gün şeypur götürüb ortaya düşər ki, İran Türkiyədən döyüşçü gətirib. Biz də gərək cavab verməli olaq".

Sözün düzünü şeyx deyirdi, amma mən də bu asanlığa geri çəkiləcək adam deyildim. Ürəyim cəbhədə qalmışdı. Döyüşçülərin xatirələrini eşidəndə ağlım başımdan çıxırdı. İslamı müdafiə etmək üçün bu böyük fürsəti əldən vermək istəmirdim. Bir neçə gün ötdü, ürəyim dözmədi. Bir gün gizlicə Marağaya getdim ki, oradan cəbhəyə yollanım. Eşitmişdim ki, şəxsi heyət Bonab, Məlikan, Həştrud və digər bir neçə rayondan Marağaya gedir, oradan Təbrizə göndərilirlər. Düşündüm ki, orada heç kim mənim Bonab mədrəsəsinin tələbəsi olduğumu bilmədiyi üçün müdirin icazəsini də istəməyəcək. Lakin məni orada da qəbul etmədilər. Qanuna görə, hər adam öz rayonundan göndərilirdi. Mən də Bonabda sakin olduğuma görə oradan ezam olunmalı idim.

Günlər ötürdü və mənim gözləməkdən başqa yolum yox idi. Bir gün heç kimə bir şey söyləmədən Bəsicin məhəllə şöbəsinə getdim. Mədrəsədən 500 metr aralıda idi. Niku soyadlı bir rəisi vardı, bir qarış uzunluğunda saqqalı olan ucaboy və enlikürək dindar idi. Bizim mədrəsəmizə də gəlib-gedir, məni az-çox tanıyırdı. İstəyimi ona söyləyəndə razılaşıb adımı qarşısındakı siyahıya yazdı.

Ezam günü səssiz-səmirsiz Bəsicə getdim. Marağaya göndəriləcək, oradan Təbrizə, oradan Tehrana, axırda da Əhvaza gedəcəkdik. Şəxsi heyət hərəkətə hazır olanda mikrofondan adımı çəkdilər. Komandir otağına getdim. Ağa Niku dəstəyi mənə uzatdı. Şeyx Mustafa idi; hirsli və narahat halda təxminən qışqırırdı: "Sən orda nə edirsən?! Sənə demədim ki, getmə?! Bu dəqiqə mədrəsəyə gəl!"

Bəsic rəhbəri işləri korlamışdı. Şeyxə zəng vurub demişdi ki, tələbələrinizdən biri cəbhəyə getmək istəyir. Əlbəttə, o da günahsız idi. Sonra mənə dedi: "Şeyx Mustafa həm Bonabın ədliyyə rəisidir, həm də komitə sədri. Onunla üz-göz ola bilmərik. Əgər deməsəydik, sonra bizə başağrısı yaranardı".

Mədrəsəyə qayıdıb birbaş müdiriyyət otağına getdim. Şeyx Mustafanın əlindən öpüb yalvardım, amma razılaşmadı. Mənə qarşı hirsli idi; sözünə əməl etmədiyimə, özünün dediyi kimi, sözünü heçə saydığıma görə. Lakin geri çəkilməməli idim. Bu fürsəti əldən versəydim, məlum deyildi bir də getməyə şərait yaranacaq, yoxsa yox. O qədər dedim ki, şeyx bezdi, məni başından eləmək üçün dedi: "Ağa Məhdəvi, bundan artıq vaxtımı alma; qalx get, qalx!" Mən də bu "qalx get" sözlərini havada tutub özümə təlqin etdim ki, getməyə icazə verir. Tez əllərini öpüb bayıra çıxdım.

Həm sevinirdim, həm də həyəcanlı idim. İlk dəfə idi döyüş bölgəsinə getmək istəyirdim. Heç bir təcrübəm yox idi. Şeyxin sözləri də canıma çox qorxu

salmışdı. Rəsul Kərəmi[1] mədrəsənin qapısının yanında dayanmışdı. Sözlərimi eşidib mənə təskinlik verdi, dedi ki, qardaşı Sirus da bu ezamdadır və beşinci dəfədir gedir; bildirdi ki, orada qardaşını tapıb işin yolunu-yolağını öyrənim.

Çantamı çiynimə atıb Bəsicə qədər qaçdım. Çox tələsməyimə baxmayaraq, gecikdim. Şəxsi heyət Marağaya getmişdi. Gərək günəş batmamış, Təbrizə yollanmamış onlara çataydım. Mikroavtobusu gözləsəydim, gecikərdim. Taksi ilə yola düşdüm və onların Marağadan hərəkət etmək istədikləri vaxt oraya çatdım. Avtobusa qalxıb boş oturacaqların birində oturdum. Təxminən yüz əlli nəfər olardıq. Yol və şəhərləri bir-bir arxada qoyub Təbrizə getdik.

Bizi Hafiz xiyabanında bir hərbi hissəyə apardılar. Digər şəhərlərdən də təxminən 800 nəfər gəlmişdi. Günbatana yaxın çatdıq. Hərəmizə bir ədyal verildi; alıb kazarmaya getdik. Orada şəxsi heyətin istirahət etməsi üçün ona yaxın yüznəfərlik yataqxana vardı. Bəziləri yorğunluqdan dərhal yatdılar, bəziləri komandirlərlə və ya dostları ilə söhbətləşməyə başladılar. Mən orada nə bir adamı tanıyırdım ki, söhbət edim, nə də kiminləsə danışmağa cürət edirdim. Bir tərəfdə oturdum. Beynimdən min cür fikir keçirdi.

Ətrafa göz gəzdirdiyim yerdə birdən bir tanış üz gördüm. Diqqətlə baxanda əmin oldum ki, özüdür;

---

[1] Rəsul Kərəmi 03.02.87 tarixində Şələmçə əməliyyat bölgəsində şəhadətə qovuşdu.

Sirus Kərəmi idi,[1] qardaşına elə oxşayırdı ki, sanki bir almanı ikiyə bölmüsən. Yaxınlaşıb salam verdim, əmin olmaq üçün soruşdum: "Siz Rəsul Kərəminin qardaşısınız?" "Bəli" cavabını eşidən kimi ürəyimdə ümid işığı yandı. Oturub ona gəliş macəramı danışdım: Türkiyədənəm, icazəsiz gəlmişəm, ən pisi də budur ki, heç bir təlim görməmişəm.

Mən danışıb qurtarandan sonra Sirus dedi:

"Təlim görmədiyin barədə heç kimə bir söz demə. Əgər bilsələr, səni göndərməyəcəklər, gərək təlimlərin başlamasını gözləyəsən. O da üç ay çəkəcək və əməliyyata çatmayacaqsan. Təlimlərdə əsasən silahdan istifadə etməyi öyrədirlər, o da bir şey deyil; əməliyyatdan bir neçə gün qabaq öyrədilənləri təkrarlayanda öyrənərsən".

Silahla az-çox tanış idim. Türkiyədə təxminən bütün ailələrdə silah vardı. Özüm bir neçə silahla işləmişdim və bu işdə təxminən peşəkar idim. Həmin gecəni öz təcrübələrimlə və Rəsulun qardaşının təskinlikləri ilə arxayın şəkildə başa vurdum.

Ertəsi gün səhər saat 8-də hamımız həyətə toplaşdıq. Hərbi hissənin komandiri 30-35 yaşlı bir gənc idi; Eyvaz Məhəmmədi adlı zəhmli, ucaboy və enlikürək bir adam. O qədər vahiməli idi ki, təkbaşına bir düşmən batalyonunun zəhrini yarardı. Uşaqları sıraya düzmək üçün əllərini bir-birinə elə vururdu ki, bütün hərbi hissə eşidirdi. Səsinin mikrofona ehtiyacı

---

[1] Sirus Kərəmi 25.03.86 tarixində Fav əməliyyat bölgəsində şəhadətə qovuşdu.

yox idi. Komanda verən kimi bütün min nəfər sıraya düzüldü.

İmama salam və şəhidlərə salavatdan sonra dedi: "Kimin yaşı qırxdan yuxarıdırsa və ya təlim görməyibsə, önə çıxsın!" Bir neçə nəfər sıralardan çıxdı. Komandir cərgələr arasında gəzəndə mənim də ürəyim yerindən qopmaq üzrə idi. Kimə çatırdısa, diqqətlə süzürdü; kimin görkəmi təlim keçmiş və ya qırx yaşdan aşağı adama oxşamırdısa, cərgədən çıxarırdı. Mən qarşıdakı adamın arxasında gizlənmişdim. Qorxu bütün vücudumu bürümüşdü, hətta başımı qaldırmağa da cəsarət etmirdim. Hərbi hissə sükuta qərq olmuşdu.

Eyvazın çəkmələrinin səsi anbaan yaxınlaşırdı. Hər addımı ilə ürəyim daha bərk döyünür, tənəffüsüm çətinləşirdi. Saniyələr ötmək bilmirdi. Addımların səsi get-gedə ucalırdı. Əlimi ürəyimin üstünə qoyub sıxdım və "Vəcəəlna"[1] ayəsini oxudum. Birdən səs kəsildi. Eyvaz düz qarşımda dayanmışdı. Sanki zaman durmuşdu. Nəfəsim gəlmirdi. Anasının qarşısında dayanan və hər an işinin üstü açıla bilən nadinc uşağa bənzəyirdim. Fikirləşirdim ki, birdən iranlılara bənzəmədiyimi, haradan gəldiyimi, təlimdə iştirak edib-etmədiyimi soruşsa, nə deyəcəyəm?

Çəkmə səsi yenə əks-səda verməyə başladı. Bu dəfə səs getdikcə uzaqlaşıb azaldı. Artıq bu səs mənə rahatlıq verirdi. Bu o demək idi ki, qəbul olmuşam və

---

[1] Yasin, 9: "Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də görmürlər".

uşaqlarla cəbhəyə gedə bilərəm. O qədər sevinirdim ki, az qala qanad çalıb hərbi hissənin səmasında qürurla uçacağam. Artıq cəbhədə iştirak şərtlərinə malik olmayanlar müəyyən edilmişdi.

Ömrümdə görmədiyim şeylər görürdüm. İnanılmaz idi. Qırx-əlli yaşlı kişilər dörd-beş yaşlı uşaqlar kimi ağlayır, komandirdən əl çəkmirdilər. Eyvaz o qədər heybətinə rəğmən, onların ağlamasına dözə bilmirdi. Nəhayət, göz yaşları işini gördü və onlara bir fürsət də verildi: hərbi hissənin bu başından o başına qədər müəyyən müddətə qaçmaq. Əlli nəfər bu yarışdan qalib çıxdı. Ümumilikdə minnəfərlik qrupumuzdan iki yüzə yaxını azaldı.

Yenə kazarmaya qayıtdıq. Birinci mərhələdən keçmişdim, amma hələ də qorxurdum. Yataqxanının qapısı açılan kimi ürəyim çırpınmağa başlayırdı. Gözləyirdim ki, biri içəri girib deyəcək: "İsa Məhdəvi, bayıra! Sən türkiyəlisən, cəbhəyə gedə bilməzsən! Mədrəsə müdiri ardınca adam göndərib. Əşyalarını topla və get!"

Həmin gün bütün həyəcanları ilə bitdi. Ertəsi gün səhər çağı yenə sıraya düzüldük. Avtobuslar qapının önündə sərnişinlərini gözləyirdi. Eyvaz və başqa bir neçə nəfər bir dəstə kartla gəldi. Adları oxuyur, kartlardakı şəkillərə baxaraq hər bir kartı öz sahibinə verib avtobusu göstərirdilər. Səkkiz yüz nəfər arasında mənim adım da oxundu. İyirmi bir yaşlı arıq bir gənc mənə və karta bir neçə dəfə baxandan sonra şəxsiyyətimi təsdiq etdi və mən avtobusun bəxtəvər sərnişinlərindən oldum.

Oturacaqlar dolandan sonra sürücü Təbriz vağzalına tərəf yola düşdü. Qatara minib Əhvaza doğru hərəkət etməyincə arxayınlaşa bilmirdim. Hələ Təbrizdə idim, kart xəbəri hər an şeyxə çata və o yenə bir telefonla bütün işləri korlaya bilərdi.

Vağzala çatdıq. Kim hansı kupeyə istəyirdisə, girirdi. Mən Sirusla və bonablı uşaqların bir neçəsi ilə bir kupeyə girdim. Hamısı azyaşlı bəsici idi. Hələ bir-birimizlə tanış olmamışdıq, heç kim danışmırdı. Bəziləri digərlərini süzüb sükutu pozmağa tələsirdilər, bəziləri isə öz hallarında idilər, artıq dua oxumağa başlamışdılar. Qatarın fiti eşidiləndə hamının səsi göylərə ucaldı: "Allahummə səlli əla Muhəmməd və ali-Muhəmməd".

Kupedə oturanlara baxıb həzz alırdım. Hövzədə tələbələr arasında bir cür rahatlıq hiss edirdim, burada bəsicilərin yanında başqa cür. Döyüşçülərin arasında olduğuma görə o qədər sevinirdim ki, həddi-hüdudu yoxdu. Qəribə haldaydım; arzusuna çatıb İslama var-gücü ilə xidmət edə bilən bir insan kimi.

Səhər saat 8-də Tehrana çatdıq. Zalda getdiyimiz yerdə uşaqların biri "Allahu əkbər! Canım fədayi-rəhbər!" şüarını söyləməyə başladı, biz də ucadan təkrarladıq. Səsimiz zalda əks-səda verirdi. Qəribə ab-hava yaranmış, bədənimizin tükləri ürpəşmişdi. Hər yerdə insanlar gözlərini bizə dikmişdilər, döyüşçüləri dua ilə yola salırdılar. Namazı Tehranda qıldıq, günortadan sonra qatara minib 1983-cü il aprelin 8-ində səhər çağı Əndimeşkə çatdıq.

Vağzalın çıxışındakı Toyota avtomobilləri bizi Aşura diviziyasının yerləşdiyi Şəhid Mustafa Xomeyni düşərgəsinə apardı. Düşərgədə birmərtəbəli böyük bir tikili vardı, içi əlli-altmış nəfərlik kazarmalarla dolu idi. Səhər yeməyindən sonra sıraya düzüldük, bizi batalyonlara və taqımlara böldülər. Mən və mənim kimi təzə gələnlər təminat qüvvələrindən olduq. Vəzifələri həmin gün axşamüstü müəyyən etdilər: minaatan, qumbaraatan, əl qumbarası atan... Ömrümdə nə qumbaraatan görmüşdüm, nə əl qumbarası, nə də minaatan. Ancaq silah çox görmüşdüm, snayper taqımına keçə bilərdim.

Birinci gün qürub çağı bizi bölmüş komandirin çiynində bir kisə şəxsi heyətə ərzaq payladığını gördüm. Kisəni ondan almaq üçün yaxınlaşdım, verməyib dedi: "Biz hamımız qardaşıq". Dedim: "Yox, siz komandirsiniz". Yenə öz sözünü söylədi: "Biz qardaşıq". Nə deyəcəyimi bilmirdim. Əlini kisəyə salıb bir neçə günlük ərzaq payımı verdi və digər uşaqlara doğru getdi. Axşam da bizim yanımızda oturub xörəyini yedi. Get-gedə gördüm ki, təkcə bizim komandirimiz yox, bütün komandirlər belədirlər.

Ağzım təəccübdən açıq qalırdı. Hərbi xidmətdə olmasam da, bizdə komandirlərin nə qədər qəddar olduqlarını, şəxsi heyəti döydüklərini, söydüklərini, onlara əmr verdiklərini qardaşlarımdan eşitmişdim. Türkiyədə yaşayıb bunları görmüş mənim üçün iranlı komandirlərin rəftarı təəccüblü idi. Onlar

tabeliklərində olan döyüşçülər kimi geyinir, onlarla bir yerdə oturub xörək yeyirdilər. Nə vəzifə vardı, nə rütbə; batalyon komandirindən tutmuş, adi bəsiciyə qədər hamı birlikdə və eyni idi.

Erkən İslam çağının hadisələri yadıma düşürdü: qoca-gənc, ağdərili-qaradərili, şəhərli-kəndli, savadlı-savadsız - hamı Peyğəmbərin yanına gəlirdi, Peyğəmbər onların arasında heç bir fərq qoymurdu. Öz-özümə düşündüm ki, bu cəbhə Peyğəmbər cəbhəsidir. Orada həzrət Məhəmməd (s) vardı, burada İmam Xomeyni. Təfəkkür həmin təfəkkürdür, təvazökarlıq da həmin təvazökarlıq.

Sanki 1400 il öncəyə qayıtmışdım. Qoca bir kişini görüb elə bilirdim ki, Salmandır. Başqa birinə baxıb deyirdim ki, Əmmardır. Peyğəmbər dostlarının yanında olduğuma görə sevinirdim. Bilirdim ki, minillik yolu birgecəyə gedən döyüşçülərin arasında özümü islah etməli, buradan əliboş qayıtmamalıyam. Onların yanında özümü nəinki qərib hiss etmir, hətta elə bilirdim ki, illərdir onlarla birlikdə yaşamışam.

Məsələ təkcə bərabərlik deyildi, oranın mənəviyyatı da çox yüksək idi. Birinci gecə hərbi hissənin yarıdan çoxu namazxanada gecə namazı qılırdı. Hamı dua mərasimlərində iştirak edirdi, dua zamanı ağlayırdı, əllər yuxarı qalxır və möhtəşəm bir atmosfer yaranırdı. Mən belə mənəvi auranı hətta hövzədə də görməmişdim.

Düşərgədə qaldığımız bir neçə gündə bizə dərslər təşkil etdilər: taktika, atıcılıq, qumbara atmaq və s. Kalaşnikov avtomatı veriləndə tez uşaqlardan daraq

doldurmağı, nişan almağı, silahı açıb-bağlamağı öyrəndim. Bir gün atıcılıq yarışı keçirdilər. Bir hədəf təyin edib atəş açmalı olduğumuzu söylədilər. İlk altı nəfər hədəfi vura bilmədi. Yeddincisi mən idim. Məsafəni beş yüz metr təxmin edib silahı tənzimlədim, hədəfi dəqiq vurdum və komandirdən uca bir “afərin” aldım.

Onuncu gün qürub çağı mikroavtobuslar düşərgənin arxasında sıraya düzüldü. Minib yola düşdük, sübhə yaxın Fəkkənin yaxınlığında bir yerə çatıb günbatana qədər orada qaldıq. Gecə yenə mikroavtobuslar gəldi. Sürücü avtobusu işə salan kimi "Kərbəla! Kərbəla! Biz gəlirik!" nəğməsi başladı. Sürücü sükanı buraxıb iki əli ilə sinə vurur, "Kərbəla! Kərbəla! Biz gəlirik!" deyirdi. Mikroavtobusun içində qəribə coşqu vardı.

Mikroavtobuslar bir yerdə dayandı. Güllə və mərmilərin işığı səmada yanıb-sönürdü. Əməliyyat bölgəsindən uzaq olsaq da, hər iki tərəfin artilleriyasının səsini yaxşı eşidirdik. Əməliyyat başlamışdı, hər tərəfdən atəş yağırdı. Artıq "Kərbəla! Kərbəla!" səsi də kəsilmiş, mikroavtobusa qəribə sükut hakim olmuşdu.

Piyada yola düşdük. Bir neçə kilometr gedib bir torpaq sipərə çatdıq. Top-tank səsi bir an da kəsilmirdi. Bizimkilərlə düşmənlərin arasındakı ərazi əsl cəhənnəmə dönmüşdü. Saat 10-da əməliyyat başlamış, bizsə saat 1-də, yəni döyüşün ən qızğın çağında çatmışdıq. Ömrümdə ilk dəfə idi belə atəş

oyunu görürdüm! O qədər dəhşətli idi ki, təsəvvürü belə mümkün deyil.

Bir neçə nəfər elə əvvəldə yaralandı. Torpaq sipərin arxasında oturmuşduq, Allahdan istəyirdim ki, hələ mənə şəhadət qismət etməsin, qoysun düşmənin qarşısını alım, ən azı, yüzünü cəhənnəmə vasil edim. Hər iki tərəfin artilleriyası var-qüvvəsi ilə işləyirdi. Ancaq düşmənin imkanları olduqca artıq idi. Başımızın üstündən güllə seli keçirdi. Sübhə qədər sakitcə oturub hücum əmrini gözlədik, axırda da dedilər ki, döyüşçülərimiz irəliləyə bilməyiblər və geri qayıtmalıyıq.

Düşmən artilleriyası bizdən onlarla metr arxanı vururdu. Məcbur qalıb bir neçə sipər geri çəkildik, həm minaatan mərmisinin çatmadığı, həm də içinə girib qorunmaq üçün səngərlər olan yerə. Bir həftə ikinci mövqedə hazır vəziyyətdə qaldıq. Xüsusi bir işimiz yox idi. Bəzən uşaqlar atıcılıq məşqi edirdilər: Bir kompot qabını qoyub yarış keçirirdilər. Komandir gəlib görəndə danlayıb deyirdi: "Bu patronlar beytülmaldır, oyuncaq deyil!" Amma bəziləri qulaq asmırdılar. Belə vaxtlarda anamı çox xatırlayırdım; o israfçılığa qarşı çox həssas idi.

Bir həftədən sonra vəziyyət nisbətən sakitləşdi, bizi hər axşam yeni əldə edilmiş mövqelərə səngər düzəltməyə apardılar. Mövqeləri hazırlamalı idik ki, sonradan hücum olanda döyüşçülər sığına bilsinlər. Getdiyimiz yer düşərgəmizdən 10 km uzaqda idi. Gecələr gedib səngər düzəldir, sübhə yaxın qayıdırdıq. Artıq silahı yerə qoymuş, rəsmən

mühəndis-istehkam qüvvələri olmuşduq. Təxminən iyirmi gün işimiz bundan ibarət oldu, sonra diviziyanın düşərgəsinə qayıtdıq.

Dərs, mədrəsə və hövzədəki dostlar üçün çox darıxmışdım. Digər tərəfdən, bəsicilər deyirdilər: "Sən fars dilini təzə öyrənmisən, yadından çıxar; get dərsini oxu, əməliyyat olanda xəbər verərik".

Qırxgünlük ayrılıqdan sonra qatara minib Bonaba qayıtdım. Hövzədən birdən-birə, xəbərsiz getmişdim, elə birdən-birə, xəbərsiz də qayıdırdım. Bütün yolda fikirləşirdim ki, uşaqlar: "Cəbhədə vəziyyət necədir?" – deyə soruşsalar, onlara nə danışacağam. Qırx gün sözün əsl mənasında yeyib-yatmışdıq; nə biz güllə atmışdıq, nə bizə güllə atmışdılar. Yer-göydən güllə və qəlpə yağmışdı, amma bir milçək qanadı qədər də yaralanmamışdım ki, cəbhədə iştirakıma sübut olaraq göstərə bilim.

Mədrəsənin qapısından içəri girən kimi dostlar məni dövrəyə aldılar. Seyid Rəzəvi ucadan şüar deyir, digərləri təkrarlayırdı: "Ey qəhrəman döyüşçü! Mədrəsəyə xoş gəldin!" Rəsul Kərəmi ucadan salavat deyirdi. Möhsün Polad bütün bədənimə əlini çəkib gözləri dolmuş halda güllə və qəlpə axtarıb deyirdi: "Salamatsan? Güllə harana dəyib?"

Hamı ilə salamlaşıb hal-əhval tutandan sonra Şeyx Mustafanın yanına getdim, əlini öpüb qarşısında oturdum. Şeyxin başı aşağı idi, stolun üstündəki kitabı vərəqləyirdi. Mənə qarşı çox hirsli olduğu bilinirdi. O, bir söz demədən mən üzr istəyib dedim ki, gedişim qəflətən oldu, təlimdə iştirak edib qayıtmaq

istəyirdim, amma necə oldusa, gedib oralara çıxdım; Allah şahiddir ki, əmrinizdən çıxmaq niyyətim olmayıb və s. Şeyx başını qaldırdı, üzümə baxmadan dedi: "Ağa Məhdəvi, sən bu gecə bizim qonağımızsan, sabah əşyalarını toplayıb buradan getməlisən!"

Dünya başıma uçdu. Bu qədər ağır cəza alacağımı gözləmirdim. Heyrətlə ona baxdığım yerdə ağır cəzasının səbəbini dedi: "Əgər sənin intizamsızlığını cəzasız qoysam, sabahdan digərləri də intizamsızlığa başlayarlar!"

Yalvarıb ayağına düşdüm, amma şeyx mənə baxmaq da istəmirdi. Bayıra çıxdım. Məsələni müəllimlərin bir neçəsinə söylədim. Şeyxi razı salmaq üçün bir-bir onun yanına gedir, amma əliboş çıxırdılar. Şeyx iki ayağını bir başmağa dirəmişdi, dediyindən dönmürdü.

Əsas problem bu idi ki, o bölgədə bütün mədrəsələr Bonabi qardaşları tərəfindən idarə olunurdu; heç biri o birinin icazəsi olmadan su da içmirdi, o ki qala qovulmuş bir tələbəsini qəbul etməyə. O şəraitdə beynimə gələn yeganə adam İsa Günəş idi. O, Təbrizin Vəliəsr mədrəsəsinin tələbələrindən olmuş, bir neçə dəfə mədrəsəmizə gəlmişdi; məni tanıyırdı. O, dərsləri bitəndən sonra Tehran Mehdiyyəsinə getmişdi, təbliğat və çap işləri ilə məşğul olurdu. Ümidvar idim ki, mənim başqa bir yerdə təhsil almağıma kömək edə bilər.

Tələbələrlə sağollaşıb sonuncu dəfə bəxtimi sınamağa getdim. Lakin mən ağzımı açmadan şeyx

dedi: "Ağa Məhdəvi, əgər burada bundan artıq qalsan, qıldığın namaz batildir; çünki daha buranın tələbəsi deyilsən və burada qalman qəsb sayılır".

Günbatan çağı qatara minib səhər saat 8-də Tehrana çatdım. Mehdiyyəyə qədər taksi ilə getdim. Böyük bir hüseyniyyə idi, 10-12 hücrə tərəfindən dövrəyə alınmışdı. Hücrələrin biri İsanın və qrupunun idi. Qərara gəldik ki, problemim həll olana qədər mən də onlarla qalım.

Mehdiyyədə zaman gözəl keçirdi. Cümə axşamı və cümə günləri sıxlıq olurdu. Kumeyl və Nüdbə dualarında iynə atsaydın, yerə düşməzdi; dörd tərəfdən adam gəlirdi. Hətta səkilər dolurdu, bəzən xiyabanı da bağlayırdılar. Əgər dərslərimdən ötrü narahat olmasaydım, Mehdiyyədə və o mərasimlərdə olmağın şirinliyi ikiqat artardı.

Mədrəsədən qovulanda Əvamil kitabını oxuyurdum. Dostlarım günbəgün irəliləyirdilər, mənsə iki aydan çox idi onlardan geri qalmışdım. İsa narahatlığımı görüb təklif etdi ki, orada onunla dərs oxuyaq. Hövzədə təhsil almışdı, bir çox fənləri yaxşı bilirdi. Boş vaxtlarımızda o, müəllim olurdu, mən də tələbə.

Bir müddət bu minvalla ötdü. Ancaq belə dərs oxumaq məni qane etmirdi. Hövzə dərslərini tələbə yoldaşınla birlikdə oxuyub hazırlaşmalısan, təkcə deyib-eşitməklə məsələ bitmir.

İsa vəziyyətimi görüb dedi: "Hövzə qıtlığı deyil ki; get Quma, dərs oxu. Orada da elm hövzəsi var". Pis

təklif deyildi. Ertəsi gün ikimiz bir mikroavtobusa minib həzrət Məsumənin şəhərinə doğru yola düşdük.

O zaman xarici tələbələr Höccətiyyə mədrəsəsində təhsil alırdılar. Mədrəsənin müdiri İbrahimi soyadlı bir ruhani idi. İşi çox idi, amma zirək və işgüzar adamdı, hamının işini tez həll edirdi.

Növbəyə dayandım. Vaxtım çatanda içəri girib dedim: "Türkiyədən gəlmişəm, burada dərs oxumaq istəyirəm". İbrahimi məni başdan-ayağa süzüb dedi: "Əvvəl harada olmusan?" Dedim ki, Bonabda. Dedi: "Adını yazdırmaq üçün gərək əvvəlki mədrəsənin müdirindən məktub gətirəsən". Axı hansı qovulmuşa məktub verirdilər ki, mənə də versinlər! Dedim: "Müdir mənə məktub vermir. Mən onun icazəsi olmadan cəbhəyə getmişəm, o da məni qovub". Başını yelləyib dedi: "Təlimat belədir, istisna da yoxdur!"

Nə qədər israr etdimsə, razılaşmadı. Problemin bir-iki günə həll olmayacağını görüb İsanı Tehrana göndərdim, özüm Qumda qaldım. Gündüzlər İbrahimiyə yalvarırdım, gecələr Cəmkərana gedirdim. Bir neçə gün qaldım, cavab almayanda Tehrana qayıtdım. İki gündən bir Quma gedirdim ki, bəlkə bir yol tapılar. Lakin İbrahiminin cavabı eyni idi. Ona iyirmi dəfədən çox müraciət edəndən sonra yola gəlməyəcəyini görüb Tehrana qayıtdım.

Səhərlər İsaya kömək edirdim: Birlikdə gömrüyə gedib onun və dostlarının tərcümə etdiyi kitabları türkiyəli sürücülərə verirdik. Qayıtmağa tələsməyənləri də Mehdiyyəyə gətirib yaxşı bir Kumeyl və ya Nüdbə duasına qonaq edirdik.

Günortadan sonralar bekar qalıb Tehranı gəzməyə çıxırdım. Avtobusa minib dərhal ikinci mərtəbəsinə qalxırdım. Bütün Tehranı dövrə vurub axırıncı dayanacağa qədər gedirdim. Orada avtobusdan enib yolun o tərəfinə keçir, başqa bir avtobusa minib yenə axıra qədər gəzirdim. Hər dəfə bir marşrut seçirdim ki, təkrarçılıq olmasın. Kənd uşağı idim, ömrümdə gördüyüm ən böyük şəhər Qars olmuşdu, o isə o qədər xiyabanı, binası və sıx əhalisi olan Tehranın qarşısında heç nə sayılmırdı.

Bir gün beynimə gəldi ki, indi ki Tehrandayam, bir dəfə də imam Xomeyni (r) ilə görüşüm. Avtobusla Cəmarana getdim. Qapının önündəki pasdar dedi: "Əgər görüşmək istəyirsinizsə, sabah ümumi görüş olacaq". Kart almaq üçün bir telefon nömrəsi verdi. Bayıra çıxıb telefon aparatına pul saldım və zəng vurdum. İmamın ofisinin rəhbəri ağa Təvəssüli dəstəyi götürdü. Dedim ki, Türkiyədən gəlmişəm, imamla görüşmək istəyirəm. Adımı-soyadımı soruşub dedi ki, sabah saat 8-də görüş qapısının önündə ol.

O qədər sevincəkdim ki, sübh saat 7-dən oradaydım. Adım çəkiləndə qapıçı məni içəri buraxdı. Öncəki dəfədən də çox adam vardı. Görüşə gələnlərin çoxu şəhid ailələrindən idi. Cərgə ilə oturduq. Yarım saatdan sonra imam gəldi, həmişəki kimi hamıya əl yelləyib oturdu. Şəhid fondunun sədri tribunaya keçdi. Söhbətlər bitəndən sonra imam da getdi. Görüşdən bir saat sonraya qədər heç kimə baxmırdım ki, imamın üzü fövqəlbəşəri rahatlığı ilə təsəvvürümdən çıxmasın.

Gündüzlər gecə, gecələr gündüz olurdu və mən hələ də başlı-başına qalmışdım. Bir ay idi mədrəsədən qovulmuşdum. Düşünürdüm ki, bəlkə də, şeyx indiyə sakitləşmiş olar, heç olmasa, bir məktub verər, orada olmasa da, Qumda təhsilimi davam etdirərəm. Bu fikirlərlə və böyük ümidlə Bonaba yola düşdüm.

Mədrəsənin keşikçisi şeyxin göstərişinə əsasən məni içəri buraxa bilməzdi. Qapının arxasında dayanıb girib-çıxan tələbələrlə salamlaşır, hal-əhval tuturdum. Birdən Şeyx Mustafa mədrəsənin həyətindən çıxdı. Yaxınlaşıb əlini öpdüm. İstəyimi söyləyəndən sonra namazı bəhanə edib getdi. Mühafizəçisi dedi ki, namaz bitənəcən gözləyim.

Şeyxin gedişindən on dəqiqə ötməmiş polis avtomobilinin xüsusi siqnalı diqqətimi cəlb elədi. Maşından iki polis əməkdaşı düşüb sürətlə mənə doğru gəldi. Hamı dayanıb mənə baxırdı. Polislərin biri mənə çatan kimi dedi: "İqamət vərəqin!" Özümü itirmişdim, nə deyəcəyimi bilmirdim; məndən nə istədiyini də anlamırdım. Yalnız pasportum vardı, iqamət vərəqinin nə olduğunu belə bilmirdim. Nə çarəm vardı, nə də deməyə sözüm. İnsanların qınaq, dostlarımın da qayğı dolu baxışları altında maşına minib polis bölməsinə getdim.

Təcrübəli polis rəisi məni süzüb dedi:

– Ağa Məhdəvi, sizdən şikayət var ki, İranda icazəsiz qalırsınız. Düzdür?

– Yox, icazəsiz niyə?! – iqamət icazəsinin nə olduğunu bilmədiyim üçün dedim.

Nə qədər and içib iqamətin nə olduğunu bilmədiyimi, adını indi eşitdiyimi söylədimsə, xeyri olmadı. Qanuna görə, pasportla İranda yalnız üç ay qala bilərdim. Ondan artıq qalmaq üçün iqamət icazəm olmalı idi, ondan da xəbərsizdim. Çarəm yoxdu, təcridxanaya getməli idim.

# 5

Bonab təcridxanası balacaydı; 60 kv metrlik həyətin bir tərəfində 6 kv metrlik üç kamera vardı, digər tərəfində də əsgərlərin kazarması yerləşirdi. Orada cinayətkardan başqa hər şey vardı. Həyətdə polislərlə voleybol oynayır, birlikdə yemək yeyir, danışır, xatirə söyləyirdik. Yalnız gecələr bir-birimizdən ayrılırdıq; mən həyətin bu tərəfindəki kameraya gedirdim, onlar da öz kazarmalarına. Səhər isə yenə birlikdə olurduq.

Bir dəfə təcridxana rəisinin əsgərlərə belə söylədiyini eşitdim: "Ağa Məhdəviyə hörmət edin; hövzə tələbəsidir, cinayət də törətməyib, yalnız iqaməti yoxdur".

Əlbəttə, bütün səbəb bu deyildi, polislər məni az-çox tanıyırdılar. Şeyximiz Bonabın İnqilab məhkəməsinin sədri idi, polislər mədrəsəyə çox gedib-gəlirdilər, məni və digər tələbələri tanıyırdılar. Həmin bir həftədə təcridxananın yeganə məhbusu mən oldum. Görüşə gələnim də az deyildi. Tələbələr

və müdir müavini o şəraitdə məni tək qoymur, tez-tez görməyə gəlirdilər.

Bir həftədən sonra məni Marağa təcridxanasına göndərdilər. Ora artıq əməlli-başlı həbsxana idi. İki tərəfində beş-altı kamera yerləşən bir dəhlizi vardı, hər kamerada qırx-əlli məhbus saxlanırdı. Hamısı peşəkar cinayətkar idi: qatil, oğru, qaçaqçı.

İkinci gün xəbər verdilər ki, məhkəmə sədri gəlib məhbuslarla danışmaq istəyir. Məndən kim olduğumu və hansı əmələ görə həbs edildiyimi soruşanda dedim ki, türkiyəli tələbəyəm, iqamət kartım olmadığına görə saxlanmışam. Hövzə tələbəsi olduğumu eşidən kimi elan etdi ki, bundan sonra bu ağa sizin pişnamazınızdır. Beləliklə, ilk pişnamazlığımı təcridxanada təcrübə etdim. Dustaqlar bəzən dəstəmazsız namaza gəlirdilər, bəziləri namazın necə qılındığını bilmir, yalnız görüntü xatirinə bizimlə birlikdə əyilib-qalxırdılar.

Ramazan ayı idi. Pişnamazlıqdan əlavə, təbliğatla da məşğul olur, məhbuslarla birgə oturub danışırdım.

Kamera yoldaşlarımdan biri qaçaqçı idi. Elə sözlər danışırdı ki, ömrümdə eşitməmişdim. O deyirdi:

– Məfatihdə bir dua var, onu oxuyanda adamın bütün günahları bağışlanır. Hacı ağa, get kefini çək, sonra da o duanı oxu, vəssalam!

– Düzdür, Allah tövbəni qəbul edər, amma önəmli olan budur ki, insan tövbə etməyə müvəffəq olsun, – dedim, sonra əlavə etdim: – Məsələn, qaçaqçılıq edən yerdə səni vurub öldürdülər. O zaman nə edəcəksən?!

Sonra da mövzunu insanların haqqına doğru dəyişdim, dedim ki, bəzi məsələlər insanların haqqıdır və bunun tövbəsi yoxdur. Sən gedib tiryək satırsan, camaatın arvad-uşağını bədbəxt edirsən – bunun tövbəsi yoxdur... Zahirən sözlərimi qəbul etməsə də, bəzən oturub bu barədə fikirləşdiyini görürdüm.

Oğrularla başqa cür danışır, onlara deyirdim: "Müharibə şəraitində biri sizin arvad-uşağınızdan ötrü cəbhəyə gedir, topun, mərminin qarşısında dayanır. Sizsə gecə onun evinə girib arvad-uşağını qorxudursunuz, mallarını oğurlayırsınız. Qiyamət günü bu günaha görə necə cavab verə bilərsiniz?!" Hər yerdə bir cür moizə oxuyurdum.

Dostlarım orada da məni unutmayıb görüşə gəlirdilər. Bir dəfə gələndə tapşırdım ki, həbs olunduğumu İsaya xəbər versinlər. Yazıq xəbəri eşidən kimi özünü yetirdi, gəlib söz verdi ki, işlərimlə maraqlanacaq.

On gündən sonra, yəni ramazan ayının on beşində iki polislə birlikdə Tehran həbsxanasına göndərildim. Sevinirdim ki, heç olmasa, İsanın yaxınlığındayam və o, işlərimlə məşğul ola bilər. Ancaq bilmirdim ki, getdiyim yer dünyanın cəhənnəmidir və orada görüş də verilmir.

Qəsr zindanına daxil olan kimi saçqırxan maşınını qulağımın dibinə qoyub başımı keçəl etdilər. Əşyalarımı yoxladılar, bir ədyal verib dedilər: "Get, özünə bir yer tap". Dəhlizə çıxdım. Zindanda çox sıxlıq vardı, başı qırxılmış, gözləri hədəqədən çıxmış

və baxış tərzlərindən də qorxduğum adamlarla dolu idi.

Təkcə otaqlarda deyil, dəhlizdə də yer yox idi. Hamı sıx-sıx oturmuşdu. Bir tərəfdə özümə yer tapıb çantamı başımın altına qoydum, ədyalı üstümə çəkdim. Min cür arzu və ümidlə İrana gəlmişdim, amma gör haradaydım! Görəsən, anam ən yaraşıqlı oğlunun çoxlu cinayətkarla bir yerdə qaldığını bilsəydi, nə edərdi?! Sübhə qədər yatmayıb İrana getmək istədiyimi ata-anama necə söyləyəcəyim barədə düşündüyüm gecəni xatırladım. O zaman aqibətimin belə olacağı ağlıma da gəlməzdi.

Doğrudan da, haqqım bu idi? Nə günah etmişdim ki, belə cəzalanmalı idim? Məgər cəbhəyə gedib İslamı müdafiə etmək cinayət idi? Bu fikirdə ikən bir anlığa özümə gəlib şeytanı lənətlədim. Təqsirkar şeyx deyildi, məni cəzalandırmasaydı, sabahdan mədrəsəsində daş daş üstə qalmazdı. Təqsirkar göstərişindən boyun qaçırmış məndim. Getməyə icazə verməmişdisə, gərək ön xəttə qədər getməyəydim. Doğru deyirdi, əgər əsir düşsəydim, nəinki İslam cəbhəsinə kömək etməmiş, hətta ziyan vurmuş olacaqdım. Özümü Allaha tapşırdım, yalvardım ki, mənə kömək etsin.

Qəsr zindanı çətin keçirdi. Tehrana göndəriləcəyimi deyəndə əvvəlcə sevinmişdim ki, İsa mənə kömək edib azadlığa çıxaracaq, ancaq Qəsrdə yalnız birinci dərəcəli qohumlara görüş verilirdi. Buna görə məktubla bir-birimizdən xəbər tuturduq. Zindan cəhənnəm idi: sıxlıq, qəribə, söyüşcül, quldur və

davakar adamlar. Fərhad adlı birisi əlaltılarının köməyi ilə zindanda lotuluq edirdi. O, digərlərini qorxutmaq üçün hər bir işə əl atırdı. Möhkəm bədəni, güclü qolları vardı. Bədəni də həmişə çılpaq olurdu. Bir gün hava qəbulu zamanı qışqıra-qışqıra həyətə çıxdı. Bədənindən dayanmadan qan damırdı. Öz işi idi. Bir şüşə parçası ilə bədənini çoxlu yerdən kəsib qanatmışdı, bununla digərlərini qorxutmaq istəyirdi.

Bir gün adət üzrə uzanmışdım. Yavaş-yavaş mürgülədiyim yerdə birdən ayaq barmaqlarımın yandığını hiss etdim. Sən demə, həmin quldurların biri qəzeti dürmələyib barmağımın arasına qoyub, sonra yandırıbmış. Tez qalxıb onu söndürdüm, amma yanığın yeri uzun müddət qaldı.

Qəsr zindanında yaxşı adamlar da vardı. Onların biri ağa Şəbani idi. O, Fəthülmübin əməliyyatında bir gözünü itirmiş müharibə əlili idi, avtomobil qəzasında bir nəfərin ölümünə səbəb olmuşdu. Cavadi soyadlı bir gənc bəsici də motosikletlə bir oğlan uşağını vurub öldürmüşdü. Üçümüz yaxşı bir çevrə olmuşduq. Həmişə birlikdə idik, bəzən təbliğat işləri də görürdük.

Səkkiz-on iki saat açıq havada olur, zindanın böyük həyətinə çıxırdıq. Kimi futbol oynayır, kimi gəzişirdi. Biz də dustaqların yanında oturub onlarla danışır, dostlaşırdıq, onlar da həvəslə bizə qoşulurdular. Havaya çıxanda ətrafımız adamla dolu olurdu. Xüsusən də mənim imama və inqilaba görə Türkiyədən gəldiyimi bilmələri onlara çox yaxşı təsir edirdi. Əlbəttə, ramazan ayının da rolu vardı.

Yadımdadır, bir neçə dəfə zindanın kiçik namazxanasına gecə namazı qılmağa getmiş, çətinliklə yer tapmışdım.

Həbsxana nəzarətçiləri hər birimizə göz qoyurdular. Həyətdə birmetrlik bir səki vardı. Bir gün ramazan ayında orada oturub Quran oxuyurdum. Zabitlərin biri yaxınlaşıb dedi: "Burda oturma, quldurların biri gəlib səni aşağı itələyər". Çox səmimi idilər, hətta ata-ana qədər. Bizi bir dəfə də döymədilər. Özləri nümunə idilər. Birinin yaxşı səsi vardı, Kumeyl duası oxuyurdu. İmam Əlinin (ə) şəhadətinin ildönümündə həyətin ortasında rövzə oxumağa başladı. Həmin gün onu dinləməyə hamı, hətta Fərhad da gəldi.

Fitr bayramına bir gün qalırdı. Bir neçə nəfərlə zindanın dəhlizində iftar süfrəsi açmışdıq. Birdən səsucaldanın səsi hər yeri bürüdü: "İsa Məhdəvi azaddır". Xörəyimi yarımçıq qoyub hamı ilə görüşdüm, çantamı çiynimə atıb bayıra çıxdım. Oradakı iki həftə mənə iki il kimi keçmişdi. Ayağımı zindandan bayıra qoyan kimi iki-üç metr kənarda dayanmış bir motosikletçi məni səslədi: "İsa Şəbahət sənsən?" Təsdiq əlaməti olaraq başımı yellədim. İsa Günəş göndərmişdi. Minib Mehdiyyəyə getdim. Günəş türkiyəli dostu Malik Kayanın köməyi ilə mənim üçün vəsiqə qoymuşdu, altı ay sonra keçiriləcək məhkəməyə qədər müvəqqəti azadlığa çıxmışdım.

Mehdiyyədə işlər əvvəlki qaydada davam edirdi. Arabir Quma da gedirdim, amma eyni cavabı

verirdilər. Hələ dərs ili başlamamış Mehdiyyəyə gələn bir hövzə tələbəsindən eşitdim ki, Təbrizin cümə imamı Ayətullah Mələkuti ilə Şeyx Mustafanın qardaşı arasında mədrəsələrin idarəsinə dair fikir ayrılığı yaranıb, nəticədə Şeyx Məcid Bonabi Tehrana gəlib, Vəliəsr mədrəsəsi də Ayətullah Mələkutinin nəzarətinə keçib. Tələbə yoldaşlarıma zəng vurdum, xəbərin doğruluğuna əmin olandan sonra ilk qatarla Təbrizə yola düşdüm.

Lətifi soyadlı bir həmədanlı şeyxi mədrəsəyə müdir təyin etmişdilər. Onun Ayətullah Mələkutiyə tabe olduğunu bildiyimə görə birbaş cümə imamının yanına getdim, cəbhə məsələsi və həbsim barədə ona məlumat verəndən sonra dedi: "Problem yoxdur. Get qəbul bölməsinə, adını yazdır". Bu asanlığa qəbul olduğuma inana bilmirdim.

Vəliəsr mədrəsəsi Təbriz şəhərinin kənarında yerləşən, ağacla dolu bir həyəti və üç-dörd nəfərlik hücrələri olan dördmərtəbəli böyük bir bina idi. Cəbhəyə və həbsə görə dərslərimdən çox geri qalmışdım. Dostlarımın hamısı ikinci və üçüncü mərhələyə başlamışdılar, mənsə birincidən başlamalı idim.

Hücrədə üç nəfər idik: mən, Seyid Musa Ərdoğə və Rəhman Qaraməlik. Təqaüdümüz az idi; o zaman aya 170 tümən verirdilər, bir şeyə çatmırdı. Dərslər olanda günorta və şam yeməklərimiz mədrəsədə verilirdi, səhər yeməyini isə özümüz hazırlayırdıq. Yay və digər tətil günlərində də yemək olmurdu, hər səhər təkcə çörək verilirdi. Bütün qənaətlərimizə

baxmayaraq, ayın sonlarında təqaüd bitirdi, hər gün birimiz öncəki günlərdən qalan və üçüncü mərtəbəyə tökdüyümüz quru çörəkləri toplayır, ayın sonuna qədər onlarla keçinirdik. Türkiyəli olduğumuza görə İranda bizə kömək edəcək tanışımız da yox idi.

Bir gün qərara gəldim ki, sərhədə gedib həm anamgili görüm, həm də pul alım. Bu müddətdə onları yaddan çıxarmamışdım, məktublaşırdım, amma nə görmüş, nə də səslərini eşitmişdim. Zəng vurmaq da çətin idi; kənddə heç kimdə telefon yox idi. Gərək əmimin rayonda yaşayan dostuna zəng vuraydım ki, bu da asan deyildi. Bir saat zəng vurandan, cürbəcür siqnallar eşidəndən sonra çətinliklə əlaqə qurmaq olurdu. Əmimin qonşusuna deməli idim ki, gedib əmimi çağırsın. Yarım saatdan sonra yenə zəng vurmalı idim. Əgər bu dəfə də düşə bilsəydim, əmim də gəlmiş olsaydı, bir neçə kəlmə həddində danışa bilirdim. Bu problemlərə görə bir neçə aydan bir yazdığım məktublarla kifayətlənirdim.

Türkiyənin yük maşınlarından biri ilə Bazərqan sərhədinə getdim. Sərhəddə 12 kv metrlik balaca bir otaq, onun da hər iki tərəfində qapı vardı. Qapının biri İrana açılırdı, o biri Türkiyəyə. Komitə qüvvələrinə hövzə tələbəsi olduğumu, ailəmin Türkiyədən buraya gələcəyini söyləyəndə onlar gələnə qədər orada qalmağa icazə verdilər. Sürücüyə əmimin Tuzlucadakı mağazasının ünvanını verib dedim ki, məktubumu ona çatdırsın.

Dörd gün sərhədçilərlə yeyib-yatdım, amma xəbər çıxmadı. Hərbi xidmətə getməmişdim, o tərəfə

keçsəydim, problem yarana bilərdi. Başqa bir sürücü tapdım, ondan xahiş etdim ki, sözümü bizə çatdırsın. Ertəsi gün atamla Vəli həyəcanla gəldilər. Sürücü onlara demişdi ki, oğlunuz komitənin əlindədir, tez gedin, xilas edin. Onlar o qədər tələsik gəlmişdilər ki, pul gətirməyi unutmuşdular. İki sərhəd arasındakı həmin kiçik otaqda iki saat oturub söhbət etdik. Mən nə cəbhədən bir söz dedim, nə də həbsxanadan. Vəliəsr mədrəsəsində dərs oxuyurdum, başım dərsə qarışmışdı və mədrəsənin ən əlaçı tələbəsi idim! Anamın yeri görünürdü ki, məni əzizləsin, Ayətül-kürsi oxuyub başıma üfürsün.

# 6

1984-cü ilin əvvəli idi. Əməliyyat ətri gəlirdi. Mədrəsədə böyük coşqu yaranmışdı. İki yüz tələbədən yüz səksəni cəbhəyə gedib-gəlirdi. Mədrəsəmiz, həqiqətən də, möhtəşəm mədrəsə idi, bölgə mədrəsələri arasında ən çox döyüşçü bizdə idi. Əlbəttə, Lətifinin də bu məsələdə rolu az deyildi; çox əməkdaşlıq edir, tələbələrin cəbhəyə getməsinə qarşı çıxmırdı.

Ezamdan öncə öz-özümə dedim: "Əgər keçən dəfə təlim keçsəydim, mütləq irəli gedərdim”. İrəlidə olanların hamısı təlimdə iştirak etmişdi. Mən də təlim görsəydim, təminat qüvvələrindən olmazdım.

Təlim Mərəndin Əli ibn Əbu Talib düşərgəsində keçirilirdi, həm nəzəri, həm praktik idi: silah, taktika, kimyəvi təlimlər, mina sahəsi, tikanlı məftil və s. Kalaşnikov avtomatını bir neçə saniyəyə açıb-bağlayır, poliqona gedib əl qumbarası atırdıq.

İyirmigünlük qısa təlimlər idi. İstirahətə cəmi iki-üç saat vaxtımız olurdu. Bəziləri həmin iki-üç saatda

da çəkmə ilə yatırdılar. Bunun səbəbi düşərgənin təlimçiləri ilə bağlı idi. Onlar birdən kameralara tökülüşüb atəş açır, gözyaşardıcı qazdan istifadə edirdilər. Bu zaman bir neçə saniyə içində hazırlaşıb çıxmalı idik. Gecələrin qəzəbi yalnız yatmaq zamanına aid deyildi. Bəzən yeməyin ikinci tikəsi boğazımızdan keçməmiş yeməkxanaya tüstü bombası atırdılar və hamı qaçmağa məcbur olurdu. Qısası, nə düz-əməlli yatırdıq, nə düz-əməlli yeyirdik, nə də düz-əməlli ibadət edirdik.

Düşərgənin komandiri deyirdi: "Bunlar təlim üçün vacibdir. Əməliyyat zamanı da, bəlkə, bir neçə gün yatmayacaqsız, bir neçə gün sizə su və yemək çatmayacaq; gərək indidən alışasınız".

O qədər yorulurduq ki, gecə kazarmaya cəsədlərimiz çatırdı. Bir gecə kazarma keşikçisi idim. Hava soyuq idi, sobanın yanında oturmuşdum. Ətrafıma baxdığım yerdə birdən bir şeyin yerə düşüb tappıldadığını eşitdim. Çarpayılar iki və üçmərtəbəli idi. Uşaqların biri üçüncü mərtəbədən yerə yıxılmış, kafel döşəmənin üzərinə düşmüşdü. Zavallı o qədər yorğun idi ki, bunu hiss etmədi, heç bircə "ah" da demədi. Çiyinlərindən tutub o qədər silkələdim ki, axırda oyandı. Gözlərini açanda dedim: "Qardaş, qalx yerində yat". Məsələnin nə yerdə olduğunu başa düşənə qədər bir az çəkdi.

Təlimdən sonra seçilmiş döyüşçülər Tehrana göndərildilər. Günorta oraya çatdıq. Nahar yeməyini yeyib saat 2-də Əhvaz qatarına mindik. Uşaqlarla birlikdə artıq Aşura diviziyasına verilmiş Bərati orta

məktəbinə getdik. Bizi boş batalyonlara yerləşdirdilər. Mən əksər döyüşçüləri, o cümlədən komandiri Şəkurun da urmiyalı olduğu Həmzə batalyonunda qumbaraatan oldum.

Yerbəyer olandan sonra avtobusa mindik. Avtobusların təkəri adaya 5 km qalmış, Bərzgər zastavasında dayandı. Gecəni zastavanın çadırlarında qaldıq. Ertəsi gün axşamüstü yola düşüb adanın yaxınlığına getdik. Orada hoverkrafta minməli idik. Bu nəhəng həm suda, həm də quruda hərəkət edirdi. Ömrümdə belə bir şey görməmişdim. Əvvəlcə maşınları və silah-sursatı yerləşdirdilər, sonra da biz boş yerlərdə oturduq. Bir batalyon adam rahatca yerləşdi. Hava qaralanda hoverkraft qorxunc səslə yola düşüb yavaş-yavaş bizi adanın o tərəfinə apardı.

Quruya çıxıb yolun kənarında oturduq. Sübh yaxınlaşırdı. Yerdən-göydən soyuq gəlirdi. Top səsini də eşidirdik, amma mərmisi bizim oturduğumuz yerə çatmazdı.

Günəş çıxmamış Bunəyə yola düşdük. Bunə dörd tərəfdən su ilə əhatələnmiş böyük bir ada idi. Quruya doğru bir neçə yol salmışdılar. Canlı qüvvə və ərzaq həmin yollarla təmin olunurdu. Biz altıncı yola yerləşdik. Xəbər veriləndə qədər orada qalmalı idik. Hamar ərazi idi. Yalnız iki çadır qurmuşdular: biri təbliğat, biri də kəşfiyyat üçün. Hərə özünə bir yer tapmalı idi: yolun kənarında, çadırın yanında, çadırdan aralıda... Hərə bir səngər düzəldib istirahətə başladı.

Birinci gün heç bir xəbər çıxmadı. İkinci gün günortaya yaxın düşmən tərəfdən iki döyüş təyyarəsi gəlib bütün bombalarını başımıza boşaltdı. Hərə öz səngərinə girmişdi. Şübhəm yox idi ki, ən azı, on şəhid verəcəyik. Səs-küy bitəndən sonra yavaşca başımı qaldırdım. Təəccübdən ağzım açıq qalmışdı. Bonab məscidində dəfələrlə döyüşçülərdən eşitdiyim möcüzəni gözlərimlə görürdüm. Hətta bir nəfərin burnu da qanamamışdı. İxtiyarsız olaraq, bombalara hara düşməli və hara düşməməli olduqlarını əmr etmiş Allaha şükür etməyə başladım.

Üçüncü gün qürub çağı dedilər ki, bu gecə əməliyyata gedirik. Ərzaq payımızı alıb axşam namazlarını qıldıq. Ağa Bakiri namazdan sonra gəlib çıxış etdi. O vaxta qədər onun yalnız adını eşitmişdim, özünü yaxından görməyi çox arzulayırdım. Fikirləşirdim ki, iki-üç metr uzunluğunda, bir metr enində qırxyaşlı bir kişi olar. Ancaq namazdan sonra 27-28 yaşlı arıq bir gənci önümdə gördüm. Çox atəşli çıxış edirdi. Əməliyyatın əhəmiyyətini başa salmağa gəlmişdi. O deyirdi:

– Bəəs ordusu Səddam Hüseynə söz verib ki, sabah adanı geri alacaq. Onlar sabah əks-hücuma keçəcəklər, amma biz bu gecə əməliyyatımızla onların əks-hücumuna mane olacağıq. Ada bizim üçün çox əhəmiyyətlidir. Əgər adanı geri alsalar, imam narahat olar, ürəyi ağrıyar. Biz də imamın narahatlığını görmək istəmirik. Buna görə gedib əməliyyata başlamalıyıq. Düşmən istehkamının o tərəfində bir

nəfərin əl-qolunun kəsilməsi də onları ruhdan salacaq və sabah əməliyyata başlaya bilməyəcəklər.

Bakiridən sonra Şəkur çıxış etdi:

– Minalanmış sahə açılıb. Biz yalnız düşmənin düzülüşünü pozmağa gedəcəyik. O tərəfə keçəndən sonra nə görsəniz, vurun. Sübh saat 4-də isə harada olsanız, geri qayıdın. Əgər qalsanız və sübh açılsa, ya şəhid olacaqsınız, ya da əsir düşəcəksiniz; üçüncü yol yoxdur. Torpaq almağa getmədiyimiz üçün kimsə bizə köməyə gəlməyəcək. Odur ki, düz saat 4-də hamınız qayıdın!

Gecə maşınlarla yola düşdük. Hərəkət etməzdən öncə komandirlə uşaqların birinin qışqırığı diqqətimizi çəkdi. On yeddi-on səkkiz yaşlı döyüşçünün atası şəhid olmuşdu. Oraya qədər necə gəldiyini bilmirəm, amma dayanmadan ağlayıb yalvarırdı, komandirsə icazə vermir, deyirdi: "Atan şəhid olub, səni əməliyyata buraxa bilmərəm". Bütün batalyon bu səhnəyə tamaşa edir və döyüş həvəsi qat-qat artırdı.

Maşınlar bizi mümkün yerə qədər aparıb endirdilər. 2 km-ə yaxın yolu da piyada getməli idik. Saat on idi, gecə birin yarısında əməliyyat başlayacaqdı. Biz üç batalyonla hücuma keçəcəkdik: Nəsr diviziyasının bir batalyonu solda idi, Rəsulullah diviziyasının bir batalyonu ortada, bizim batalyon da sağda.

Bir saata yaxın yol getdik. Hava soyuq olsa da, piyada və yüklə getdiyimizə görə çox tərləmişdik. Birinci istehkama çatıb iyirmi dəqiqə istirahət etdik. Komandir son tövsiyələrini verib dedi ki, minalanmış

sahə başlayır, düşmənlə məsafəmiz azdır, bundan sonra diqqət və ehtiyatınızı artırın.

Bizim yerləşdiyimiz istehkamla düşmən istehkamının arasında təxminən 1200 metr məsafə vardı. Hərəkət başlayan kimi komandir öndən getdi, biz də bir sıra ilə onun arxasınca. Yolun əvvəli yaxşı idi, amma ortalara çatanda göyə fişəng yağmağa başladı. Hər dəfə fişəng atılanda bütün ərazi işıqlanırdı. Hər yer hamar idi, gizlənməyə yer yoxdu. İlk fişəng atılanda bütün əşyalarımızla birlikdə uzandıq. Bir anlığa fikirləşdim ki, burdan dönüş yoxdur. Eşitmişdim ki, insanlar öləndə əməl dəftərlərini görürlər. Oğrucadan adaya qədər bütün həyatım bir film kimi gözlərim önündən keçirdi. Əlim boş idi, bir şeyim yox idi. Öz-özümə deyirdim: "Əgər dünyadan köçsəm və məndən dünyada nə etdiyini soruşsalar, nə cavab verəcəyəm?" Allahı çağırırdım ki, yaşayıb yanlışlarımı düzəldə bilim.

Kolon yavaşca hərəkət edirdi. Fişəng atılanda bir neçə saniyəliyə uzanıb hərəkətsiz qalırdıq. Bəzən hələ tam qalxmamış növbəti fişəng atılır və bizi gecikdirirdi. Hər dəfə başımızı aşağı salanda həm istirahət edirdik, həm də həyəcanımız çoxalırdı. Qorxurduq ki, əməliyyatın üstü açılar, hələ bir iş görməmiş uşaqlar qətliam olarlar. Fişənglər bir-birinin ardınca açılırdı; biri sönməmiş o biri yanırdı. Minalanmış sahə olduğuna görə o tərəf-bu tərəfə gedə bilmirdik.

1 km məsafəni bir saata yaxın müddətə gedib istehkamın arxasına çatdıq. Düşmən hara gəldi atəş

açırdı. Bizimkilər də arabir atəş açırdılar ki, düşmənin diqqətini özlərinə yönəltsinlər və biz irəliləyə bilək.

Nəhayət, saat birin yarısında əməliyyat başlandı. Batalyonlar üç istiqamətdən hücuma keçdilər və bir anın içində hər yer cəhənnəmə döndü. Göydən yağış kimi güllə yağırdı. Əmrə uyğun olaraq, nə görürdüksə, vururduq. Çoxlu top və tank toplamışdılar. Bakirinin təxmini düz idi: Bəəs komandirləri öz döyüşçülərinə demişdilər ki, İranın heç nəyi yoxdur, rahat yatın, sabah arxayın şəkildə gedib adanı alarıq. Çoxları yuxudaydı. Bizim hərəmizdə səkkiz əl qumbarası vardı. Təlimdə demişdilər ki, mümkün olduqda əl qumbarasını tankın içinə atın, imkan olmasa, sepini vurun, işləməsin. Tankın üstünə çıxmağa macal yox idi, əl qumbaralarını seplərin altına atıb irəliləyirdik.

Döyüş qənimətləri də əlimizə keçirdi. Öldürdüyümüz düşmənlərin silah və qumbaralarını götürüb digər düşmən qüvvələrinə sərf edirdik. Harada bir dəlik görürdüksə, qumbaranı çəkib atırdıq. Bəziləri çox qəfil yaxalanmışdılar. Bəziləri səngərlərə girib qorxudan tərpənmirdilər. Heç vaxt fikirləşməzdilər ki, İslam döyüşçüləri lazımi təchizatları olmadan onları belə qəfil yaxalaya bilərlər.

Nəyim vardısa Bəəs qüvvələrinə xərcləmişdim. Ərzaq payı ilə birgə bizə verilmiş saata baxdım. Sübhə yaxınlaşırdıq, gərək qayıdaydım. Ancaq hansı səmtə? Ərazi darmadağın olmuşdu, hər yerdən tüstü və alov çıxırdı. Hərəkətdən öncə demişdilər ki, 500

metr o tərəfə qədər sizindir, nə görsəniz, vurun. Mən də həyəcanlanmışdım, nə görürdümsə, avtomatla atəş aça-aça gedirdim. Nə qədər irəlilədiyimi bilmirdim. Hər tərəfdən güllə və qəlpə yağırdı. Ətrafıma baxdım. Bir neçə metr aralıda uşaqların birini gördüm. O da hansı tərəfə gedəcəyini bilmirdi. Bir neçə saniyə dayanıb hesabladıq. Düşmən döyüşçülərinin atəş açdığı istiqamətə doğru yola düşdük. Minalanmış sahənin yaxınlığında salmaslı uşaqların birini gördüm; bir ayağına güllə dəymişdi, o birisi sağlam idi. Qoltuğuna girib üçümüz yola davam etdik.

Yolda tanklar yanıb tüstüləyir, yerdə düşmən cəsədləri görünürdü. Bir batalyonun düşmənə bu qədər xəsarət yetirdiyinə inanmaq çətin idi. Yenə hər şey ilahi möcüzəyə qayıdırdı.

Sübh saat 6-ya yaxın öz istehkamımıza çatdıq. Uşaqların bir qismi tez gəlib çuvallarla səngər düzəltmişdilər. Səngərin arxasında təyəmmüm edib namazı oturaq şəkildə qıldıq. Bilirdik ki, düşmən əl çəkməyəcək, vurulan ziyanın əvəzini çıxmağa çalışacaq. Bütün yorğunluğumuza baxmayaraq, mövqe seçib düşmənin əks-hücumunu gözləməli idik.

İraqlılar çox pərt olmuş, hirslənmişdilər, əllərinə keçəni torpaq istehkama döşəyirdilər. O qədər vururdular ki, başımızı qaldıra bilmirdik. Minaatan mərmiləri və katyuşa raketləri bir-birinin ardınca gəlib hamının amanını kəsirdi.

İstehkamın ortasından bir qədər qazıb mehrab kimi bir yer düzəltmiş, üstünə bir neçə çuval qoymuşdular. Səhər saat 8 idi. Təkbaşına onun içində oturmuşdum.

Həm yorulmuş, həm də acmışdım. Axşamdan nə düz-əməlli bir şey yemişdim, nə də bir saat istirahət etmişdim. Düşmənsə əl çəkmir, dayanmadan atəş yağdırırdı. Bəlkə də, on dəqiqədə yerə min mərmi düşürdü, amma hamısı istehkamın arxasına dəyirdi.

"Həqiqətən, kor olublar, – deyə öz-özümə düşündüm. – Əgər topları təkcə on dəqiqə düz hədəfə vursa, bizdən heç nə qalmaz, hamımız toza dönərik. İlahi, bu, möcüzədir! Əgər möcüzə deyilsə, bəs nədir?! Möcüzə təkcə ay yarmaq deyil ki; bu da möcüzədən geri qalmır!"

Allaha şükür etdiyim yerdə biri qışqırdı: "Gəldilər! İraqlılar gəldilər!" İstehkamın arxasından boylandım. Gözlərimə inana bilmirdim. On-on beş tank sürətlə bizə doğru gəlirdi. Altı yüz metrlik məsafədə düşmənin piyada qüvvələrindən heç kim yox idi, amma göz işlədikcə tankla doluydu. Həmin məsafədən tankın fırlanan seplərini gözlərimlə görürdüm. Gecə düşmən mövqelərində bu qədər qorxmamışdım. Bədənimin bütün tükləri ürpəşdi. Cəmi üç qumbaraatan mərmisi vardı. Oturub birinci mərmini ayaqlarımın arasına qoydum. Komandirlik edən döyüşçü məni görən kimi dedi: "Gözlə, yaxşı yaxınlaşsınlar, sonra vurarsan. Sursatımız yoxdur, qardaş!"

Bizdən bir qədər aralıda 106 mm çaplı bir top vardı, pikapın arxasına qoymuşdular. Birinci, ya da ikinci mərmini atandan sonra onu minaatanla vurdular. Toz-torpaq yatandan sonra uşaqlar qaçıb sürücünü bayıra çıxardılar. Ağzına qəlpə dəymişdi,

qan fəvvarə vururdu. Olan-qalanımız bircə top idi, o da getdi. Topun vurulmasından düşmən nə qədər ruhlandısa, bizimkilər də bir o qədər məyus oldular.

Bu zaman uşaqların bir neçəsinin qalxıb sol tərəfdəki istehkama doğru getdiklərini gördüm. Birini tanıyırdım. Çağırdım: "Hara gedirsiz? Məgər geri çəkilmək əmri verilib?" Cavab verməyib getdilər. Mövqelərini dəyişdirirdilər. Onların getmələrini həzm edə bilmirdim. O bölgəni bizə tapşırmışdılar, hər bir şəraitdə qalıb qorumaq lazım idi. Mövqeyimizi tərk etsəydik, düşmən nüfuz edər, döyüşçülərin çəkdiyi bütün əziyyətlər hədər gedərdi. Onların gedişi əhvali-ruhiyyəmi zəiflətsə də, öz-özümə dedim: "Hər kəs öz əməlinə cavabdehdir. Mən gərək vəzifəmi yerinə yetirim. Buranı buraxıb getmək olmaz. Hamı getsə də, mən qalacağam!"

Yenə boylandım. Məsafə çox deyildi. Qumbaraatan 300 metri vururdu, tanklarınsa 500 metrə yaxın məsafəsi vardı. Gözləyib qülləsini nişan almalı idim. Oturdum. Az sonra uşaqların biri qışqırdı: "Gedirlər! Gedirlər!" Qalxdım. Doğru deyirdi. Sürətlə bizə doğru gələn tanklar yollarını dəyişirdilər. Nə qədər fikirləşdimsə, bunun səbəbini anlamadım. Bəlkə də, bizim yaxınlığımızdakı bataqlıqda batmaqdan qorxmuşdular. O səhnədə heç bir proqnoz cavab vermirdi. Məsələ elə möcüzə məsələsi idi.

Günbatana yaxın atəş səngidi. Komandirlik edən qardaş dedi: "Bu gecə istirahət edin. İraqlılar getdilər. Hətta qarovul da olmasa, problem yaranmaz". Öncədən qazılmış çalaların içində təyəmmüm edib

oturduğum yerdə namazımı qıldım. Namazın salamını deyər-deməz çəkmə və əşyalarımla bərabər məni yuxu tutdu. Nə qədər ötdüyünü bilmirəm, amma birdən səs-küyə oyandım. Hava qaranlıq idi. Söhbətlərdən başa düşdüm ki, yeni qüvvələr gəlib. Ürəyimdə dedim: "Allah sizdən razı olsun! Nə yaxşı ki, gəldiniz!" Yenə başımı yerə qoyub dərin yuxuya getdim.

Səhər yuxudan oyananda ətrafıma nə qədər baxdımsa, tanış görmədim. Hamısı başqa adamlar idi. Çox keçmədən məsələni öyrəndim: Gecənin yarısı Yəzdin əl-Qədir batalyonu bizim yorğun batalyonumuzu əvəz edib; hamı gedib, mənsə qalmışam.

İki gecə idi nə düz-əməlli yatmış, nə də yemişdim. Mənim çaşbaş qalmağım, farsca yaxşı bilməməyim bir tərəfdən, yəzdlilərin qəliz ləhcəsi də bir tərəfdən aramızda ünsiyyət problemi yaradırdı. Məndən soruşurdular ki, dostların hardadırlar, niyə onlarla getməmisən? Mən də cavab verə bilmirdim. Onlara nə dedimsə, biri dilləndi: "Səhv eləməsəm, partlayış dalğasından kontuziya alıb!"

Həmin gün sözlərindən yalnız bəzisini başa düşdüyüm yəzdlilərin yanında qaldım. Onlar partlayış dalğasına düşdüyümü zənn edib mənə çox da baş qoşmurdular. Axşam batalyona bəzi əşyaları daşıyan bir Toyota pikapı gəldi. Qayıdanda bir neçə yaralını mindirdilər, mənə də dedilər ki, onlarla gedim. Mən də sevincək maşına atıldım. Sürücüyə mənim partlayış dalğasına düşdüyümü söylədilər. O yazıq da

əsəbi və kontuziyalı bir yaralı ilə getdiyini sanıb axıra qədər lal-dinməz sürdü.

Bizi bir yerə aparıb maşından endirdilər. Gecənin yarısı idi. Yatıb səhər saat 8-də oyandım. Dedilər ki, gözləyin hoverkraft gəlsin, sizi adanın arxasına keçirsin. Orada bütün batalyonlardan adam vardı. Çoxları öz batalyonlarına getmək istəyirdilər. Mən də həmin dəstədən idim. Batalyonların yerləşdiyi yer bizə yaxın olduğuna görə heç kim etiraz etmədi. Aşura diviziyasını soruşdum, yolu göstərdilər və mən yola düşdüm.

Bir neçə addım atan kimi Bonab mədrəsəsinin tələbələrindən birini gördüm. Sanki illərdir onu görməmişdim. Bir-birimizi qucaqlayıb söhbətləşməyə başladıq. Batalyonun yerləşdiyi yerə çatanda bildim ki, bölük komandirlərinin çoxu şəhid olub. Batalyon komandiri partlayış dalğasına düşmüşdü, üç yüz nəfərlik batalyondan da yüzdən az döyüşçü qayıtmışdı.

Təyyarələr gəlib-gedir, bombalayırdılar. Yer düz idi, torpaq sipər və səngər yox idi. Çala qazmalı, bombardman zamanı içinə girməli idik. Mənim çalamdan bir metr aralıda urmiyalı uşaqların üçü bir çala qazmışdı. Onlar həmişə birlikdə idilər. Bir gün günortadan sonra haraya getmişdilərsə, səngərlərində deyildilər. Düşmən təyyarələri gəlib hər yeri vuranda biz də hamılıqla qəbirlərimizə girdik. Təyyarələr gedəndən sonra bayıra çıxdıq. Məhz həmin üç nəfərin səngər qazdığı yer bombalardan şumlanmışdı. Əgər orada olsaydılar, külə dönərdilər. Bu dəfə də Allahın

köməyi ilə şəhid vermədik. Bombalar uşaqlara dəymirdi; ya suya düşürdü, ya da quru torpağa.

Mövqeyi digər diviziya və briqadalara verdilər. Biz ehtiyat üçün bölgədə qaldıq ki, bir təhlükə olsa, kömək edək. Onuncu gün isə bölük komandirimiz ağa Vətəni[1] bildirdi ki, düşmən zəifləyib, hələlik bizə ehtiyac yoxdur. Beləliklə, onun əmri ilə hoverkrafta minib qayıtdıq. Gecə saat 12-də Bərzgər zastavasına çatdıq. Gələndə istifadə etdiyimiz çadırlar hələ yerində idi. Birbaş öz çadırıma girdim. Hər çadıra on beş nəfər yerləşirdi, amma sayımız azalmışdı. Çoxları şəhid olmuş və ya yaralanıb xəstəxanaya aparılmışdı.

Çadırda tək oturdum. Çox yorğun idim, yuxum gəlirdi. Həm də qışın sonları idi, üşüyürdüm. Çadırın ipini möhkəm bağladım ki, soyuq girməsin, rahat yatım. Təxminən gecə saat 2-də hiss etdim ki, kimsə çadırın milini bərk silkələyir. Soruşdum ki, kimdir. Cavab verdi: "Komandirin çaparıyam. İraqlılar hücum ediblər. Əmr gəlib ki, hazır olasınız!" Cəmi bircə saat yatmışdım. Öz-özümə dedim: "Burda hazır vəziyyətdə on batalyon var, biz təzə çatmışıq, yorğunuq, yenə hara getməliyik?" Bir anlığa özümə gəlib düşündüm ki, komandir belə bir əmr veribsə, yəqin, ehtiyac var.

Tez geyinib silahımı götürdüm, komandir çadırına getdim. Vətəni və ətrafı yatmışdı. Onu oyatdım. Oturub gözlərini ovuşdurdu, mənə diqqətlə baxıb dedi: "Bir şey olub, Məhdəvi?" Silahımı bu əlimdən o biri əlimə keçirib

---

[1] Mustafa Vətəni 18.03.85 tarixində Bədr əməliyyatında şəhadətə qovuşdu.

dedim: "Məgər siz adam göndərməmisiniz ki, hazır olaq?" Çadırdakılar bir-birinə baxdılar. Vətəni dedi: "Yox, mənim qardaşım, yəqin, yuxuda görmüsən. Belə bir əmr verilməyib və biz heç bir yerə çapar göndərməmişik". Qayıdıb yenə yatdım. Bilmirəm, bu, Allah tərəfindən imtahan idi, yoxsa hansısa rəhmətliyin oğlunun o həngamədə zarafat etməyi gəlibmiş.

Bir-iki gün ötdü. Pərən-pərən olmuş döyüşçülər qayıtdılar və batalyonlar bir qədər nizam-intizama düşdü. Bizim batalyonumuza yüz nəfər toplaşdı. Ehtiyata görə qalmalıydıq, amma bir həftə çəkmədən güclü yağış yağdı, Karun çayı daşdı, hər yeri su basdı. İstehkamın üstündən haraya baxırdınsa, su görürdün. Əşyalar, ədyallar, çadırlar – hər şey suyun altından qalmışdı. Yer hamar idi, sel ehtimalı vardı. Bu səbəbdən həmin gün yola çıxdıq və maşınlar bizi Əhvaza apardı.

Əhvazda Bərati orta məktəbinə getdik. Əks-hücum zamanı partlayış dalğasına düşmüş Şəkur yaxşılaşmışdı, orada bizimlə danışdı. O deyirdi: "Burada bir gecədən artıq qala bilməzsiniz. Burada qalmaq təhlükəlidir. Çünki bütün diviziyalar Əhvaza gəlib. Allah eləməsin, düşmən duyuq düşsə, kiçik bir bombardmanla qətliam törədə bilər".

Əşyalarımızı toplayıb qatara mindik. Bir aydan sonra şəhərə qayıdırdım. Əməliyyatın uğurlu olduğuna dair xəbərlər dolaşırdı. Ayətullah Mələkuti tələbələrlə və digər insanlarla birlikdə bizi qarşılamağa gəlmişdi. İlk dəfə vağzalda döyüşçüləri bu qədər adamın qarşıladığını görürdüm. Üzərlik tüstüsü salavata qarışıb havaya qalxırdı. Yaxşı hisslər keçirirdim. Çox yüngülləşmişdim, bəlkə də, belə bir önəmli əməliyyatda iştirak edib İslam üçün kiçik bir iş görə bildiyimə görə.

# 7

Dərslərdən çox geri qalmışdım. Mədrəsədə olmadığım bir ayın dərslərini çatdırmalı idim. Gecə-gündüz kasetləri dinləyir, tələbələrin dərslərdən qeydlərini oxuyur, suallarımı ondan-bundan soruşurdum. O qədər başım qarışmışdı ki, özümə də fikir vermirdim.

Bir gün güzgüyə baxıb gördüm ki, saç-saqqalım çox uzanıb. Qərara gəldim ki, dəyişiklik üçün də olsa, bərbərə gedim. Hazırlaşdığım yerdə gilanlı tələbələrin biri dedi: "Məhdəvi, niyə boşuna pul xərcləyirsən; gəl, saçını qırxım".

Sevincək oturdum, o da qayçı və maşınla başımın üstünü aldı. Önlüyü boynuma bərkidib əlimə bir güzgü verdi. Saçqırxan maşının vintlərini bərkidib əvvəlcə üzümü qırxmağa başladı. Maşının qıjıltısı başlayan kimi o da söhbətə başladı: "Biz cəbhəyə getmək səadətinə nail ola bilməmişik, amma Allaha şükür, burada İslam döyüşçülərinə, kiçik də olsa, xidmət edə bilirik..."

Önlüyə tökülən tüklərə baxdığım yerdə birdən maşınla birlikdə Söhrabi də dayandı. Başımı qaldırdım: dodaqlarını dişləyib mat-məəttəl mənə baxırdı. Güzgünü üzümün önünə tutan kimi elektrik cərəyanı vurmuş adam sayağı yerimdən sıçradım. Zavallı İslam döyüşçülərinə görə o qədər sevinmişdi ki, saçqırxan maşına daraq qoymağı yaddan çıxarmış, saqqalımın ortasından yol çəkmişdi. Özünü itirmişdi, nə edəcəyini bilmirdi. Görəcək bir iş də yox idi; bütün üzümü həmin səviyyədə qırxmalıydı.

Həmin gün günortadan sonra Müslihi müəllimlə dərsimiz vardı. Sinfə necə girəcəyimi bilmirdim. İki əlimi üzümə qoyub başıaşağı halda içəri girdim və sinfin düz axırında oturdum. Bütün dərsboyu başım aşağı idi, müəllimə baxmağa cürət etmirdim.

Yarım saatdan sonra bir qədər başımı qaldırdım. Abbas Abbaszadə məndən üç-dörd nəfər aralıda oturmuşdu. Gözlərimiz bir-birinə sataşan kimi gözlərindən cin yağdığını gördüm. Başımın işarəsi ilə xahiş etdim ki, sakit olsun, bir söz deməsin. Lakin xahişlərim bitməmiş dərsin ortasında boylanıb dedi: "Bağışlayın, ustad, deyəsən, Məhdəvinin dişləri ağrıyır, dua edin, Allah ona şəfa versin!" Müslihi mənə baxdı. Hələ əllərim yanaqlarımda idi. Dedi: "Allah şəfa versin!"

Daha dərsin sonuna qədər nə mən müəllimin sözlərindən bir şey anladım, nə də digərləri. Axıra qədər gülməkdən qarınlarını və ağızlarını tutub gah qızaran, gah qaralan uşaqlara baxırdım. Təxminən hər iki nəfərdən biri mənə yazı göndərirdi: "Məhdəvi,

saqqalını pişik aparıb? Bəlkə, gecə pis yuxu görmüsən!"

Söhrabi başıma elə oyun açdı ki, bir həftə mədrəsədən çıxa bilmədim. Lakin mənə ibrət dərsi oldu ki, bir də pulsuz bərbər toruna düşməyim.

Yavaş-yavaş iyun ayı və imtahanlar yaxınlaşırdı. Gecə-gündüz birlikdə dərs oxuyur, təkrarlayırdıq. Bu zaman yenə əməliyyat xəbəri yayıldı. Mədrəsə rəhbərliyi tələbələrin yarısının getdiyini görüb imtahanları ləğv etdi.

Bu dəfə Əbəlfəzl batalyonuna qumbaraatan getdim. Batalyon komandirimiz Rəhim Noi Əqdəm, müavini də Məhəmmədtağı Osanlu idi. Bizi avtobusla Zeyd zastavasına, Xürrəmşəhrdən 40 km aralıda Darxuinlə üzbəüz yerləşən düzənliyə apardılar. İyun ayının 50 dərəcə istisində elektrik xətti və kondisioner olmayan bir çölün ortasında işə yarayan yeganə vasitə səngər idi. Ekskavatorlar öncədən çala qazmışdılar. Bizim vəzifəmiz çuvalları torpaqla doldurub divar kimi düzmək, dam olaraq da üstünə dəmir listlər qoyub on-on iki nəfərlik səngərlərdə istidən qorunmaq idi.

Hər axşam maşına minib bel və külünglə 30-40 km irəli gedir, düşməndən 1200 metr aralıda kanal qazırdıq. Kanalların dərinliyi bir metr yarım, eni də bir metr idi, iki nəfər içində rahat hərəkət edə bilirdi. Sübh çağı günəş çıxmamış maşına minib geri qayıdırdıq.

Bölgədə çoxlu hərəkətliliklər, çəkilən yollar, istehkam və kanallar düşməni duyuq düşürmüşdü. Nəticədə İraq tərəfi Dəclə çayının suyunu əraziyə

buraxdı. Əməliyyat ləğv olundu və bütün əziyyətlərimiz hədər getdi.

Mikayıl Sadiqi taqımımızın minaçısı idi. Həmin bir neçə gündə onunla çox səmimi dost olmuşduq. O, bir gün söhbət əsnasında dedi: "Məhdəvi, niyə burda qalmısan? İndi ki əməliyyat yoxdur, gedək mina bölüyünə, orada təlimlərdə iştirak elə".

Taqım komandirimlə danışdım. Razılıq verməyib dedi ki, gərək batalyon komandiri ilə danışım. O da razı deyildi. Atıcılığımı görmüşdülər, məni əldən vermək istəmirdilər. Bir dəfə batalyonda atıcılıq yarışı keçiriləndə ikinci yerə çıxmışdım. Əlbəttə, bütün səbəb atıcılıq məharətim deyildi, həm də sözəbaxan döyüşçü idim.

Hələ əməliyyatın üstü açılmazdan öncə təlimin ortalarında bizə manevr təyin etdilər. Manevrdə yolun 2-3 km-ni maşınla getdik. Ağa Rəhimin hazırladığı planı önümüzə qoydular, Osanlu izah edərək dedi: "Şərti düşmənə qədər 8 km məsafəniz var. Üç torpaq sipərdən keçib hədəf təpəyə çatmalısınız. Əsas məsələ budur ki, birinci sipərə çatmazdan qabaq su içmək haramdır, heç kim qumqumasını dilinə vura bilməz!"

Səhər saat 8-də qardaş Rəhim önə keçdi, biz də arxasınca. İyun ayı idi, hava get-gedə qızırdı. Silah-sursatlarımızın ağırlığı da yolu çox çətinləşdirirdi. Yol gedir, tər tökürdük. Birinci torpaq sipərə qədər 3-4 km yol vardı. Oraya çatmamış çoxları davam gətirməyib qumqumanı başlarına çəkdilər. Üç yüz nəfərdən yalnız otuzu su içmədi. Günortaya yaxınlaşdıqca vəziyyət daha da pisləşir, saniyələr keçmək bilmirdi.

Döyüşçülər bir-bir əldən düşürdülər. Komandir qışqırırdı: "Burda nə düşmən var, nə güllə, nə mərmi, ancaq özünüzdən gedirsiniz, bəs sabah düşmənin önündə necə müqavimət göstərərsiniz?!"

Təpəyə məndən başqa iki nəfər də qalxa bildi. Yalnız üçümüz manevri tam şəkildə yerinə yetirdik. Ondan sonra bizi daha ciddiyə alırdılar.

Özü minaçı komandasının komandiri olan Mikayılın sözlərindən sonra təlimdə iştirak etmək qərarına gəldim. Çünki əməliyyatın üstü açılanda adi döyüşçünün bir işi qalmır, minaçı isə həmişə məşğuldur: ya mina basdırır, ya da zərərsizləşdirir.

Mina bölüyünün yüksək mənəviyyatı barədə eşitdiklərimə görə yenə ağa Rəhimlə danışmaq qərarına gəldim. Əməliyyat zamanı hər batalyona minaçı uşaqlardan bir neçəsini göndərirdilər. Söz verdim ki, təlim bitəndən sonra minaçı kimi onların batalyonuna qayıdım. Ağa Rəhim israrımı və hələlik yeni əməliyyatın olmadığını görüb razılıq verdi.

Minaçıların komandiri Cavadi soyadlı iyirmi beş yaşlı bir gənc idi; elə adamlardan idi ki, qeyri-iradi olaraq sevir, ancaq üzünə baxmaq istəyirsən. Bölüyün üç taqımı vardı, birinin komandiri Mikayıl idi. Mən Mikayılın taqımına getdim.

Bölüyün aurasını çox sevirdim. Əbəlfəzl batalyonunda bəzi döyüşçülər komandirlə dalaşır, yaxud əmrlərindən boyun qaçırırdılar. Mina bölüyündə isə belə bir şey yox idi. Oraya yaxşıları seçib götürürdülər. Şam namazından sonra onların bir qismi saatlarla səcdədə qalıb ağlayırdılar, "əl-əfv"

zümzümələri kəsilmirdi. Onların yüksək mənəviyyata sahib olmalarının səbəbi, bəlkə də, şəhadətin bir addımlığında olmaları idi. Bəlkə də, Mehdi Bakiri məhz buna görə onlara çox baş çəkirdi. Yəqin, o da buradakı ab-havanın dünyanın heç bir yerində tapılmadığını bilirdi.

Təlimlərə başladıq: salxım minası, tank əleyhinə mina, fişəng minası və s. Təlimçilərdən biri də Mikayıl idi. Bir gün dərsimiz bu idi ki, minaçı bombanı zərərsizləşdirən zaman birdən ona doğru əl qumbarası atılsa, nə etməlidir? Əl qumbarasını atanda hamımız uzandıq. Səs bombası idi, yetmiş yerə bölündü. Bir parçası mənim ayağıma dəydi və nəhayət, müharibədə ilk yaramı aldım. Yara o qədər yüngüldü ki, bağlamağa da ehtiyac yox idi.

Bir ay idi mina bölüyündəydim. Bir gün Təbriz Quruculuq cihadının sədri olan və hövzədə Nəhcül-bəlağə dərsini tədris edən Xatəmi yanımıza gəldi. Hamımız onu dövrəyə alıb oturduq. Soruşdu: "Burada neçə tələbəsiniz?" Dedik ki, on nəfər. Bütün diviziyada isə yüzə yaxın olardıq. Dedi: "Əməliyyatın üstü açılıb. Yaxşı olar ki, siz qayıdasınız. Hövzədə imtahan vaxtıdır; gedin, dərslərinizlə məşğul olun".

Bir ay yarım idi təlim keçirdik, əməliyyatdan xəbər yox idi. Digər tərəfdən, mədrəsəni də sevirdim. Oranın atmosferi mənə cəbhəni xatırladırdı. Cəbhə üçün darıxanda mədrəsənin Kumeyl dualarını gözləyir, doyunca ağlayırdım. Xatəminin söhbətlərindən sonra bəhanə qalmadı, təhvil-təslim edib qayıtdıq.

Bu dəfə dərslərə Abbaszadə ilə başladım. Muğni və Muhəzzəb kitablarını birlikdə oxuyub hazırlaşırdıq. Gecə-gündüzümüz birlikdə keçirdi, bir saat dərs oxuyur, bir saat cəbhədən danışırdıq; o, İmam Hüseyn (ə) batalyonundan, mən də Əbəlfəzl batalyonundan. O qədər yaxın dost olmuşduq ki, ərzaq almağa da birlikdə gedirdik.

O zaman hövzədə soyuducu yox idi. Bilmirəm nə fikirləşdiksə, iyul ayının istisində gedib süd aldıq. Hücrədən bayırda sərin yer tapa bilmədik. İstəyirdik ki, ertəsi günə sağlam səhər yeməyi yeyək. Səhər südü götürüb içdik. Xarab süd isə məni zəhərlədi. Hətta qoltuqlarıma keçib məni çətinliklə xəstəxanaya apardılar. Başıma o günə qədər gəlməyən müsibət gəldi. Ancaq nədənsə Abbaszadəyə heç nə olmadı. Sapsağlam qarşımda gəzir, mənə gülüb deyirdi: "Mama uşağı, axı adam bir qurtum südlə zəhərlənər?!"

İmtahanlardan sonra mədrəsə yay tətilinə çıxdı. Məndən və bir neçə xarici tələbədən başqa hamı getdi. Yayda mədrəsədə xörək verilmirdi. Mənim bişir-düşürüm yaxşı idi, çalışırdım elə yemək bişirim ki, hamımıza çatsın.

Bonab mədrəsəsində Qulu adlı bir aşpazımız vardı. O, toyu üçün dörd-beş gün icazə almaq istəyirdi. Şeyx Mustafa isə otuz-qırx tələbənin bir neçə gün yeməksiz qalacağına görə icazə vermirdi, deyirdi ki, gərək gözləyəsən, aşpaz tapım, sonra. Şeyxin yanına gedib onu arxayın etdim ki, bu məsələdə mənə güvənə bilər.

Bir neçə il restoranda işlədiyimə görə yaxşı aşpaza çevrilmişdim.

Bəlkə də, digər xörəklərdən daha asan hazırlandığına görə Qulu çox vaxt bozbaş bişirirdi. Bir qədər kartof, soğan, tomat, azca da ət töküb qazanı su ilə doldurur, qazın üstündə bişirirdi. Əti çox atmırdı, bozbaşları elə də dadlı olmurdu; suyu çox olanda isə daha dadsız olurdu. Uşaqlar zarafata ona deyirdilər: "Ağa Qulu, yenə yadından çıxıb, şlanqı açıq qoyub qazanı doldurmusan".

Qulunun olmadığı bir həftədə tələbələr üçün əlimdən gələni etdim, onlara Türkiyə xörəkləri bişirdim. Bir qədər zaman və yağ aparırdı, amma dadlı olurdu. Qulu kimi ehtiyat etmirdim ki, beş kilo yağı bir aya işlədəm. Tələbələrin hamısı gənc idi. O qədər bozbaş yemişdilər ki, qızartma xörəklərdən ötrü sinov gedirdilər.

Birinci xörək olaraq onlara badımcan dolması bişirdim. Uşaqlar ömürlərində yeməmişdilər. İşə başlayıb badımcanları yudum, diri-diri qazana atıb suda bişirdim. Badımcanlar bişdiyi yerdə bıçaqla taxtanı götürüb soğanların canına daraşdım. Restoranda o qədər peşəkar olmuşdum ki, bir dəqiqə çəkmədən soğanı soyub xırda-xırda doğrayırdım. Növbə qızartmağa çatanda isti tavaya yağ tökdüm, soğanları da üstündən. Yaxşı qızarandan sonra çəkilmiş ət əlavə etdim, hamısından yaxşı bir qovurma hazırladım. Axırda da bir az duz, sarıkök və tomat tökdüm. Bunlar birlikdə dadlı bir sous demək idi.

Badımcanlar bişəndən sonra hamısını sudan çıxardım. Suyu süzüləndən sonra qarınlarını başdan ayağa bıçağın ucu ilə yarıb içini boşaltdım, hazırladığım sousdan iki qaşıq doldurdum. Sonra hamısını cərgə ilə qazanın içinə düzüb bir stəkan su əlavə etdim. Zəif hərarətdə yaxşıca bişib mədrəsənin günorta yeməyi oldu.

Yeni xörək öz işini gördü. Nahardan sonra tələbələr dəstə-dəstə təşəkkür etməyə gəldilər. İndi, iki ildən sonra yayda Təbrizin Vəliəsr mədrəsəsində də eyni vəziyyət idi. Qızarmış və dadlı Türkiyə xörəkləri uşaqların ağzını sulandırırdı.

Sentyabrda Lətifi bir gün məni çağırıb bir məktub verdi. Məhkəmədən idi. Ertəsi gün səhər tezdən getdim ki, problem yaranmasın. İçəri girəndə təkcə katib oradaydı. Oturub müxtəlif məsələlər barədə danışdıq: çağırış, cəbhə, Türkiyə. İyirmi dəqiqədən sonra hakim gələndə isə katib məni təqdim edib tez stolunun arxasında oturdu.

Hakim qovluğuma baxıb dedi:

- Ağa Məhdəvi, siz cinayətkarsınız. İki ilə yaxındır İranda qaçaq şəkildə qaldığınız üçün altı ay həbsə məhkum edilirsiniz!

Sanki buzlu su kranını açıb başıma tökdülər. Mən bir ayına dözə bilməmişdim, o ki qala altı aya. Dedim:

- Məni öldürsəniz də, zindana getməyəcəyəm. Türkiyədə deyirlər ki, kim həbsxanaya düşməsə, eşşəkdir; amma kim çıxandan sonra yenə düşsə, eşşək oğlu eşşəkdir!

- Həbsə düşməyən niyə eşşək olur? - hakim gülüb soruşdu.

– Yəni azadlığın nə qədər dəyərli olduğunu bilmir. Həbsə düşüb bunu biləndən sonra yenə həbs olunsa, məlumdur ki, kökündən eşşəkdir!

Hakim stolunda yerini rahatlayıb dedi:

- Bax, hacı ağa, bilirəm ki, cəbhədə olmusan, zəhmət çəkmisən. Amma iki yolun var: ya gərək altı ay həbs olunasan, ya da cərimə verəsən; yəni həbsi pula çevirəsən.

Təklifini havada qamarlayıb dedim:

– Bunu qəbul edirəm. Nə qədər verməliyəm?

– Altmış min tümən.

Məbləği söyləyən kimi yerimdə quruyub qaldım. Mənim cəbhədə aldığım maaş iki min dörd yüz tümən idi. Dedim:

– Siz mənim barəmdə araşdırma aparmısınız, yəqin ki, maaşımdan da xəbərdarsınız. Mən on ilə də bu pulu toplaya bilmərəm.

– Hələlik yüz tüməni ödə, qalanı barədə bir şey fikirləşərik. Mən banka məktub yazıram, bankın nümayəndəsi hövzəyə gəlib səndən yüz tümən alacaq.

Razılaşdım. Ancaq nə qədər gözlədimsə, nə bank nümayəndəsi gəldi, nə yenidən məhkəməyə çağırış oldu. Məsələ birdəfəlik xeyirlə bitdi.

# 8

1985-ci ilin əvvəllərində Təbrizin soyuq qış günlərini yaşadığı, bizim də dərslə məşğul olduğumuz bir zamanda yenə əməliyyat xəbərləri dolaşmağa başladı. Bu dəfə dərslərin ortasına düşdüyünə görə çoxları gəlmədi. Abbas Abbaszadə və Cəfər Cahangiri ilə birlikdə Lətifidən icazə istədik, o da verdi.

Cahangiri Əcəbşirdən idi. Həm yaşı bizdən çox idi, həm də dərsdə irəlidəydi. O, kəşfiyyat-diversiya kurslarında iştirak etmişdi, mən də minaçı təlimində. Mənə dedi: "Kəşfiyyatçı olmaq üçün əvvəlcə minaçı təlimində iştirak etməlisən. Sən bu təlimdə iştirak etdiyinə görə işin asandır. Mənimlə kəşfiyyat bölüyünə gəl, rəisdən xahiş edərəm, səni qəbul etsin". Abbaszadə də razı idi.

Əndimeşkdə qatardan endik. Diviziyamız Dezfulda yerləşirdi. Maşınla oraya getdik. Çatanda dedilər ki, kəşfiyyat bölməsi diviziyadan ayrıdır və düşərgəsi Əhvazdadır. Ünvanı öyrənib Əhvazın Hərbi Hava Qüvvələrinin düşərgəsinə getdik.

Üçmərtəbəli bir binanı kəşfiyyatçı uşaqlara vermişdilər. Orada Əmini soyadlı əxlaqlı bir çayçıdan başqa heç kim yox idi. Cahangirini tanıyırdı. Soruşanda dedi ki, hamı gedib. Üç kəşfiyyat komandası vardı, hamısı tapşırıqlarını alıb getmişdi. İşin qaydası beləydi ki, komandaların heç birinin o birilərdən xəbəri olmurdu. İki gün orada qaldıq, heç bir xəbər çıxmadı. Cahangiri dedi: "Uşaqlar əməliyyatqabağı kəşfiyyata gediblər, burada qalmağın mənası yoxdur. Kəşfiyyatın işi əməliyyatdan öncədir, sonra işləri olmur. İndi ki hamı gedib, heç olmasa, gedib əməliyyatda başqa bir işə qoşulaq".

Ağa Rəhim yadıma düşdü. Bizim üçün ən yaxşı yer Əbəlfəzl batalyonu idi. Maşın tutub Dezfula getdik. Dedilər ki, batalyon adaya mövqeyi təhvil almağa gedib. Bizdən başqa beş-altı nəfər də gözləyirdi. Əmr alıb ezam siyahısına yazılmaq üçün özümüzü qərargaha təqdim etdik. Üçüncü gün adaya bəzi əşyaları aparmağa bir maşın gəldi. Onunla Cənubi Məcnun adasına gedib altıncı yolun yanında Əbəlfəzl batalyonuna qoşulduq.

Üçüncü gün iyirmi nəfəri pusqu səngərlərində qarovula seçdilər. Mən, Abbaszadə və Cahangiri də seçilənlərdən idik. Qayığa minib yola düşdük, 4-5 km gedəndən sonra suyun ortasında polistrol köpükdən düzəldilmiş bir neçə səngərə çatdıq. Səngərlərin üstü kirəmit kimi idi, çuvalla örtüb üstünə nazik bir dəmir qoymuşdular ki, isti və soyuqdan qorunsunlar, həm də səngərlər görünməsin.

Düşmənlə 3 km məsafəmiz vardı. Vəzifəmiz bölgəni qorumaq idi. Həm gündüzlər qarovul çəkirdik, həm gecələr. Növbələr ikisaatlıq idi. Gecələr üç nöqtədə qarovul dayanırdıq. Demişdilər ki, irəlidən əlavə, sudan da ehtiyatlı olaq. Çünki düşmənin dalğıc qüvvələri sudan çıxıb süngü ilə işimizi bitirə bilərdilər. Gündüzlər cəmi bir nəfər geridə keşik çəkirdi. Çünki irəlidəki qüvvələr oyaq idilər və ətrafa göz qoyurdular.

Əvvəllər elə bilirdik ki, düşmənə görə orada qarovul olmaq çox çətin və təhlükəli işdir. Lakin bir neçə saatdan sonra bildik ki, iraqlılardan da qorxulu olanlar var. Bunu qamışlığın arxasına tualet məqsədi ilə gedəndə anladıq. Oranın balıqları balıq deyildilər, bığları bir qarışa çatırdı. Siçanlarsa daha betər idi. Cüssələri iri idi. Biz oturan kimi yuxarıdan kəllə ilə suya girirdilər. Biz də düşmən dalğıclarının gəlişini düşünür, işimizi yarımçıq qoyub qaçırdıq. Əlbəttə, çox da pis deyildi; qamışlığın arxasından gələndə bir saata qədər danışıb-gülməyə macəramız olurdu.

Bizə üç-dörd gecədən bir ərzaq gətirirdilər: konserv və quru çörək. Suya ehtiyacımız yoxdu, dörd tərəfimiz şirin su idi; əlimizi Hur əl-əzimə salıb onun tərtəmiz, şirin və siçanlı suyundan götürə bilirdik.

İyirmi gün pusqu səngərində qaldıq, sonra Dezfula digər qüvvələrin yanına qayıtdıq. Bir-iki gündən sonra minaçı təlimi keçmiş on-on beş nəfəri ayırıb məşqləri təkrarlamaq üçün Dez bəndinə apardılar. Əməliyyatda bir neçə körpünü partlatmaq üçün bizdən istifadə etmək istəyirdilər.

Dörd gündən sonra digər qüvvələrin yanına qayıdanda xəbər verdilər ki, döyüşçülər hazırlaşsınlar. Cahangiri taqım komandiri oldu, mən qumbaraatan, Abbaszadə də mənim birinci köməkçim.

Bir gün komandirlərin iclası vardı. Cahangiri dedi: "İclasda əməliyyat müzakirə olundu; bugün-sabah gedirik". Elə də oldu. Ertəsi gün hər tərəfinə palçıq yaxılmış avtobuslarla yola düşüb büsbütün çadırla dolu olan naməlum bir əraziyə çatdıq. Üçüncü gün səhər çağı Osanlu əməliyyat planını izah etdi, bizim harada və düşmənin harada olduğunu, necə və haradan hücuma keçəcəyimizi başa saldı.

Üçüncü gün axşamüstü Bərzgər zastavasına yola düşdük. Zastavanın yerinə xətlər çəkmiş, iki torpaq istehkam qurmuş, istehkamların arasında yan-yana çadırlar qurmuşdular. Hər taqım bir çadıra yerləşdi. Ordunun çadırı bizim çadırımızın yanında idi. Bu əməliyyatda onlar da kömək edəcəkdilər. Komandir çadırı da digər səmtdə, bizdən 5 metr aralıda yerləşirdi. Ordu qüvvələrini ilk dəfə idi görürdüm. Onlar komandirlərinə qeyd-şərtsiz və hədsiz dərəcədə tabe idilər. Poqonunda bir neçə ulduz olan, hərbi baxımdan çox yüksək olduğu bilinən komandirləri isə Osanluya hərbi salam verirdi.

Günorta namazlarından sonra batalyon komandirinin iyirmi beş yaşlı müavini Osanlu çıxış edərək bildirdi ki, böyük ehtimalla sabah əməliyyat başlayır. Planı çıxarıb onun üzündən izah etməyə başladı:

"Sabah helikopterlə Dəclə çayının o tərəfinə keçəcəksiniz. Hücumçu qüvvələr sizdən öncə əməliyyata başlayıb yolu açacaqlar. İlk iş Fəriyyə körpüsünü partlatmaqdır. Bununla düşmən tanklarının önü kəsiləcək. Bunu öz qüvvələrimiz edəcəklər. Yol bağlanandan sonra Xatəmül-ənbiya qərargahı əsas körpünü partlatmağa çalışacaq. Bu zaman, yəqin ki, əhali meydana axışacaq. Diqqətli olun, əhali ilə mehriban davranın, arvad-uşaqları qorxutmayın. Bizim işimiz yalnız hərbi qüvvələrlədir!"

Gecə ikən hərəkət edəcəkdik. Hacı Sadiq Ahəngəran da gəldi, oxumaq üçün torpaq istehkamın üstünə çıxdı. Hamı gəlmişdi: döyüşçü, anbarçı, sürücü və s. Hacı Sadiq oxumağa başlayıb "Ey leşgəri-Sahib-zaman..." deyər-deməz iki düşmən təyyarəsi peyda oldu. Hamı qışqırdı: "Dağılışın! Yerə uzanın!" Hər kəs bir yerə sığındı, Ahəngərandan başqa. Dayanmaq bilmir, eləcə oxuyurdu. Nə bomba atdılar, nə atəş açdılar. Təyyarələr gedəndən sonra yenə toplaşdıq. Sonra isə əşyalarımızı yığıb halallaşmağa başladıq.

Axşam saat ona yaxın bizi helikopterlərin yanına aparacaq maşınlara mindik. Maşında deyildi ki, Mehdi Bakiri döyüşçülərin hər birinin yetmiş dəfə "Qul huvəllah" oxumasını istəyib. Oxuyub qurtarmamış çatdıq. Helikopterlər uçuşa hazır idi, amma hərəkət əmri gəlməmişdi. Maşının içi qaranlıq idi. Hər kəs xəlvətdə Allahla raz-niyaz edirdi. Birinci yetmiş surəni bitirib, ardınca ikincini oxuduq. Demişdilər ki, bu əməliyyatdan qayıdış ehtimalı 1-2 faizdir. Bəlkə də, yeddi yüz dəfə "Qul-huvəllah"

surəsini oxuduq, amma xəbər gəlmədi. Əməliyyat başlamışdı, səsini eşidirdik, amma hələ maşının içindəydik. Sübhə yaxın xəbər gəldi ki, bölgə azad olunmayıb; qayıdın, istirahət edin.

Getdiyimiz maşınlarla geri qayıtdıq. Sübh namazını qılandan sonra Cahangiri dedi: "Gərək hazır olaq, hər an hərəkət əmri verilə bilər. Silah-sursatı daha çadıra aparmayın, müəyyən bir yerə qoyub istirahət edin".

İstirahət etmək üçün çadırlara doğru getdik. Bel çantamı başımın altına qoyub yatdım. Təxminən saat 11-də oyandım. Hamı yatmışdı. Hələ günorta namazına qalırdı. Dəstəmaz alıb komandir çadırına əməliyyatdan xəbər öyrənməyə getdim. Ağa Rəhim yatmışdı, Osanlu isə yox idi. Çadıra qayıdıb yenə uzandım.

Çox keçmədən düşmən təyyarələrinin səsi hər yeri lərzəyə saldı. Sərt eniş səslərini eşidəndə bildim ki, bombardmana gəliblər. Heç demə, dünən gəlmiş iki təyyarənin məqsədi kəşfiyyat imiş. Burada nə qədər canlı qüvvənin toplandığını görüb getmiş, indi də bombalarını boşaltmağa gəlmişdilər.

Hər şey bir neçə saniyənin içində baş verdi. Bombardman o qədər sürətlə başladı ki, mən yerimdən qalxana qədər bombaların biri çadırı yarıb ayaqlarımın üstünə düşdü. Bir anlığa bütün bədənimin istiləşdiyini hiss etdim. Partlayış dalğası ilə yerimdən sıçramışdım. Yerlə göy arasında bir anlığa gözlərim ayaqlarıma sataşdı. Sanki dizdən aşağı hissəm yox idi. Başıma nə gəldiyini bilənə qədər yerə bərk çırpıldım.

Çadırdakılar oyanıb vahimə içində ətrafa baxırdılar. Birdən oyandıqlarına görə hamısı çaşbaş qalmışdı. Çadır toz-torpaqla dolmuşdu, göz-gözü görmürdü. Bu əsnada bir fısıltı gəldi, qumbaraatan mərmilərindən birinin barıtı alışdı, sonra da bum! Ordu qüvvələri sursatlarını bir çadıra yığmışdılar. İlk mərmi alışan kimi bir göz qırpımında bütün çadır yanmağa başladı. Sanki cəhənnəm səhnəsi idi. İşin daha pis tərəfi bu idi ki, özləri də çadırda yatmışdılar. Hər tərəfdən barıt və yanmış ət qoxusu gəlirdi.

Yanğın güclü və sursat çox olduğuna görə digər çadırların yanma və uşaqların şəhid olma ehtimalı hər an yüksəlirdi. O şəraitdə ən önəmli olan çadırdan çıxmaq idi. O cəhənnəmdən xilas olmaq üçün hərə bir yol axtarırdı. Çadırın ön tərəfindən çıxa bilməzdik, çünki sursat çadırının qəlpələri ətrafa sıçrayırdı. Arxa tərəf də bağlıydı. Nə edəcəyimizi, haradan çıxacağımızı düşündüyümüz yerdə birdən Osanlunun səsi gəldi: "Bu tərəfdən... bu tərəfdən çıxın!"

Çadırın arxasındakı ipi çəkmişdi, oranı göstərirdi. Dizlərim sağlam idi; çətinliklə də olsa, çadırdan çıxdım, iməkləyə-iməkləyə çadırın yanındakı torpaq istehkama dırmaşdım, üstündən o tərəfə diyirləndim.

Komandirlərə görə çox narahat idim. Qorxurdum ki, şəhid olarlar, əməliyyat da məğlubiyyətlə nəticələnər. Hamıdan çox ağa Rəhimdən nigaran qalmışdım. Komandir çadırı bizim çadırımızın yanında idi, bəlkə, 5 metr də məsafəmiz yox idi. Təxminən əmin idim ki, şəhid olub. Çünki onu ətrafımda gəzən insanlar arasında görmürdüm. Yalnız

Osanlu tez-tez çadırlara gedir, ipləri çəkib uşaqları bayıra çıxarırdı.

İstehkamın bu tərəfinə keçə bilmiş bir neçə nəfərə baxdığım yerdə yenə Osanlunun səsi gəldi: "Vanetə tərəf gedin". Ayaqlarımdan güclü qan axırdı. Ondan xahiş etdim ki, ayaqlarımı bağlasın, qanaxma azalsın. Üstümdə həmişə bir çəfiyə şalı olurdu. Onunla bir ayağımı bağladı, amma o birisi üçün bir şeyim yox idi. Əlini cibinə salıb bir çəkmə bağı çıxardı, digər ayağımı dizdən yuxarı hissədən bərk bağladı.

Hər tərəfdən qəlpə yağırdı. Osanlu məni Vanetə qoymaq üçün götürəndə yalvarmağa başladım: "Sən qalxma! Əgər şəhid olsan, batalyon komandirsiz qalar. Sən Allah, məni yerə qoy!" Ancaq sözlərimə qulaq asmadı, məni və başqa iki yaralını pikapın arxasına qoyub getdi.

Birinci yaralı batalyonun rabitəçisi idi. Onu həmişə ağa Rəhimin yanında görürdüm. Bütün beli yaralanmışdı, dayanmadan qışqırırdı. Digəri marağalı bir cavan idi, onu öz batalyonumuzda görmüşdüm. Ayağından qan axırdı, amma gözlərini bir nöqtəyə dikib qalmışdı; elə şokdaydı ki, hətta əlini də yarasının üstünə qoymurdu.

Arxası üstə uzanaraq son dəfə düşərgəmizə baxdım. Təyyarələr hər şeyi alt-üst edib getmişdilər. Hər yeri alov və tüstü bürümüşdü. Üzü toz-torpaqdan qaralmış Osanlu oyan-buyana qaçıb şəxsi heyəti toplamağa çalışırdı. Kövrəldim. Bir neçə gündən sonra əməliyyata getməli olan canlı qüvvə pərən-pərən olmuşdu.

Sürücü bizi mərəkədən çıxarmağa gəlmişdi, amma elə sürürdü ki, az qalmışdı ruhum bədənimdən ayrılsın. Ayağını qazdan çəkmirdi, o qədər sürətlə gedirdi ki, çala-çökəklərdə bir metr havaya atılır, sonra maşının yerinə möhkəm çırpılırdıq. Maşının zərbələrinin ağrısı yaralarımızın ağrısından, doğrudan da, çox idi.

Zavallı özünü itirmişdi; bizi səhra xəstəxanasına aparmaq yerinə səhvən Əhvaza doğru getdi, yol da uzandı. Bir saata yaxın yolda olduq. Ayaqlarımdan çoxlu qan axsa, ümumilikdə bədənimə iki yüz qəlpə girsə də, vəziyyətim yaxşı idi. Təcili yardım kurslarında demişdilər ki, əgər yaranızı bağlasanız, bir neçə dəqiqədən bir açın, qan dövr etsin, göyərib qaralmasın. Mən belə də edirdim.

Əhvaz zastavasından keçəndən sonra ipləri açmaq istədim, amma qollarım işləmədi. Onları qaldıra bilmirdim. Artıq yavaş-yavaş özümü şəhadətə hazırlayırdım. Sevincək və rahat idim. Xeybərdə narahat idim ki, şəhid olsam, haqq-hesabım çətin olacaq, burada isə fərqli hisslər keçirirdim; düşünürdüm ki, vəzifəmə əməl etmiş, səhlənkarlığa yol verməmişəm. Ürəyimdə Allahı çağırırdım. İki ayaq vermişdim, şübhə etmirdim ki, onun yerinə mənə iki qanad verəcək, cənnətdə bu başdan o başa uçacaq, şəhid dost və yoldaşlarıma baş çəkəcəyəm.

Əlbəttə, bu, məsələnin bir tərəfi idi; nigarançılığım isə bundan ötrü idi ki, şəhid olmayıb sağ qalsam, bu ayaqlarla necə cəbhəyə gedəcəyəm? Hərçənd, topuqdan kəsilmiş ayaqlarıma və sağlam dizlərimə

baxanda sevinirdim. Bir və ya iki ayağı dizdən aşağı hissədən kəsilmiş adamların protez ayaqla cəbhəyə gəlməsini görmüşdüm. Bir nümunəsi Əbülqasimi idi. O, protez ayaqla cəbhəyə gəlmiş, özü də bölük komandiri olmuşdu.

Beynim cənnətdə uçmaqla protez ayaqla cəbhəyə qayıtmaq arasında dolaşarkən Əhvazın Şəhid Bəqayi xəstəxanasının həyətinə girdik. Vanet dayandı. Tibb işçiləri əllərində xərək gəldilər. Vəziyyətimi görüb birinci məni aparmaq istəyəndə gözümlə rabitəçini göstərib dedim: "Bu cavanın vəziyyəti daha ağırdır, əvvəlcə onu aparın". Sözümə məhəl qoymayıb birinci məni xərəyə qoydular və əməliyyat otağına apardılar.

Get-gedə taqətimi itirirdim. Hiss etdiyim yeganə şey şalvarıma toxunan qayçının iti ucları və ayağımı isladan təzə qan idi. Əlbəttə, bunların hamısı qollarıma iynə girməzdən qabağa aiddir. İti iynə dərimi dələndən sonra gözlərim qaranlıq çaldı, kirpiklərim ağırlaşdı və daha heç nə hiss etmədim.

Bilmirəm neçə saat ötmüşdüsə, bütün vücudumu soyuq sarmışdı. Çətinliklə gözlərimi açdım. Ətraf qaranlıq idi. Başımı çevirib harada olduğumu bilmək istəyəndə bir kişi kağız və qələmlə başım üstə gəlib sual-cavaba başladı: "Ad, soyad, ezam yeri, yaşayış ünvanı..." Suallar qurtarandan sonra soruşdum ki, bura haradır? Dedi: "Bura Əhvaz hava limanıdır, sizi Tehrana aparırlar". Bildim ki, hava limanında özümə gəlmişəm. Yaralı o qədər çox idi ki, hamını Əhvazda saxlaya bilməmişdilər, ilk tibbi yardımı göstərib

Tehran, İsfahan, Təbriz və Məşhəd şəhərlərinə göndərirdilər.

Başımı bir qədər qaldırdım. Yaramı yaxşı və səliqəli bağlamışdılar. Ətrafımda göz işlədikcə yaralı vardı. Bəlkə də, üç yüz nəfər olardıq. Qışın sonları, hava soyuq idi. Həmin kişiyə dedim ki, mənə bir ədyal da versin. Amma ədyal da yox idi. İki nəfər xərəyi yerdən götürüb məni bir zala apardı. Orada hava nisbətən isti və təmiz idi. Zalın istiliyindən və bihuşedici dərmanlardan yenə dərin yuxuya getdim.

Bir müddət sonra ətrafdakı səs-küyə oyandım. Yalnız C-130 təyyarəsində olduğumu öyrənmək həddində özümdə oldum, sonra yenə huşumu itirdim. Üçüncü dəfə gözlərimi açanda təcili yardım maşınında idim, yanımda başqa bir yaralı oturmuşdu. Bədəninin bir neçə yeri sarılmışdı, əlinə bir neçə qan torbası vermişdilər. Soruşdum ki, bura haradır?

– İsfahan, – deyə cavab verdi.

– Axı biz Tehrana gedəcəkdik.

– Hələlik qismətimiz nisfi-cahandır!

İsfahanın Əmin xəstəxanasına getdik. Həkimlər ayaqlarımı görən kimi dedilər: "Tez əməliyyata hazır ol". Əməliyyat otağını xatırlayıram, amma qoluma ilk iynə batan kimi yenə kirpiklərim ağırlaşdı. Özümə gələndə palatada digər yaralıların yanında idim. Çox ağrım vardı. Qəlpələri və ayağımın artıq ətlərini götürmüşdülər. İki-üç gün ötmədən yenə gəlib dedilər: "Ayaqlarının iltihabı çoxalıb. Əməliyyata hazırlaş". Ayağımın ağrısına dözə bilirdim, amma daha çox kəsilməsinə yox. Bütün fikrim cəbhədə

qalmışdı. Əgər ayağımı dizdən kəssəydilər, cəbhəyə necə qayıda bilərdim?!

Bu dəfə ayaqlarımı dizdən bir qədər aşağı hissədən kəsdilər. Çox ağrıdırdı, hər halda, sümüklərimi kəsmişdilər. Bütün ağrılarına baxmayaraq, dizlərim yerində olduğuna görə sevinirdim. Ancaq bilmirdim ki, hələ macəranın əvvəlidir. Düz bir gün sonra gözlərimi açanda gördüm ki, həkimlər məni mühasirəyə alıblar: uşaqların qalstuklu peşəkar məsihi mütəxəssis adlandırdığı doktor Bürcian və professor adlandırdığımız doktor Hüseyni. O vaxtlar professor saqqalı stili çox da dəbdə deyildi. Biz saqqalına görə onu öz aramızda belə adlandırmışdıq. Əməliyyatları doktor Bürcian edirdi, professor da onun köməkçisi idi.

Ayağımın şəkli lampaya yaxınlaşandan sonra Bürcian: "Əməliyyata hazırlayın!" – deyib özü də hazırlaşmağa getdi. Professor başım üstə hazır dayanmış tibb bacısına dedi: "Xanım, razılıq vərəqini verin, imzalasın. Bu dəfə sağ ayağını dizdən kəsməliyik".

Sanki bütün otaq başıma uçdu. Vərəqi yaxınlaşdıranda itələyib dedim: "İcazə vermirəm; ölsəm, ayağımın kəsilməyindən yaxşıdır!" Onlar bilmirdilər ki, ayağımla vidalaşmaq mənim üçün cəbhə ilə vidalaşmağa bərabər idi. Tibb bacısı professora dedi: "Ağa doktor, imzalamır". Doktor yarızarafat-yarıgerçək dedi: "Necə yəni imzalamırsan?! Məgər özbaşınasan?!" Əməliyyat barədə qeydini yazıb imzaladı, vərəqi tibb bacısına

verib otaqdan çıxdı, yarım saatdan sonra da dediyini elədi. Üçüncü dəfə əməliyyat otağına girdim və dizdən kəsilmiş bir ayaqla bayıra çıxdım.

Naşükürlüyüm təsirini göstərdi: İki gündən sonra həkimlər yenə başım üstə peyda oldular. O qədər hirsli idim ki, çırtma vursaydın, qan çıxardı. Özləri demədən məqsədlərinin nə olduğunu bildim. Qışqırdım: "Sizin başqa işiniz yoxdur?! Bu xəstəxanada məndən başqa xəstə yoxdur?! Məndən əl çəkin!" Hüseyni güclə gülüşünün qarşısını alıb əlini professor stilli saqqalına çəkdi və dedi: "Əhsən! Artıq özün üçün doktor olmusan. Düz təxmin etmisən; əməliyyata hazırlaş!"

Sağ ayağımın iltihabı o qədər çoxalmışdı ki, sarığı dəyişdirəndə qoxusu hər yeri bürüyürdü.

Tibb bacısı ilə əməliyyat otağına getdik. Bəzən yaralı o qədər çox olurdu ki, növbə gözləməli olurdum. Həmin gün də elə günlərdən idi. Gözlədiyimiz yerdə həyəcan siqnalı verildi və ardınca düşmən təyyarələrinin səsi gəldi. Hamı canını götürüb zirzəmiyə qaçdı. Ətrafıma baxdım. Dəhlizdə məndən başqa heç kim yox idi. Uzanıb gözlərimi tavana dikdim. Hətta yanımdakı tibb bacısı da getmişdi. Ağ vəziyyət elan olunandan sonra gəldi. Təzə yadına düşmüşdü ki, mən də varam. Xəcalət çəkdi, mızıldayıb dedi: "Siz qorxmadınız?!" Dedim: "Qorxub neyləyəcəkdim ki?! Qaçmağa ayağı olmayan biri üçün ağ vəziyyətlə qırmızı vəziyyətin fərqi yoxdur!"

Bu, dördüncü əməliyyatım idi. Bu dəfə sağ ayağımı dizin yuxarı hissəsindən kəsdilər. Bu əməliyyat hamısından ağrılı idi, hətta yaralandığım zamanın ağrısından da. Tibb bacıları mənə morfi və betadin vurub gedirdilər. Bəzən də vurmur, yalandan deyirdilər ki, vurduq. Morfiyə aludə olmayım deyə adi bir gücləndirici vurub gedirdilər. Biz də özümüzə təlqin edirdik ki, morfi vurdular, indi ağrı dayanacaq. Ağrı dayanmayanda düşünürdük ki, indi vurub, hələ təsiri gəlməyib. Bu minvalla saatlar ötürdü.

Görünür, bu əməliyyat uğurlu olmuşdu. Nəhayət, məni dördüncü mərtəbəyə əlillər palatasına göndərdilər. Palatada dörd çarpayı vardı. Ağ-qara televizor yuxarıdan dördümüzə də verilişlərini yayımlayırdı.

İlk günlər çox çətin keçirdi. Çarpayıdan enə bilmirdim. Mənə zond qoşmuşdular. Çox arıqlamışdım. Bir aydan az müddətdə dörd dəfə əməliyyata girmişdim. Hər əməliyyatdan çıxanda mənə bir serum qoşur, bir kasa sup verir, növbəti əməliyyata göndərirdilər.

Hamının adamı vardı, məndən başqa. Korpus nümayəndəsi hər gün yaralıların kimliyini təyin etməyə gəlir, ailələrinə xəbər verirdi. Mənim yanıma gələndə qohumlarım olmadığına görə mədrəsənin ünvanını verdim. Mədrəsədən yalnız Lətifi gəldi, o vaxt böyük pul olan iki min tümən gətirmişdi. Yol uzaq olduğuna görə tələbələr gələ bilməmişdilər. Lakin Qumdakı türkiyəli tələbələr bunu kompensasiya etdilər. Höccətiyyə mədrəsəsinin uşaqları arabir məni

ziyarət etməyə gəlirdilər. Bahünər iranlı tələbələrdən idi, Tehranda təhsil alırdı. Gəlib üç-dörd gün yanımda qaldı. Türkiyəlilərdən Əli Ələvi və Abbas Kazimi də gəldi. İsa Günəşə də xəbər çatdı. Məsələni öyrənən kimi tez maşın tutub gəldi və bir həftə yanımda qaldı.

Bayıra çıxmırdıq, xəbərləri palatadakı televizordan öyrənirdik. Bir gün həmişəki kimi, televizoru açdıq. Ekran işıqlanan kimi Ahəngəran bütün ekranı tutdu. O, Mehdi Bakirinin şəhadətinə görə şeir oxuyurdu. Şəhadətindən iyirmi gün keçirdi və mən indi öyrənirdim. Boğazımı qəhər tutdu. Sanki atamı itirmişdim; sanki daha qardaşım yox idi; elə bil hər kəsimi itirmişdim. Ağa Mehdinin və dostlarımın şəhadəti, ayaqlarımın vəziyyəti, bir də cəbhəyə gedib-getməyəcəyimi bilməməm – bütün bunlar səbəbindən xəcaləti kənara qoyub ucadan ağlamağa başladım.

İki gündən sonra Cahangiri gəldi. O şəraitdə məni onu görmək qədər heç nə sevindirə bilməzdi. O da həmin bombardmanda yaralanıb Məşhədə göndərilmişdi. Hamını soruşdum: Abbaszadə, ağa Rəhim, Osanlu. Şükür Allaha, Osanlu salamat idi. Abbaszadə yaralanıb Təbrizə aparılmışdı. Komandirimiz Rəhim də yaralanmışdı. Bunu eşidib sevindim. Həmin günlərdə daim onu fikirləşirdim, necə dəyərli və lazımlı bir kadr olduğunu bilirdim.

Cahangiri deyirdi ki, ağa Rəhim bombardmandan öncə bir neçə dəfə ağa Bakiri ilə əlaqə saxlamış, uşaqları göndərmək istədiyini bildirmişdi. Eşitdiyi cavab isə belə olmuşdu: "Yox; nə vaxt lazım olsa, sizə xəbər verəcəyəm". Düz bombardman zamanı isə

ratsiya səslənir: "Rəhim, Rəhim, Mehdi!" Ağa Rəhim ratsiyanı açır, amma Mehdiyə cavab verə bilmir. Qəlpə ağa Rəhimin boğazını yarıb nəfəs yolunu bağlayıbmış. Əlini uzadıb yaxından bir kəsək götürür, yarasına qoyub sıxır və Mehdiyə cavab verməyə çalışır. Lakin qəlpə yarası dərinmiş. Qan boğazına doğru gedir və Mehdinin zəngi cavabsız qalır.

Ağa Rəhimi digər yaralılarla birlikdə Tehrana xəstəxanaya aparırlar. Osanlu ilə Vətəni düşərgəni qaydaya salırlar. Ağa Bakiri də geri gəlir, bir batalyon götürüb gedir. Döyüş davam edir, amma köməkçi qüvvələr gələ bilmirlər. Ağa Bakiri bir qayıq və yaralı bir batalyonla qalır. O, uşaqlarını tək qoyub qayıdan komandir deyildi. Orada qışqırır: "Ya hamımız qayıdacağıq, ya da birlikdə şəhid olacağıq!" Hələ sözü bitməmiş snayperlə alnından vurulur və üzü üstə yerə yıxılır. Uşaqlar onu qaldırıb bir neçə yaralı ilə birlikdə qayığa qoyurlar. Bir neçə kilometr gedəndən sonra qayıq vurulur və Dəclə hamısını ağuşuna alır.

Cahangirinin sözlərindən sonra ağa Mehdinin diviziyaya gəldiyi günlər yadıma düşdü. Döyüşçülərin yas məclisi olanda mütləq gələrdi. Necə tez onun üçün darıxmışdım. Həmişə arzulayırdım ki, kaş bir gün onun kimi ola biləydim: göylərə yerdən daha layiq bir insan.

Cahangiri gedəndə mənim ürəyimi də özüylə apardı. Cəbhənin qəm-qüssəsi köksümə ağırlıq edirdi. Yalnız bunu istəyirdim ki, müalicəm bitsin, protez ayaqlarımı qoltuğuma vurub cəbhəyə qayıdım.

İnsanlar və xəstəxana heyəti həmişə bizə qayğı göstərsələr də, zaman ötmək bilmirdi. Həkimlər və tibb bacıları Türkiyədən olduğumu bilib çox qeydimə qalırdılar. Doktor Tahirinin özü də türk idi. Hər axşam gəlib bir saat yanımda otururdu, türkcə söhbət edirdik. O, bütün müharibə əlillərinə telefon nömrəsini verib demişdi: "Nə vaxt işiniz olsa, çəkinməyin, zəng vurun, dərhal özümü yetirəcəyəm". Ayağımın sarığını həmişə özü dəyişirdi. Əməliyyatdan sonra palataya gələndə tibb bacılarına dedi: "Məhdəvinin yarasını özüm bağlayacağam, heç biriniz əl vurmayın".

Ayaqlarımın sarılması, həqiqətən, çox çətin idi. Bint yaraya yapışır, çətinliklə qopurdu. Doktor Tahiri hər gün səbirlə, mehriban şəkildə bu işi görürdü. Gündə ən azı yarım saatını mənim ayağımın sarığına sərf edirdi. Xəstəxananın rəisi də təxminən həftədə bir dəfə baş çəkib halımı soruşurdu. Rüstəmi soyadlı Baş tibb bacısı mehriban bir qadın idi, hər birimizi öz övladı kimi sevirdi. Təmizlik işçiləri də az qayğı göstərmir, xəstəxananı təmizləyəndən sonra paltarlarımızı yuyurdular. Mən vəziyyətimə görə bir ay hamama gedə bilmədim. Ancaq o vaxtdan buraxılana qədər, yəni bir ay boyunca iki-üç dəfə onların köməyi ilə hamama getdim.

Əhali də görüşə gəlirdi. Günorta saat 2-dən 4-də qədər görüş vaxtı idi. Bəzən orta məktəblərdən ziyarətə gəlib gül, şirniyyat, paltar gətirirdilər. Palata yoldaşlarım İranda heç kimimin olmadığını bilib yaxınlarına demişdilər ki, hər dəfə gələndə mənimlə

də hal-əhval tutsunlar. Onların biri Yəzd şəhərindən Hüseyn Bəni-Nəsəb adlı bir döyüşçü idi, düz mənim qarşımdakı çarpayıda yatırdı. Bir palatada olsaq da, bir ay bir-birimizi görə bilməmişdik. Mənim vəziyyətim bəlli idi; hər iki ayağım kəsilmişdi, çarpayıdan yıxılmayım deyə, bir ay qollarımı bağlamışdılar. Bu səbəbdən yataq yarası da tutdum, ağrısı ayaqlarımın ağrısından az olmadı.

Bəni-Nəsəb cəbhədə avtomobil qəzasına düşmüş, hər iki ayağı sınmışdı. Xəstəxanada həkimlər bir ayağını kəsmək istəyəndə icazə verməmişdi. Axırda öz ayaqları ilə xəstəxanadan getdi. Vəziyyətinə görə ayaqlarına iki ağırlıq bağlamışdılar ki, yuxarıda qalsın. Üzü ağırlıqların arxasında gizlənmişdi və bu bir ayda səsini onların arxasından eşidirdik.

Onunla çox dostlaşmışdıq. Evlərinin ünvanını vermişdi, israr edirdi ki, sağalandan sonra onlara gedim. Hər dəfə Yəzddən danışanda məni həvəsləndirmək üçün deyirdi: "Məhdəvi, nə vaxt yaxşılaşsan, mütləq gəl. Yəzddə elə bir dəniz var ki, dünyanın heç bir yerində yoxdur!" Həftəsonları ata-anası gəlir, hər dəfə qutab, pambıq şəkər və paxlava gətirirdilər. Həmişə mənimlə də hal-əhval tuturdular. Atasının ləhcəsi qəliz idi, danışanda heç nə başa düşmürdüm, çox vaxt anası ilə danışırdım.

Bu iki ayda Bəni-Nəsəblə mən həmişə palatada olduq, digər yaralılar isə gəlib-gedirdilər; iki gün, üç gün və ya bir həftə qalırdılar. Bir həftə bizim yanımızda qalmış yaralılardan biri şimallı bir oğlan idi, çoxlu iltihaba görə qolunu kəsmişdilər.

Ayaqlarında da yara vardı, amma çox dözümlü və güclü idi. Qolu kəsilsə və yarasını açıb-bağlayanda çox ağrıtsa da, bir "uf" da demirdi.

Bir gün onun ata-anası gəldi. Atasına baxanda gördüm ki, üz-başından narahatlıq yağır. Ağlaması üçün bir bəhanə yetərdi. Nigarançılığının səbəbini bilirdim. Onu çağırdım. Yaxınlaşdı. Əlini tutub dedim: "Hacı, niyə narahatsan?" Bir söz demədi, yalnız oyan-buyana baxmağa başladı. Mələfəni kənara çəkdim. Təəccübündən quruyub qaldı. Dedim: "Hacı, mənim ayaqlarımın heç biri yoxdur, narahat deyiləm, sağalıb yenə cəbhəyə qayıdacağam. Sizin oğlunuzun iki ayağı da salamatdır, sabahdan öz ayağı üstə dayanacaq, işlərini görəcək, bir idarədə işləyəcək". Əkinçi olduğuna görə qorxurdu ki, daha oğlu heç bir iş görə bilməyəcək.

Görüş bitəndən sonra oğlu yanıma gəlib mənə təşəkkür etdi: "Allah səndən razı olsun! Əgər bu sözləri deməsəydin, atam infarkt olacaqdı".

Palatamızda İranın hər yerindən xəstə vardı. Digər bir palata yoldaşımız kürd idi. Çox vaxt xatirələrini söyləyirdi. O, şah dövründə balaca bir kənddə müəllim olmuşdu. Deyirdi ki, kəndlilərin biri məni günorta yeməyinə dəvət etdi. Evlərinə gedəndə gördüm ki, uşaqların hamısı sevinir; əllərində dəsmal dövrə vurub oynayır, gülürlər. Əvvəlcə elə bilir ki, uşaqlar onun gəlişinə sevinirlər, sonra isə əsl səbəbi öyrənir: İnqilabdan qabaq vəziyyət o qədər pis olub ki, bəzi ailələr ilboyu plov yeməyiblər. Həmin gün ev

yiyəsi ona görə plov bişirmişdi, uşaqlar da sevindiklərindən oynayırmışlar.

Bir təbrizlimiz də vardı; Şəbüstərdən idi, yaxşı səsi vardı. Hər axşam ucadan Təvəssül duası oxuyurdu. O qədər bərkdən oxuyurdu ki, tibb bacıları da gəlirdilər. Qırmızı vəziyyət elan olunanda tibb bacıları sığınacağa gedirdilər, biz tək qalırdıq; yəni ayağımız olmadığına görə gedə bilmirdik. Hər yer qaranlıq olanda rövzə oxumağa başlayırdı. Rövzələrini çox sevirdim. Yarası dərin deyildi; gec gəlib tez getdi. Gedəndə hamımız, hətta tibb bacıları da çox darıxdılar. Yadımdadır, getdiyi axşam tibb bacılarının biri palataya gəldi. O, mənim tələbə olduğumu bilirdi. Dedi: "Sizdən bir xahiş edə bilərəm? Mümkünsə bu axşam da siz Təvəssül duası oxuyun".

Mənim səsim yaxşı deyildi, amma hamının ürəyi dolmuşdu. "Yox" deməyə utandım, ürəklənib oxudum. Duanın ortalarında gördüm ki, palatada heç bir tibb bacısı qalmayıb. Yazıq xəstələr də çarəsizlikdən qalmışdılar; çünki əksəri mənim kimi ayaqsız idi. Necə oxumuşdumsa, xəstəxanada qaldığım son günə qədər bir də heç kim mənə oxumaq təklif etmədi.

Bir ay idi xəstəxanada yatırdım. Çox yaxşılaşmışdım. Artıq öz işlərimi görə, təkərli oturacağa minib palatadan çıxa bilirdim. Gündüzlər vaxtım gəlib-gedən müxtəlif adamlarla keçirdi.

Bir gün xəstəxananın telefonu zəng çaldı və tibb bacısı onu bizim palatamıza gətirdi. Xəstələr yatan hissədə cəmi bir telefon vardı, iyirmimetrlik kabellə

oraya-buraya aparırdılar. Sabit yeri isə tibb bacılarının otağı idi. Kimin hansı xəstə ilə işi vardısa, zəng vururdu, tibb bacılarının biri telefonu həmin xəstənin palatasına aparırdı. Xəstəxanada əlliyə yaxın yaralı vardı, məndən və bir əfqanıstanlıdan başqa hamısı iranlı idi. Hər yaralı üçün gündə ən azı bir dəfə zəng vurulsaydı, bu o deməkdi ki, bir tibb bacısı iyirmi dörd saat ancaq əlində telefon palatalar arasında gəzməlidir.

Tibb bacısı dəstəyi mənə verib dedi: "Ağa Məhdəvi, səni istəyirlər".

Zəng Qumun Höccətiyyə mədrəsəsindən idi. Zəng vurmuş tələbə dedi: "Ağa İsa, qardaşın Türkiyədən gəlib, sabah sənin ziyarətinə gəlmək istəyir". Qardaşım farsca bilmədiyinə görə uşaqların birindən xahiş etmişdi ki, zəng vursun.

Xəstəxanada yatdığım müddətin əvvəllərində məni görməyə gələnlərdən biri də kəndimizin axundu Kərbəlayi Vəli idi. Onun kürəkəni və oğlu Höccətiyyə mədrəsəsində təhsil alırdı. Bir gün Quma gələndə oğlundan mənim yaralandığımı eşitmiş və hamılıqla məni görməyə gəlmişdilər. O, kəndə gedəndə birbaş evimizə gedib hər şeyi danışmışdı. Onlar isə mənim cəbhəyə getməyimi bilmirdilər. Yazıqlar elə bilirdilər ki, bu müddətdə ancaq dərslə, təhsillə məşğulam. Buna görə də qardaşımı İrana göndərmişdilər.

Səhərə qədər gözlərimə yuxu getmədi. O vaxtacan sevinirdim ki, ailəm məni bu vəziyyətdə görmür. İndi isə hər şeyi bilirdilər. Qardaşıma baxmağa üzüm yox

idi. Səhərdən gözlərim qapıdaydı, görüş saatı yaxınlaşdıqca ürəyimin döyüntüsü çoxalırdı.

Fikirləşdiyim yerdə birdən Yəqub qapı çərçivəsinin içində göründü. Mən onu çağırınca digər palatalara getdi. Məni tanımadığına görə güldüm. Özüm gedə bilmirdim, gözlədim ki, qayıtsın. Bir neçə dəqiqədən sonra bir tibb bacısı ilə gəldi. Tibb bacısı əli ilə məni göstərib dedi: "Məgər bu ağa sizin xəstəniz deyil?!" Yəqub mat-məəttəl mənə baxıb dilləndi: "Nə?! Bu, İsadır?!" Birdən-birə başı gicəlləndi və guppultu ilə palatanın yerinə yıxıldı. Tibb bacıları onun üzünə su səpib ayıltdılar.

Özünə gələndən sonra nərəsi ucaldı:

- İsa, bu nə bəladır başına açmısan?! Bu nə görkəmdir?! Niyə yarımçıq olmusan?!

Çarəsini bilirdim. Sakitləşməsi üçün danışmaq lazım idi. Dedim:

- Mənim qardaşım, bu qədər adam avtomobil qəzasında qolunu, ayağını, gözünü itirir. Allaha şükür et ki, mən İslamı müdafiə uğrunda ayaqlarımı vermişəm. Küçədə belə olsaydım, yaxşı olardı?!

O qədər danışdım, axırda yumşaldı, oturub mənə baxdı. Onu sakitləşdirə bildiyimə görə sevindiyim yerdə birdən ayağa qalxıb hədələməyə başladı:

- Sənin ayağın yoxdur, mənim ki var! Sabah gedib iraqlılardan qisasını alacağam. Məgər kim kimədir ki, vurub qaçsınlar! Mən günü sabah cəbhəyə gedirəm. İndi otur, bax...

Onun üçün elə moizə etdim ki, ömrüm boyu mislini heç bir yerdə etməmişəm. Bir saat təkcə cəbhələrin vəziyyətindən danışıb dedim:

- Allahın razılığı üçün olmasa, cəbhəyə getməyin faydası yoxdur. Üstəlik, çoxları mənim qisasımı alıblar, səddamçılara od qoyublar. Sən əsla özünü narahat eləmə. Üstəlik, mən burada bu qədər fars dilini öyrənəndən, tələbə olandan sonra tanışlıqla cəbhəyə getmişəm, səni heç vaxt buraxmazlar.

Türkcə deyirdi, türkcə də cavab verirdim. Palata yoldaşlarım gülməmək üçün özlərini sıxır, qızarıb-qaralırdılar. Bəxtim gətirmişdi ki, Yəqub farsca bilmirdi, yoxsa palata yoldaşlarım elə oyun çıxarardılar ki, əl-ayağını yığmaq olmazdı.

Yəqub bir neçə gün yanımda qaldı. İstəmirdim ki, bir dəfə İrana gəldiyi halda onu da mənə görə xəstəxanada keçirsin. İki aydan çox idi yatırdım. Ümumi vəziyyətim yaxşı idi, çox işlərimi görə bilirdim. Tibb bacıları da bizə anadan yaxşı qulluq edirdilər. Çıxış zamanım bilinəndə dedim ki, yerlimiz İsrafillə birlikdə Məşhədə ziyarətə getsin.

- Mən də sənəd işlərimi görərəm, İsfahan sanatoriyasına gedib protez ayaqlarımı alaram və Təbrizdə görüşərik, - dedim.

Yəqub gedəndən üç gün sonra xəstəxanadan buraxıldım. Bəhmən Basir məni İsfahan sanatoriyasına apardı. O, isfahanlı xeyriyyəçilərdən idi, təbrizli dostlarımdan Vahab Malikinin vasitəsi ilə onunla tanış olmuşdum. Həmin iki ayda bir neçə dəfə məni görməyə gəlmişdi, hər dəfə də əlidolu. Yəqubun

yanımda qaldığı günlərdə də bir dəfə gəlib maşınla hər ikimizi və ayağı kəsilmiş başqa bir rəfsəncanlı əlili öz bağına apardı, bizə çox yaxşı qulluq etdi: kabab bişirdi, bağın meyvələrindən dərdi və yaxşı bir qonaqlıq verdi.

Qəlib götürüb protez hazırlamaq üçün iki gün qalmalı idim. Bu, çətin deyildi, amma ayaqların hazır olması üçün dörd ay vaxt gərəkdiyini söyləyəndə qərara gəldim ki, Təbrizə gedim, hazır olub-olmaması ilə oradan maraqlanım.

Bəhmənlə sağollaşıb fondun işçilərindən bir nəfərlə yola düşdüm. Tehrana qədər təyyarə ilə getdik, hava limanında Təbrizə bilet almaq üçün iki-üç saat yubandıq. Axırda da dedilər ki, hava hücumuna görə uçuşlar dayandırılıb. Çarə yox idi. Fondun nümayəndəsi məni dəmiryol vağzalına apardı, orada Tehran-Təbriz bileti alıb mənə verdi, "qatarın hərəkətinə bir saat qalıb" deyib getdi. Mən təkərli oturacaqda, içində iki dəst paltar və bir qədər pul olan boxça ilə qaldım. Öz-özümə dedim: "Görəsən, bu adam nə düşünərək məni təkərli oturacaqda tək qoyub getdi?! Bəs mən qatara necə minəcəyəm?"

Qatarın fit səsi gələndə başımı qaldırdım. Təbrizdən gələn sərnişinlər qatardan enirdilər. Gözlərimi ovuşdurub diqqətlə baxdım. Bəli, Vahab Maliki idi, dostlarından bir neçəsi ilə birlikdə cəbhəyə gedirdi. Hal-əhval tutdu, məsələni soruşanda hər şeyi ona danışdım. Özü və dostları mənə çox xəcalət verdilər. Biri təkərli oturacağı yığıb kupeyə qoydu, o biri də özümü qucağına götürüb apardı. Vahab

gedəndə mənim son narahatlığımı da həll edib dedi: "Narahat olma, danışacağam, uşaqlar vağzalda səni qarşılayacaqlar".

Bütün yolu kupedə tək oldum. Allaha şükür, mənə zond qoşulmuşdu, ayaqyoluya ehtiyacım olmurdu. Namazımı da oturacaqda oturduğum yerdə qılırdım, heç kimlə işim yox idi. Qapı yarıaçıq vəziyyətdə idi, arabir dəhlizə bir göz atırdım. Yan kupedəki döyüşçü bir neçə dəfə gəlib-getdi, içəri boylandı, nəhayət, utanmağı kənara qoyub yaxınlaşdı: "Siz təksiniz?" – deyə soruşdu. "Bəli" cavabını eşidən kimi içəri girdi. Bir qədər onunla söhbətləşdik. Kəşfiyyat bölüyündən, soyadı Məhdəvi idi. Yaxınlarından biri əlil olmuşdu, onu Miyanəyə aparırdı. Cümə axşamı, yol da uzun idi. Mən Kumeyl duası oxudum, o da rövzəxanlıq etdi. Arabir gedib xəstəsinə baş çəkirdi. Duadan sonra gözlərim ağırlaşdı, yuxuya getdim. Mən oyananda yox idi. Qatar sübh saat 7-də Miyanəyə çatmış, o da enmişdi.

Saat 8-də Təbrizə çatdıq. Bütün sərnişinlər endilər, amma Vahabın dediyi uşaqlardan əsər-əlamət yox idi. Gələn yeganə səs xadimələrin döşəməni silmə səsi idi. Öz-özümə dedim: "Çarə yoxdur. Kupemə kim gəlsə, ondan kömək istəyərəm". “Görəsən, kupeləri təmizləmək nə qədər çəkəcək və mən nə qədər gözləməli olacağam”, - deyə düşündüyüm yerdə qarşımda 25 yaşlı bir gənc peyda oldu, gözü mənə sataşan kimi qışqırdı: "Burdadır; tapdım".

Üç nəfər idilər. Vahab Tehran vağzalından onlara zəng vurub mənə kömək etmələrini tapşırmışdı.

İmam xəstəxanasına getdim. Orada özümü təqdim etməli idim. Fondun nümayəndəsi qovluğumu görüb dedi: "Ağa Məhdəvi, sizin xəstəxanaya ehtiyacınız yoxdur. Bu gün sanatoriyaya gedəcəksiniz".

Günortaya yaxın təcili yardım maşını gəldi. Əlliyaşlı sürücüsü çox istiqanlı adam idi. Kürdüstandan başqa bir yaralı ilə birlikdə mindik. Avtovağzala çatanda sürücü kürdüstanlı yoldaşıma bilet almağa getdi. O gəlincə bir saat yarım çəkdi. Maşını işə salıb üzr istəməyə başladı: "Bağışlayın, gec oldu. Mən xəstəxanada olanda bu adamı mənə tapşırdılar, dedilər ki, Türkiyədən gəlib, bizə görə vuruşub, yaralanıb, ona yaxşı bax, hər halda, qonağımızdır. Bilet alıb onu mindirənə qədər uzun çəkdi. Allah ondan razı olsun, aqibətini xeyirli etsin!"

Onu pərt edib demək istəmədim ki, sənə tapşırdıqları Allah bəndəsi məndim, o deyildi. Gülümsəyib onu xeyir niyyətlə gördüyü işin sevinci ilə baş-başa buraxdım.

Saat 4-ə yaxın Bahar xiyabanına çatdıq. Sanatoriya birmərtəbəli tikili idi, alma, tut və armud ağacları ilə dolu böyük bir həyəti vardı. Komissiya otağı, həkim və tibb otağı və yalnız stolüstü tennisdən ibarət olan idman zalı həyətdə yerləşirdi. Otuz-qırx metrlik dəhlizin hər iki tərəfində müharibə əlillərinə məxsus on otaq vardı. Fizioterapiya otağı və yeməkxana da dəhlizin sonundaydı. Sanatoriyanın Əzim adlı bir keşikçisi də vardı. Deyirdilər ki, müharibə əlilidir, amma zahirən çox sağlam idi, həmişə qapının

yanındakı taxta stulda oturub belini şaqqıldadır, əsnəyirdi.

Mənə otağımı göstərdilər. Kiçik bir soyuducu və kiçik bir şkafı olan üççarpayılı bir otaq idi. Gəlişimdən yarım saat ötməmiş Yəqub tələbələrin bir neçəsi ilə birlikdə gəldi. İsfahana getməzdən öncə mədrəsəyə zəng vurub demişdim ki, İmam xəstəxanasına gedəcəyəm. Yəqub Təbrizə mədrəsəyə, oradan da uşaqların bir neçəsi ilə xəstəxanaya getmişdi. Soruşanda demişdilər ki, sanatoriyaya göndərmişik.

Gəliş xəbərim mədrəsədə bomba kimi yayılmış, uşaqların iki-üçü nümayəndə kimi məni aparmağa gəlmişdi. Yüzə yaxın tələbə məni gözləyirdi. Dörd ay idi onları görmürdüm. Təkərli oturacağımı götürüb maşınla getdik. Mədrəsədə kim vardısa, qarşılamağa çıxdı. Hamıdan qabaq da ağa Lətifi gəlmişdi. Uşaqlar üzərlik yandırır, salavat və xoşgəldin deyirdilər.

Birinci mərtəbədə hücrələrin birində mənə yer düzəltmişdilər. Hövzədə heç kimin çarpayısı yox idi, ancaq mənim vəziyyətimə görə on-on beş döşək və ədyalı üst-üstə yığıb üzərinə ağ mələfə çəkmiş və mənə taxt düzəltmişdilər. Balaca otaq idi. Uşaqlar dəstə-dəstə gəlib görüşüb-öpüşür, oturub söhbətlərimə qulaq asırdılar. Bir dəstə getməmiş, o birisi gəlirdi.

Şam namazını qıldım, şam yeməyinə də onlara qonaq oldum. Ancaq qalmağa şəraitim yox idi. Dörd-beş saat qalandan sonra sağollaşmalı oldum. Uşaqlar getməyə qoymurdular. Biri deyirdi: "Sanatoriyaya niyə gedirsən?! Biz ölmüşük bəyəm?! Pilləkəndə

qucağımıza götürüb aparar, gətirərik". Başqa biri deyirdi: "Özüm sənə qulluq edərəm, hamama apararam, kisələyərəm". Bunları deyirdilər, amma orada qalmağım üçün ən böyük problemimin nə olduğunu bilmirdilər. Mən o vəziyyətdə Avropa tipli unitazdan istifadə edirdim. Onda isə mədrəsədə belə bir imkan yox idi. Odur ki, mənim üçün ən yaxşı yer sanatoriya idi.

Gecə dostlarımla sağollaşıb yola düşdüm.

# 9

Sanatoriyanın həm mühitini sevirdim, həm də adamlarını. Yavaş-yavaş onlarla tanış olur, onları qardaş kimi istəyirdim. Bəziləri çoxdan idi orada qalırdılar, mən gələndən bir müddət sonra buraxıldılar; bəziləri isə məndən öncədən oradaydılar, məndən sonra da orada qaldılar. Onlar onurğa beyni zədələnmiş əlillər idi. Çox az bir qismindən başqa hamısı sanatoriyada və bir otaqda qalırdı.

Mənim otaq yoldaşlarım da özüm kimilərdi. Orucəli Eşqi Leylandan idi. Özünün dediyinə görə, hərbi xidməti Kürdüstanın səfalı bölgələrindən birində yerləşən zastavada keçirirmiş. Kazarmanın arxasında bir bulaq varmış. Bir dəfə fikirləşir ki, gedib bulaq suyu içsin. Qayıdanda yolunu yaşıllıq ərazidən salır, orada minaya düşür və hər iki ayağı dizinin aşağısından kəsilir. Həqiqətən, səfalı və eşq adamı idi.

Xosrov Bəhruzi Kürdüstandan idi və mənim kimi cəbhədə hər iki ayağını itirmişdi: biri dizdən yuxarıdan, digəri dizdən aşağıdan. O, xüsusən

günortalar çox yatırdı; o qədər yatırdı ki, hamını əsəbiləşdirirdi. Gözləri yumulan kimi başının üstünü kəsdirirdik.

Sanatoriyanın çarpayılarında qaldırıcı vardı. Çarpayıdan ayrı idi, onunla çarpayını qaldırıb-endirmək olurdu. Kimin əlində olurdusa, alıb çarpayıya qoşurduq, fırladıb aşağı-yuxarı verir və istədiyimiz formada saxlayırdıq. Bir modellə qane olmurduq, müxtəlif modelləri sınayırdıq: bəzən baş tərəfi yuxarı qaldırırdıq, bəzən ayaq tərəfi, bəzən hər ikisini, bəzən də ortanı. Bu zaman Xosrov yuxudan oyanıb deyinməyə başlayırdı: "Mən bilmirəm, bu dünyada sizdən paxıl adam varmı?! Niyə bu qədər paxılsınız? Allah lütf edib, məni müharibə əlili edib, bütün tibb işçiləri mənə kömək edirlər, sizinsə məni görməyə gözünüz yoxdur. O qədər paxıllıq edirsiniz ki, hətta mənim rahat yatmağıma da dözə bilmirsiniz!"

Bəzən yatmaq istəyəndə qaldırıcını götürüb gizlədirdi. Amma xeyri olmurdu, tez tapırdıq.

Vaxtımızın çoxu birlikdə keçirdi. Bəzən üçümüz birlikdə bayıra çıxır, dövrə vurur, alış-veriş edib qayıdırdıq. Gündüzlər dərsimiz də olurdu: Elektrik avadanlıqlarının təmiri dərsi. Bizə deyirdilər: "Qollarınız olduğu üçün sizə ən yaxşı iş budur. Əgər bir gün sizə təqaüd verməsələr, özünüzü təmin etməyi bacarmalısınız". Bir qədər xarab avadanlıqlar gətirib əlimizə verirdilər. Açıb qaynaq edir, düzəldib təhvil verirdik. Bununla həm boş vaxtlarımız dolurdu, həm bacarıq öyrənirdik, həm də sanatoriyadan çıxdığımız

dövr üçün yaxşı bir gəlir mənbəyi idi. Axşamlar hövsələmiz daralmasın deyə gül-gül oynayır, zalda stolüstü tennis yarışları keçirirdik. Oynayanları həvəsləndirmək üçün qışqırır, sanatoriyanın altını üstünə çevirirdik.

Bir axşam üçümüz də çox hövsələsiz idik. Xosrovla Orucəli təklif etdilər ki, keşikçinin yanına gedək. Sanatoriyaya gəldiyimiz gün Əzim demişdi: "Nə hadisə baş versə, sizə nəsə olsa, deyin, tez təcili yardıma zəng vurum, gəlsinlər". Elə bilirdik ki, bir sözdür, deyib. Qərara gəldik ki, onu sınayaq.

Gecə saat 12-dən sonra üçümüz də ürəklənib keşikçi otağına getdik. Xosrov zarıya-zarıya qışqırdı: "Ağa Əzim, hardasan? Tez təcili yardıma zəng vur; tez ol, qarın ağrısından öldüm". Zavallı Əzim özünü itirdi, heç nə soruşmadan dəstəyi götürüb zəng vurdu. On beş dəqiqə keçməmiş təcili yardım maşını xüsusi siqnalı ilə sanatoriyanın qarşısına gəldi. Çarə yox idi. Minib İmam xəstəxanasına getdik. Sürücü çatar-çatmaz vəziyyəti tibb işçilərindən birinə məruzə etdi. O da qışqırmağa başladı: "Tələsin! Üç müharibə əlili gətiriblər, vəziyyətləri çox ağırdır!"

Ayaqqabılarının səsini maşının içindən eşidirdik. Belə yaxalanacağımız ağlımıza gəlməzdi. Bizi xərəyə qoyub cəld təcili yardım şöbəsinə apardılar. Həkim başımız üstə gəlib bizi müayinə etməyə başladı. Gah bu tərəfi sıxırdı, gah o tərəfi. Ciddi bir problemin olmadığını görüb qələmi götürdü, dərman yaza-yaza yanındakı tibb bacısına baxıb dedi: "Nüsxələrini yazdım. Xüsusi bir problem yoxdur. Ancaq

getməzdən öncə hərəsinə bir ağrıkəsici vurun, ağrıları sakitləşsin".

Tələyə düşmüş siçan kimi olduq. Macəranın sonuna qədər getməliydik. Üzü üstə uzandıq, əzələmizə iynə vuruldu, ürəyimizdə isə yazıq Əzimə demədiyimiz söz qalmadı.

Sentyabrda zəng vurub dedilər ki, ayaqlarım hazırdır. Xosrov və Eşqəli ilə birlikdə Qırmızı Aypara Cəmiyyətinə getdik. İki ayaq vermişdim, indi də iki ayaq alırdım. Çox sevinirdim. Ayaqlar taxtadan idi, yeddi-səkkiz kiloya yaxın ağırlıqları vardı. Ancaq bu da yaxşı idi. Orada ayaqlarımı geyib məşq eləməyə başladım. Ayaqlar taxtadan idi, yerinə keçənə qədər incidirdi. Ayağı almazdan öncə gipslə qəlib götürsələr də, yerinə oturana qədər çətinlik çəkməyim təbii idi.

Sanatoriyada qaldığım müddətdə həmişə yaxınlarımı fikirləşirdim. Öz-özümə deyirdim: "Anam məni bu vəziyyətdə görməsə, yaxşıdır. Ayaqlarımı alandan sonra yenə sərhəddə görüş təyin edib gedərəm".

Bu dəfə Yəqub o tərəflə danışdı və sanatoriyaya məni aparmağa gəldi. Dedi ki, atamla anam bu müddətdə çox narahat olublar, özləri görmədiklərinə görə görüb gedənlərin də hərəsi bir söz deyib; biri deyib, İsanın qolu yoxdur, biri deyib, ayağı yoxdur, biri də deyib, nə qədər ki uşağınız sağdır, tez gedin, onu görün. Min cür söz deyiblər. Yəqub gedib mənim salamat olduğumu söyləyəndən sonra isə sakitləşiblər.

Vahab Maliki korpusun avtomobili ilə bizi aparmağa gəldi. İki protez ayaq və bir çəliklə sərhədə

yola düşdüm. İki ildən sonra ata-anamı görmək istəyirdim. Həm çox həyəcanlı və xəcalətli idim və həm də həddən artıq sevinirdim. Xəcalət çəkməyimin səbəbi İrana gəlməzdən öncə anama verdiyim vədələrin artıq mümkün olmaması idi. Bu kəsilmiş ayaqlarla nə kəndimizin camaatına imamlıq edə biləcəkdim, nə də əkinçilik və heyvandarlıq işlərində atama yardımçı ola biləcəkdim. Maşından enən kimi protez ayaqlarımı keçirdim, təbii şəkildə yeriməyə çalışdım. Sərhəddəki 12 kv metrlik otağın qapısını açan kimi içəridə oturmuş atamla anamı gördüm. Bir-birimizi qucaqlayıb iki il qədər ağladıq. O qədər adi yol yerimişdim ki, atam inanmışdı. Oturan kimi əlləri ilə ayaqlarıma toxunmağa başladı. Dizlərimə qədər əlini çəkdi, orada əlini tutub gözlərimin üstünə qoydum. Üz-başından razılıq təbəssümü yağdı.

Anamdan əsla elə rəftar gözləmirdim. Özü ağlamadı, amma elə danışdı ki, komitənin bütün pasdarları ağladılar. Əlini ayaqlarıma çəkib deyirdi: "Oğlum, fəxr edirəm ki, Allah yolunda gedib əlil olmusan! Fəxr edirəm ki, İmam Hüseynə (ə) qurban olmusan!" İnanmazdım ki, anamın belə ruh yüksəkliyi olsun.

Sanatoriyada özüm kimi dostların yanında şirin günlər yaşadığımı deyəndə ata-anamın halı daha da yaxşı oldu. Dedim ki, İranda mənə yaxşı baxırlar, kömək edirlər. Bir nümunəsi budur ki, indi məni maşınla gətiriblər, onunla da qaytaracaqlar. Allaha şükür, söhbət o qədər yaxşı keçdi ki, ata-anam arxayın şəkildə qayıtdılar.

Sanatoriyanın əksər əlilləri təhsillərini davam etdirirdilər. Müəllimlər gəlib dərs keçir, axırda imtahan alırdılar. Sanatoriyaya gələndə çoxunun attestatı da yox idi, amma orada oxuyub doktoranturaya qədər getdilər. Sanatoriyanın yeganə hövzə tələbəsi mən idim, təbliğat işi ilə məşğul olmaq istədiyimə görə həmin dərsləri davam etdirməyim lazım idi. Mədrəsəyə gedib-gəlmək çətin olduğuna görə orada dərslərimi oxumağa məcbur idim. Mədrəsədən on-on beş kaset alır, maqnitofonumu götürüb həyətə düşür, ağacın altında oturub dərs oxuyurdum.

Bir ay bu minvalla ötdü. Lakin bu şəkildə dərs oxumaq ürəyimcə deyildi. Hövzə təhsilində əsas məsələ tələbə yoldaşınla birlikdə oxuyub hazırlaşmaqdır. Kasetlə oxuyub başa düşürdüm, amma fərdi olduğuna görə tez yadımdan çıxırdı. Digər tərəfdən, hücrə və mədrəsə həyatını çox istəyirdim. Hövzənin mənəviyyatını sevirdim. Orada bütün müəllim və tələbələr mənəviyyatlı insanlar idilər. Bunlarla bərabər, hövzədəki camaat namazı və dualar başqa yerdə tapılmırdı.

Müharibə davam etdiyinə və əlillərin sayının çoxalma ehtimalına görə mədrəsənin tualetlərinin birinə Avropa tipli bir unitaz yerləşdirdilər. Mədrəsəyə gedib-gəlmək problemi qalırdı, onu da Hüseynəli Rüstəmimehr həll etdi. Özü 70 faizli müharibə əlili idi. Jandarmeriyada işləmiş, müharibə başlayanda cəbhəyə getmiş, elə birinci ezamda belindən yaralanmışdı. O, əlil olandan sonra

mədrəsədə telefonçu işləməyə başlamışdı. O vaxtlar fond tərəfindən müharibə əlillərinə üçtəkərli motosiklet verirdilər. Onun üçün sürücülük vəsiqəsinə də ehtiyac olmurdu. Rüstəminin özünün Peykan avtomobili vardı, ailəli olduğuna görə çox vaxt maşınla gedib-gəlirdi. Qərara gəldik ki, mənə üçtəkərli motosiklet verilənə qədər onunkundan istifadə edim.

Təkərli oturacağı yığıb böyrümə qoyur, sonra özüm oturur, qaza basıb gedirdim. Mədrəsənin pilləkənlərindən qalxıb-düşməyim deyə birinci mərtəbədəki hücrələrin birini mənə vermişdilər. Davud Xeyrullahi ilə hücrə yoldaşı olmuşdum.

Mədrəsədə mənim üçün yaradılmış ideal şəraitə baxmayaraq, yenə onunla sanatoriya arasında qalmışdım. Sanatoriyada həmişə bizim şəraitimizə uyğun xörəklər və digər rifah imkanları vardı. Digər tərəfdən, bir-birimiz üçün darıxırdıq, dərdlərimiz eyni olduğuna görə orada çox rahat idim. Buna görə də həftənin ilk bir neçə gününü mədrəsədə qalır, sonlarında sanatoriyaya gedirdim.

Mədrəsədə olduğum günlərdə Davud Xeyrullahi bütün işlərimi görürdü; yemək hazırlayır, məni aparıb-gətirir, qabları yuyurdu, əlimi ağdan-qaraya vurmağa qoymurdu. Marağadan idi, məndən iki yaş kiçik olsa da, moizəsinə söz ola bilməzdi. Sanki dünyaya natiq kimi gəlmişdi. Birlikdə olduğumuz müddətdə həmişə ona qibtə edirdim. Hamıdan fərqlənən tələbələrdən idi. Üz-başından nuranilik

yağırdı, onunla kilometrlərlə məsafəm olduğunu hiss edirdim.

1986-cı ildə, qışın sonlarında yenə əməliyyat xəbərləri dolaşmağa başladı. Bu dəfə Vəlfəcr-8 əməliyyatından söhbət gedirdi. Uşaqların çoxu getdi. Mənim də ürəyim çox istəyirdi. Davud da gedəndən sonra vəziyyətim lap pisləşdi. Daha heç nəyə hövsələm qalmadı, dərsləri də başa düşmürdüm. Hər dəfə Bəsicə gedəndə deyirdilər ki, cəbhə sizin üçün çətindir, tualet problemi olacaq, hətta öz işlərinizi belə görə bilməyəcəksiniz.

Davud getdiyinə görə mədrəsəyə çox da hövsələm qalmamışdı. Daha çox sanatoriyada qalmağı üstün tuturdum. Ancaq bilmirdim ki, yavaş-yavaş onun yoxluğuna alışmalıyam.

Davudun gedişindən iki həftə sonra mədrəsə uşaqlarından Mühəddər adlı birisi sanatoriyaya gəlib birlikdə mədrəsəyə getməyimizi istədi. Həvəsim yox idi; bəhanə gətirdim, amma əl çəkmədi. Üçtəkərli motosikletlə getdik. Mühəddər harada olsaydı, hamını gülməkdən uğundurardı, onu saxlamaq mümkün deyildi. Həmin gün isə yolboyu önə baxır, danışmırdı.

Mədrəsəyə çatanda öz hücrəmizə getdik. Uşaqların bir neçəsi də gəlmişdi. Məni görəndə özlərini saxlaya bilməyib ağlamağa başladılar. Beynim kilidləndi. Özümü hücrəyə atdım. İnana bilmirdim. Hər yer Davud idi; hücrənin hər tərəfi onun xatirələri ilə doluydu. Ürəyim sancırdı. Onun heç vaxt tərk etmədiyi və həmişə qünutda şəhadət dilədiyi gecə namazlarını xatırladım. Elə rəftarı və nuraniliyi ilə bir

gün şəhid olacağını bilirdim, amma bu tezliyə və belə sürətlə yox. O, Vəlfəcr-8 əməliyyatının ilk mərhələlərində şəhadətə qovuşmuş, cəsədi üç gündən sonra Təbrizə gətirilmişdi.

Ertəsi gün dəfni idi. Mədrəsə uşaqları ilə bir avtobus tutub Marağaya getdik. Şəhərin böyüklərindən olan əmisi söhbət etdi. Ondan sonra Davudun tabutu çiyinlərə qalxdı və əlbəəl gəzməyə başladı. O, çərçivənin içindən hamıya gülümsəyirdi, hara gedirdimsə, mənə baxırdı. Baxışı canıma od vururdu, sakitləşə bilmirdim. Onun yerini heç nə doldurmurdu. Onsuz həyat mənim üçün çətindi.

Dəfndən sonra çoxları getdi, mənsə qaldım. Marağadan olan Rəsul Kərəmi də gözlədi, bir neçə saat Davudla tək qaldıq. Davud gedəndən sonra daha heç yerdə sakitləşə bilmirdim; nə mədrəsədə, nə sanatoriyada. Günlər uzanmış, sıxıcı olmuşdu. Gecə-gündüz işim Bəsicə gedib yalvarmaqdan ibarət idi. Cəbhədən qalmaq fikri məni çox narahat edirdi.

Bir gün adət üzrə ad yazdırmağa getdiyim yerdə Kərim Fəthinin yaralanıb İmam Xomeyni xəstəxanasında yatdığını öyrəndim. O, diviziyanın kəşfiyyat-diversiya rəisi idi. Adada onu bir neçə dəfə Cahangiri ilə görmüşdüm. Həmin gün axşamüstü xəstəxanaya getdim. Məsələni ona söyləyəndə vərəq üzərinə bir neçə söz yazıb imzaladı və mənə verib dedi: "Ağa Məhdəvi, narahat olma, iş yalnız əməliyyat, döyüş və taktika deyil. Siz plan hazırlamaqda və əməliyyat layihəsində bizə kömək edə bilərsiniz".

Məktubu alıb özümü tələsik Bəsicə yetirdim. Bir gündə ikinci dəfə məni görən Bəsic işçisi üz-gözünü turşutdu, lakin hələ ağzını açmamış məktubu masanın üzərinə qoydum. Oxuyanda üzü açıldı, heç nə soruşmadan adımı siyahıya yazdı.

İki-üç gündən sonra ezam kartı və tualet oturacağı ilə birlikdə yola düşdüm. Digər döyüşçülərlə birgə Əhvaza qədər qatarla getdim, oradan da avtobusla Dezfula. Diviziyanın qərargahına çatanda birbaş ruhaniyyət ofisinə gedib özümü təqdim etdim. Təklif etdilər ki, Təbliğat bölməsi tərəfindən Fava gedim. Cəbhə üçün o qədər darıxmışdım ki, hara və hansı adla olmasının fərqi yox idi. Bəsicilərin arasında olmağım, cəbhənin inanılmaz həddə mənəviyyatla dolu mühitini görmək mənə bəs edirdi.

Mikroavtobusa minib Ərvənd çayına qədər getdik, oradan Fava qədər qayıqla yolumuza davam etdik. Ömrümdə ilk dəfə idi Ərvənd çayını görürdüm. Dalğaların hündürlüyünü görəndə İslam döyüşçülərinin Vəlfəcr-8 əməliyyatında nələr etdiyini bildim. Düşmən dəmir milləri olan günəşəbənzər istehkamlar qurmuşdu. Təxminən iyirmi mili bir-birinə qaynaq etmiş, çarpaz formada yerə mıxlamış, ətrafına da tikanlı məftil tökmüşdülər. Ağır maneələrdən, habelə dalğasının hündürlüyü bir neçə metrə çatan təlatümlü çaydan keçib günəşəbənzər istehkamları açmış, oradan da keçib iraqlıların həmişə hazırlıqlı səngərlərinə çatmışdılar. Bu, həqiqətən, möcüzəydi, adi hərbi hesablamalarla heç cür uyğun gəlməyən bir möcüzə!

Qayıqlardan endik. Estakadanın yanında bir neçə çadır və səngər qurmuşdular. Mən təbliğat səngərinə getdim. Orada çoxlu hövzə tələbəsi vardı, müxtəlif batalyonlara ezam olunurdular. Dedilər ki, batalyonun bilinənə qədər burada qal. Bir neçə gün orada oldum; döyüşçülərin şəriətlə bağlı suallarına cavab verir, namazdan sonra söhbət edir, dua oxuyurdum. Mənəvi aura vardı, Allaha şükür, bəsicilər mənim sadə oxumağımla hönkür-hönkür ağlayırdılar.

Döyüşçülərin yanında və gözəl cəbhə ab-havasında olsam da, qərarsız idim. Orada qalmaq məni razı salmırdı, irəli, döyüş xəttinə getmək istəyirdim. Hər gün gedib-gəlir, yalvarırdım ki, məni önə göndərsinlər. Geri çəkilmədiyimi görəndə dedilər: "Həbib ibn Məzahir batalyonu təmas xəttindədir, bugün-sabah oraya xörək və bir sıra avadanlıqlar aparmağa gələcəklər. Maşın gələndə siz də onlarla gedərsiniz".

Maşın həmin gün gəldi. Əynimdə bəsici forması, başımda əmmamə vardı. Çəliyimi və tualet oturacağını götürüb pikapın önündə, sürücünün yanında oturdum. Əşyaları yükləyəndən sonra yola düşdük.

Günorta idi, günəş düz üzümə saçırdı. Bir qədər sərin gəlsin deyə şüşəni aşağı çəkdim, amma xeyri olmadı. Başımı çıxardım ki, bir qədər külək dəysin. Favın 40-50 dərəcə istisində külək haradan gəldisə, birbaş əmmaməmin altına girib düyünü açdı. İlk dəfə idi əmmamə qoyurdum, hələ bağlamağı öyrənməmişdim. Tələbələrin mədrəsədə dizlərinə

bükdüklərini görmüşdüm, mənimsə dizim yox idi. Çölün ortasında əlimdən bir şey gəlmirdi. Əmmaməni bir neçə dəfə əlimin dövrəsinə bükdüm, enlədib-daraltdım ki, birtəhər başımda dayansın.

İki saat yol getdik. Təxminən bir ildən sonra cəbhəyə qayıtmışdım. Çox sevinirdim. Hər şey üçün darıxmışdım. Maşından enən kimi bir ruhaninin çəliklə gəldiyini görən komandir özü məni qarşıladı, komandir səngərinə apardı. Duz zavodundan irəlidə, düşməndən təxminən 1 km aralıda olsaq da, sakitlik idi. Komandir deyirdi: "Biz gündüzlər sülhdəyik, gecələr müharibədə. Günbatan çağı uşaqların dəstəmaz alıb namaz qıldıqlarını bildiklərinə görə dayanmadan vururlar".

Günorta yeməyindən sonra oturacağımı götürüb tualetə getdim. Torpaq sipərin arxasında bir neçə tualet düzəltmişdilər. Sipərin yanına çatan kimi bir Simonov gülləsi gəlib tualet üçün düzəltdikləri çuvallara dəydi. Yerimdən qalxıb möhkəm yıxıldım. Oradakıların hamısı sağlam idi, ən azı mənim vəziyyətimdə deyildilər və belə olduqda tez təhlükəsiz bir yerə gedirdilər. Mənim getməyimsə hər dəfə böyük problem olurdu. Bəsic qərargahındakı komandirin dediyi sözlərin mənasını ilk dəfə onda başa düşdüm.

Sipərin arxasından çıxıb təbliğat səngərinə getdim. Əmmaməmi düzəldib səngərin çuvalla örtülmüş qapısını kənara çəkdim. Bütün səngər hər tərəfdən asılmış şəhid şəkilləri və alın lentləri ilə doluydu. Oradakı adama salam verib batalyon ruhanisini

soruşdum. Dedi: "Ağa Qarinin işi vardı, geriyə getdi, inşallah, bir neçə günə qayıdar".

Düşmənə yaxın olduğumuza görə orada kollektiv mərasim keçirmək, xütbə söyləmək və dua oxumaq mümkün deyildi. Səhərlər səngər-səngər gəzir, ya da bir neçə bəsicini bir yerdə görüb yaxınlaşırdım. Bir növ üz-üzə təbliğat aparırdım. Danışmağa çox da ehtiyac yox idi, bir nəfərin Türkiyədən ayağı kəsildiyi halda yenə cəbhəni buraxmadığını görmələri onlar üçün çox böyük dərs idi.

Gecələr qarovul növbəsi gəlirdi. Ayaqlarımı çıxarıb əllərimlə istehkama dırmaşır, yanlarında otururdum; həm deyib-gülür, həm də təbliğat aparırdım; həm özüm başımı qarışdırırdım, həm də qarovulların yorğunluğunu çıxarırdım.

Dördüncü gün təxminən səhər saat 10 idi. Səngərin yanında dayanmışdım. İki nəfər motosikletlə mənə yaxınlaşdı. Türkdilli bir ruhani dedi: "Salam, hacı ağa. Təbliğat səngəri buradır?" Dedim ki, bəli. Dedi: "Burda bir nəfərin əmmaməsi açılıb, onu bağlamağa gəlmişəm".

Ağzım təəccübdən açıq qaldı. Bunlar haradan eşitmişdilər? Üzüm güldü. Tez əmmaməni çıxarıb ona verdim. Yaxşı bacarırdı, çox gözəl şəkildə bükdü. İşi bitəndən sonra çox dəvət elədim ki, səngərə gəlsin, razılaşmayıb dedi: "Tələsirik, qayıtmalıyıq". Bəsici motosikletin qazına basanda boğazıma toz-torpaq girdi. Öskürə-öskürə öz-özümə dedim: "Cəbhədə necə adamlar var! Yazıq bu qədər yolu mənim əmmaməmi bağlamaq üçün gəlib!"

Bir neçə gündən sonra mövqeyi yeni batalyona təhvil verməli idik. Mən altı gündü oradaydım, digər qüvvələrsə məndən öncə gəlmiş, yorulmuşdular. Yeni batalyon ruhani ilə, həmin ağa Qari ilə gəldi. O gələn kimi əmmaməsini soruşdu. Dedim:

– Hacı ağa, mənim sizin əmmamənizdən xəbərim yoxdur.

Gözləri bərəldi. Dedi:

– Vay-vay! Mənim əmmaməm açılmışdı, iki gün qabaq bir nəfəri göndərdim ki, gəlib bağlasın. Qayıdanda da dedi ki, düzəltmişəm. Bəs hanı?

Nə baş verdiyini anladım, gülməmək üçün özümü güclə saxlayıb dedim:

– Hacı ağa, mənim qeyb elmim yoxdur ki, əmmamənizin harda olduğunu bilim. Təsadüfən, mənim əmmaməm də açılmışdı, onu verdim, düzəltdilər. İndi geriyə qayıdıram, onları görsəm, deyərəm ki, yenə gəlib sizin işinizi yoluna qoysunlar.

Əşyalarımı götürüb təbliğat səngərindən çıxdım. Şəxsi heyətlə birlikdə Bubian adasına getdik. Uşaqlar yorğun olduqlarına görə geri qayıdacaqdılar. Ancaq yeni batalyon bölgəyə təzə gəldiyinə, öncəkilər isə oranı daha yaxşı tanıdıqlarına görə ehtiyat üçün bir neçə gün yaxında qalmalı idilər.

Gündüzlər hava yaxşı idi, gecələrsə rütubətli olurdu, paltarlarımız dalğıc geyimi kimi bədənimizə yapışırdı. Gecə-gündüz ağcaqanadlar bizə qonaq olurdular. Qurdları daha pis idi; sancanda yeri bir neçə gün qalırdı. Axşamlar işimiz olmadığına görə çadırda otururduq. Mən ayaqlarımı çıxarıb bayıra

qoyurdum, uşaqlarla zarafatlaşıb deyirdim: "Baxın, ayaqlarım bayırda olsa da, ağcaqanadlar məni sanca bilmirlər. Cürətiniz varsa, siz də ayaqlarınızı onlara göstərin".

Bir gün axşamüstü bizi maşına mindirib ətrafa gəzməyə apardılar. Fav adasından Bubian adasının yaxınlığına qədər getdik, oradan Küveyt sərhədini və Xor-Abdullahı gəzdik. Üç gündən sonra geriyə Dezfula getdik. İki gün də orada qaldıq. Çox çətinliklə cəbhəyə gəldiyimə görə qayıtmağa ürəyim gəlmirdi. Kərim Fəthinin məktubu əlimdəydi, onunla kəşfiyyat bölüyünə gedə bilərdim.

Kəşfiyyat qərargahı Əhvazda yerləşirdi. Oraya getdim. Yay idi, yer-göydən od yağırdı. Kəşfiyyat bölüyündə çoxlu adam vardı; biri girir, biri çıxırdı. Əvvəlcə ad yazdırır, yer dolandan sonra qısamüddətli bir təlim keçir, qəbul olanların qalmasına icazə verirdilər. Mən də qalası oldum və qərara alındı ki, peşəkar təlimlərdə iştirak edim.

Plan çəkmə təlimi keçdiyimə görə havadan çəkilmiş şəkillərin və ya kəşfiyyat əməliyyatlarının nəticəsi olan kiçik planları böyük planlar üzərində qeyd edə bilirdim. Təpələr, torpaq sipərlər, tikanlı məftillər, yolun keçdiyi yer, tankların yerləşdiyi yer, düşmənlə məsafə – bunların hamısını dəqiq şəkildə və müəyyən nişanlarla böyük vərəqlər üzərinə qeyd edirdim ki, lazım olanda şəxsi heyətə başa salmaq üçün istifadə etsinlər.

Plan işi ilə yanaşı ruhani fəaliyyəti ilə də məşğul olurdum. Fiziki vəziyyətimə görə pişnamaz ola

bilmirdim, amma dini söhbətlər edir, Kumeyl duası oxuyurdum. Təsadüfən, Aşura axşamı orada olub döyüşçülərlə Cəzairilərin məscidinə getdik. Ərəblər adətlərinə görə səhərəcən sinə vurur, rövzə oxuyurdular. Məscidin bir neçə şəbistanı vardı. Dörd yüz nəfər birinci şəbistanda sinə vururdu, sonra əzadarlıq edə-edə ikinci şəbistana girir, orada da bir az sinə vurandan sonra növbəti şəbistana keçirdilər. Mərasim böyük coşqu ilə keçirdi. Ömrümdə elə əzadarlıq görməmişdim. Mərasimi yarımçıq qoymağa heyfim gəldi. Hamımız orada qalıb ərəblər kimi əzadarlıq etdik və səhər çağı bölüyə qayıtdıq.

Bir tərəfdən, bütün gecəni oyaq idim, gözlərim ağırlaşırdı, digər tərəfdən də, Aşura günü idi, yatmağa ürəyimiz gəlmirdi. Uşaqlar dedilər: "Aşura ziyarətnaməsi oxuyaq, sonra istirahət edək". Duaya başlayıb lənətlərə və salamlara çatdıq. Yüz dəfə deyilməsi lazım olan yerlərdə təkid məqsədi ilə ərəb, fars və türk dillərində dedim: "yüz dəfə". Növbəti salamda da eyni fəndə əl atdım. Ertəsi gün uşaqlar məni ələ salır, namazdan sonrakı duanı oxuyanda deyirdilər: "üç dəfə". Deyirdilər ki, hacı ağa bizə belə öyrədib: bir dəfə deyir, sonra deyirik ki, İlahi, onu yüz dəfə hesab elə!

Növbəti əməliyyatın Ümm əl-Rəsasda həyata keçəcəyinə görə Bermuda adasını imkan daxilində ona oxşatmışdılar. Döyüşçülər orada təlim keçirdilər ki, əməliyyat bölgəsi ilə daha yaxşı tanış olsunlar. Kəşfiyyat bölüyündə olduğum üç ay ərzində bir dəfə oraya gedib bir neçə gün qaldım.

O zaman çayın üzərində cəmi bircə bənd vardı, içində bol su axırdı. Hündür və təlatümlü dalğalarda, xüsusən də gecənin qaranlığında dalğıclıq etmək, həqiqətən, çətin iş idi. Oturub dalğaların içinə atılan, üzən uşaqların təliminə baxırdım. Əməliyyata gedəsi vəziyyətdə olmadığım üçün onlara qibtə edirdim. Bir gün söhbət əsnasında dedim: "Hazıram ki, nə qədər ibadətim varsa, sizə verim, dalğıclığınızın savabını mənə verəsiniz!" Ondan sonra daha əl çəkmədilər. Biri namaz qılmaq istəyən kimi deyirdilər: "Niyə namaz qılırsan? Bəs bilmirsən ki, ağa Məhdəvi hamımızın yerinə qılır?! Biz dalğıclıq edəcəyik, savabını ona verəcəyik, o da bizim yerimizə namaz qılacaq!"

Sentyabr ayı idi, yavaş-yavaş hövzə açılacaqdı. Bütün mənəviyyatına və gözəlliyinə baxmayaraq, cəbhədən qayıtdım ki, dərslərimdən geri qalmayım.

Proqramımız həmişəki kimi davam edirdi: dərs oxuyur, tələbə yoldaşlarımızla hazırlaşırdıq. Zarafat və gülüş də öz yerində.

Mədrəsənin yeganə tələbəsi idim ki, tezbişirən qazanım vardı. Özüm almışdım, arabir xörək bişirirdim. Bir gün mədrəsənin müəllimlərindən ağa Əbuzərini xaş yeməyə dəvət etdim, dedim ki, səhər saat 8-də səni gözləyəcəyəm. Namazdan sonra tezbişirən qazanı bütün ləvazimatı ilə qazın üstünə qoyub dərsə getdim. Dərsdən sonra hücrənin qapısını açanda gördüm ki, xaş bir yana, heç qazanın özündən də əsər-əlamət yoxdur. Qaz boş-boşuna küncdə yanıb otağı qızdırırdı.

Əmin idim ki, Abbaszadənin işidir. Birinci dəfəsi deyildi; bir neçə dəfə də aldıqlarımın hamısını aparmışdı. Nə görürdüsə, aparırdı, heç nəyə rəhm eləmirdi: kahı, xiyar, yumurta, indi də kəlləpaça! Hara getdiyini bilmirdim. Mədrəsə dördmərtəbəli idi, hər mərtəbədə qırx hücrə vardı. Bilmirdim ki, hansı hücrənin qapısını döyüm. Bu zaman Əbuzəri müəllim qarşımda dayandı. Onu içəri dəvət etdim, süfrə sərib ortasına pendir qoydum. Dayanmadan tər tökür, ürəyimdə Abbaszadəni danlayırdım. Kaş təkcə bu olaydı! Bir həftə ona yalvarıb dedim: "Xaşı yemisən, nuş olsun, heç olmasa, qazanımı gətir". Heç nə boynuna qoymaq olmurdu. Elə bil, heç bir iş görməyib. Gülməyə başlayır, yoluna davam edirdi.

Belə yerdə anamı çox xatırlayırdım; o, bu kimi işlərə qarşı çox həssas idi. Əgər burda olsaydı, bunların hər birinin dərsini verərdi – deyə öz-özümə düşünürdüm.

Oğrucada Hüseyn əmimin evi bizim evimizin qarşısında yerləşirdi. Hər iki evin ətrafında geniş ərazi vardı. Həm bizim toyuq-cücəmiz vardı, həm onların. Toyuqlar gedib-gəlir, bir-birinə qarışmırdılar, amma yumurtaları bəzən qarışırdı. Danışmışdıq ki, onların evinin önündəki çəmənlikdə olan yumurtalar onların olsun, bizim evimizin önündəkilər də bizim.

Mənim dörd-beş yaşım olanda əmimgilin çəmənliyində bir neçə yumurta gördüm. Onları götürüb sevincək evə gəldim. Anam görüb soruşdu:

– Bunları hardan gətirdin?

– Əmimgilin evinin önündən.

– Bunlar əmigilindir, – qaşqabaqla dedi, – əgər götürsən, sabah hər biri böyük bir div olub səni dişləyər.

Anamın cümləsi bitər-bitməz qaça-qaça yumurtaları yerinə qoydum.

Bir dəfə də əmim oğlu ilə qərara gəldik ki, əri vəfat etmiş bir qonşumuzun əkin sahəsinə gedək. Əmim oğlunun təklifi ilə bir qədər sütül noxud dərmək istəyirdik. Noxudlar çox təzə və dadlı idi. Bir qucaq yığdıq, hamısını köynəklərimizin ətəyinə töküb gəldik. Evimizin yaxınlığında əmim bizi gördü, yaxınlaşıb şübhə ilə soruşdu:

– Bunları hardan dərmisiniz?

– Çox... çox uzaqdan dərmişik, – mən bir qədər mızıldayandan sonra dedim, amma qonşumuzun adını çəkmədim.

Əmim oğlu duyuq düşüb tez noxudları yerə tökdü və qaçdı. Mən əmimlə qaldım. O, əvvəlcə qulağımın dibindən bir sillə vurdu, sonra dedi:

– Siz camaatın malını oğurlayırsınız?! Bunlar yetim uşaqların malıdır. Elə indicə hamısını apar, onlara təhvil ver.

Noxudları aparıb sahibinə verdim, ağlaya-ağlaya evə getdim. Anam: "Nə olub?" – deyə soruşanda cavab verdim:

– Qonşunun noxudlarını dərmişdik, əmim məni vurdu.

O, əmimin hərəkətindən şikayətlənmədən başıma qışqırdı:

– Sən səhv etmisən! Onlar yetim malı olub, onları yeməyə haqqın yox idi!

Abbaszadə və mədrəsənin digər tələbələri Kərbəla-5 əməliyyatına gedəndə çox həsrət çəkdim. O qədər taqətsiz oldum ki, mart ayında əşyalarımı toplayıb yenə yola düşdüm. Artıq yolunu-yolağını öyrənmişdim. Birbaş düşərgənin qərargahına getdim, oradan da ruhani mərkəzinə. Mərkəzin rəhbəri Höccətül-İslam Ağayi soyadlı ucaboy bir ruhani idi. Marağadandı, üç ay idi orada fəaliyyət göstərirdi. Ondan xahiş etdim ki, məni döyüş yerindəki batalyonların birinə göndərsin. O isə xahiş etdi ki, bir neçə günlüyə onu əvəz edim. Səddamın Marağanı bombaladığını eşitmişdi, ailəsindən xəbərsiz və çox narahat idi. Ona yazığım gəldi, razılaşdım. İşləri mənə başa salmaq istəyəndə qolumdan tutub təxminən yarım metrlik bir dəftərin yanına apardı. Bütün ruhanilərin adları o dəftərə qeyd olunmalı idi: batalyonlara göndərilənlərin şəxsi məlumatları, ezam tarixləri, qayıdanların qayıdış tarixləri, imzalar, axırda da hesabların sıfırlanması.

Ruhanilər səhər saat 8-də gedib axşam 6-da gəlirdilər. Çoxu isə gecəni öz batalyonunda qalmağı üstün tuturdu. Gündəlik çayımız otaqdakı səyyar ocağın üstündə dəm alırdı, günorta və şam yeməklərimizi də altmışyaşlı mehriban bir kişi gətirirdi. Əsas problem tualetlərə qədər məsafənin uzunluğu idi. Həmin yolu gedib-gəldiyimə görə sol ayağım yaralanmışdı. Adi vaxtlarda ayağımı geyməyib maz sürtəndə və təkərli oturacaqla gedib-

gələndə problem həll olurdu, orada isə təkərli oturacaq yox idi, hər dəfə gedib-gələndə yaralarım daha da dərinləşirdi.

Ağayi üç həftədən sonra gəldi. Günbəgün irinləyən yaralarla kəşfiyyat bölüyünə gedə bilməzdim. Məcbur qalıb Təbrizə qayıtdım. Həkimlər deyirdilər ki, ayağının sümüyü inkişaf edib, gərək kəsilsin. Buna razı deyildim; həm ağrısı vardı, həm də vəziyyətimi gərginləşdirirdi. Tələbələrin biri doktor Misbahı məsləhət gördü. Bir binanın üçüncü mərtəbəsində işləyirdi. O zaman lift də yox idi. Yaralarıma görə protez ayaqları geyə bilmirdim. Nə edəcəyimi bilmədim. Abbaszadə dedi: "Özüm səni apararam". Bədəni qəlpə ilə dolu bir müharibə əlili olsa da, üç mərtəbəyə məni belində qaldırdı. Həkim ayaqlarıma baxıb dedi ki, əməliyyata ehtiyac yoxdur. Bir qədər dərman və maz yazdı, iki aya bütün çirklər qurudu və yaralardan əsər-əlamət qalmadı.

# 10

Sanatoriyada olanda Müharibə Əlilləri Fondunun nümayəndələri tez-tez bizə baş çəkir, bizi arxayın edirdilər; nə evdən, nə də ailədən nigaran qalırdıq. Bizim ailə qurmağımızla da maraqlanıb deyirdilər: "Çox qızlar var, müharibə iştirakçıları ilə ailə qurmaq istəyirlər". Əvvəllərdə evlənmək barədə çox da düşünmürdüm, bütün fikir-zikrim cəbhə idi. 1987-ci ilin yayında isə bu barədə fondun nümayəndəsi ilə danışmaq qərarına gəldim. Fondda hər birimizin qovluğu vardı, müharibə əlilləri ilə ailə qurmaq istəyən qızlara göstərirdilər.

Bir-iki aydan sonra müharibə əlili ilə evlənmək istəyən iyirmi üç yaşlı bir xanımı mənimlə tanış etdilər. Fonda gedib danışdıq. O, ruhani olmayan biri ilə ailə qurmaq istədiyinə görə söhbət elə birinci görüşdə bağlandı. Üç-dörd aydan sonra başqa bir xanımı təqdim etdilər. Şəhid xanımı idi, övladı da yoxdu, amma məndən böyük idi. Bu söhbət də birinci görüşdə bağlandı. Hər ikimizi tanıyan dostlar

deyirdilər ki, xarakterləriniz uyğun gəlmir, bir-birinizə görə deyilsiniz. Üç həftədən sonra mədrəsədəki Delir soyadlı bir müəllimimiz öz tələbələrindən birini təklif etdi. Onun bizdən başqa on-on beş xanım şagirdi də vardı. Bir gün onlara belə bir müharibə əlilinin ailə qurmaq istədiyini bildirmiş, xanımların biri razı olduğunu söyləmişdi.

Müəllimin evində görüş təyin etdik. Adı Fatimə Şəfiqdi, məndən üç yaş balaca idi. Hadişəhrdən idi, Təbrizə təhsil almağa gəlmişdi. Üzünü çox bərk örtmüşdü, nə qədər çalışdımsa, baxa bilmədim. Əsas düşüncələrimiz idi. Allahın köməyi ilə uyğun gəldi və ilk razılığa gəldik.

Atasının evi Culfadan 15 km aralıda idi. Fatimə Təbrizdə dərs oxuduğuna görə əmisinin evində qalırdı. Qərara gəldik ki, növbəti görüşü orada keçirək. Hüseynəli Rüstəmimehr və onun xanımı ilə getdik. İlk görüşə protez ayaqla getmişdim, bu dəfə ayaqlarımı çıxarıb təkərli oturacaqda getdim. Məni belə də görməsini istəyirdim. Öz-özümə deyirdim ki, bəlkə, bir gün bir hadisə baş verəcək və protez ayaq geyə bilməyəcəyəm; gərək bu halımı da görüb şüurlu şəkildə seçim etsin. Rüstəmi də çəliklə gəlmişdi.

Bizi Fatimənin əmisi qarşıladı. Hər şeyi düşünmüşdük, evin pilləkənindən başqa. Çarə yox idi; əmi ilə oğulları arabamın önündən və arxasından tutub məni yuxarı qaldırdılar.

Otaqda divara söykənib oturduq. Gəlinin ailəsindən başqa hamı orada idi. Fatimənin atası gələ bilmədiyinə görə əmisini nümayəndə etmişdi. Yarım

saatdan sonra yavaş-yavaş otağı boşaltdılar, ikimiz danışmağa başladıq. Xanım Rüstəmi otaqdan çıxmazdan öncə mənə üç üzük verib dedi: "Son razılaşmadan sonra üzüklərin birini gəlinə verərsən". Mən iranlıların adətini bilmədiyimə görə üzükləri alıb təşəkkür etdim.

Özümü itirmişdim. Dəsmalla tərimi silib söhbətə başladım. Birinci görüşdəki sözlərimi təkrarlayıb dedim ki, ayaqlarımın vəziyyəti belədir, bəlkə, bundan da pis oldu və sol ayağımı da dizin yuxarısından kəsməli oldular. Danışıb qurtarandan sonra Fatimə başladı: "Baxın, ağa Məhdəvi, mənim bəzi şərtlərim var. Əgər ailə qursaq, gərək hər həftə birlikdə cümə namazına gedək, Təvəssül duası yaddan çıxmasın, nə zaman yürüş keçirilsə də, gərək iştirak edək..."

Çadrasının altından bir vərəq çıxarıb oxuyurdu. O qədər şərtləri vardı ki, yadından çıxar deyə hamısını yazmışdı. Məni gülmək tutdu. Nə qədər mənim danışmağa sözüm yoxdusa, onun da bir o qədər çox sözü vardı. Dedim: "Mən də sizin bütün şərtlərinizi qəbul edirəm. Amma həmişə proqramım belə olub ki, İslamdan nə önə keçim, nə də geri qalım".

Söhbət bitəndə əlimdəki üç üzüyü ona göstərdim. Birini götürüb barmağına taxdı. Qərara alındı ki, onlar mənim barəmdə araşdırmaya başlasınlar, mən də evlilik işlərini görmək üçün valiliyə müraciət edim. O zaman valilikdə xarici vətəndaşlara dair bir şöbə vardı. Onlar Daxili İşlər Nazirliyinə məktub yazırdılar, oradan evlilik icazəsi verilirdi.

Yay fəsli və mədrəsə tətil idi. Gecə-gündüz sanatoriyada idim. Gündüzlər uzun idi, adətən, günəş batana qədər həyətdə dolaşırdıq. Cümə günü idi. Uşaqlar sanatoriyanın idman zalında stolüstü tennis yarışı keçirirdilər. Oturduğum yerdə biri gəlib dedi: "Məhdəvi, bir nəfər gəlib, səninlə işi var".

Salamlaşıb hal-əhval tutandan sonra özünü Fatimənin əmisi kimi təqdim edib araşdırma məqsədi ilə gəldiyini söylədi. Qarşımdakı mehriban kişiyə dedim ki, daha rahat danışmaq üçün otağa gedək. Otaqda oturan kimi dedi:

- Həyətdə sizin barənizdə sual-cavab etdim. Uşaqların biri dedi ki, ağa Məhdəvi yaxşı adamdır, amma heç nəyi yoxdur.

- Bəli, mənim heç nəyim yoxdur, - dedim. - Nə evim var, nə maşınım. Hövzə tələbəsiyəm və bir qədər maaşım var. Əlbəttə, sanatoriyada bəzi texniki işlər öyrənmişəm, radio, televizor və telefon təmir edirəm".

Bir neçə sual-cavabdan sonra özümə və ona çay süzməyə getdim. Qayıdanda çayımı ayağımın yanına qoyub yenə söhbətə başladım. O qədər özümü itirmişdim ki, diqqətim yayındı və təkərli oturacağı yerbəyer edəndə çaydan bir qədəri altıma dağıldı. Çox yanırdım, amma üz vurmurdum. Məni çox uca tuturdular, ilk görüşdə baxışlarını korlamaq istəmirdim. O, evə gedəndə Fatiməyə demişdi: "Maşallah, çox zirək adamdır, ustadır; özü çay süzür, ağaca dırmaşır..." Sonuncunu nə özü görmüş, nə də məndən eşitmişdi. Həyətdə mənim barəmdə

soruşanda uşaqların biri tut ağacına çıxmağımı ona danışmışdı.

Həyətdə bir tut ağacı vardı, iri və sulu tutları olurdu. Onlara baxanda ağzımız sulanırdı, amma heç birimiz dırmaşa bilmirdik. Bir gün, nəhayət, dözə bilməyib keşikçi Əzimə dedim: "Əzim can, ayaqları sağlam olan yeganə adam sənsən. Bu ağaca çıx, biz aşağıda parça tutaq; yuxarıdan silkələ, tutlar tökülsün".

Əzim başını qaşıya-qaşıya dedi: "Mən... mən belə hündür ağaca çıxa bilmərəm..." Ondan bizə xeyir gəlməyəcəyini görüb təkərli oturacağımı ağaca yapışdırdım, özüm dırmaşmağa başladım. Bütün sanatoriya yığışıb mənə baxırdı. Bəziləri sevinir, bəziləri yıxılmağımdan qorxub həyəcanlanırdılar. Ağacın başına çatanda bütün sanatoriya guruldadı: əl çalan kim, bülbül səsi çıxaran kim. Əzim məni görən kimi türkcə qışqırmağa başladı: "Neyniyisən?! Düş aşaği. İndi yıxılarsan, qanın qalar boynumuza!"

Ağacı bacardığım qədər silkələdim, çoxlu tut toplandı. Hamımız oturub yedik. Nə qədər israr etdiksə, Əzim gəlmədi. Hələ əsəbləri soyumamışdı, dodaqaltı deyinirdi.

Sənədləri çoxdandı valiliyə vermişdim. Demişdilər ki, biz Tehrana məktub yazmalı, onların cavabını gözləməliyik. Belə məktubların cavabı da üç-dörd aya gəlirdi. Digər tərəfdən, yeni dərs ilində Quma getməli idim. Vəsail və Məkasib kitablarına çatmışdım, ağır dərslər Təbrizdə tədris olunmurdu, onları öyrənmək üçün Quma getməkdən başqa yolum yox idi.

Əşyalarımı toplayıb Quma getdim. İbrahimi bu dəfə məni heç bir şərtsiz qəbul etdi və oktyabrdan Höccətiyyə mədrəsəsinin rəsmi tələbəsi oldum.

Bir neçə ay ötdü, valiliyin məktubundan xəbər çıxmadı. Təbrizə qayıtdım. Cavab gələnə qədər nikah əqdi oxumaq istəyirdim. Qumla Təbriz arasında gedib-gəlmək mənə çətin idi. Fatimənin ailəsində atasından başqa hamı bu evliliyə qarşı idi. Müharibə əlili olmağımla barışardılar, xarici olmağımla isə yox. Qorxurdular ki, Fatiməni tək qoyub Türkiyəyə gedərəm, ya da qızlarını Türkiyəyə aparıb qaytarmaram. Sözlərimə də inana bilmirdilər. Belə bir şəraitdə məktubun cavabı gəlməzdən öncə onunla məhrəm olmaq istəyirdim.

Bu dəfə Kərim Hörməti və onun xanımı ilə birlikdə Fatimənin atasıgilə getmək qərarına gəldik. Onlarla getməyimin səbəbi vardı. Fatimə ilə ilk söhbətimdən bir ay sonra Kərim Hörmətini görüb elçilik məsələsini ona danışdım. O, müharibə əlili idi, bağırsaqları güllə və qəlpə ilə doluydu. O dedi: "Əgər bir fədakar insan tapılıb mənim şəraitimi qəbul etsə, mən də evlənmək istəyərəm". Məsələni Fatiməyə danışanda dostlarından birini təklif etdi. Onlar bir həftə ərzində nikah əqdlərini oxudular, bizsə hələ qalmışdıq. Mən Təbrizə qayıdanda Kərim Hörməti cəbhədən təzə gəlmişdi, dedi ki, özüm səni Hadişəhrə apararam.

Hadişəhr Təbrizdən 120 km aralıda yerləşirdi. Evlərini çətinliklə tapdıq. Fatimənin atası qapıya çıxanda çox təəccübləndim. O, sanatoriyaya mənim barəmdə araşdırmaya gələn və özünü Fatimənin əmisi

kimi təqdim edən adam idi. Yuxarı qalxanda gəlinin ailəsindən heç kim yox idi. Fatimənin anası izdivacımıza razı olmadığına görə qızının evinə getmişdi, yeganə qardaşı da Urmiyada idi. Fatimənin atasına dedim: "Mən şəraitimə görə bundan artıq gözləyə bilmirəm. Əgər icazə versəniz, məktub gələnə qədər nikah əqdimizi oxuyaq". O dedi: "Mənim etirazım yoxdur. Etirazı olanlar da özləri bilərlər. Siz əqdinizi oxuyun. Məktubun cavabı, hər halda, gələcək".

On dörd ədəd qızılı mehr təyin edib nikah əqdi və toy günü barədə danışdıq. Kərim Fəthi ilə söhbət etdim. Təbrizdə bir idarə evi vardı. Qərara alındı ki, məclis orada olsun. Gəlin tərəfdən heç kim gəlməyəcəkdi, yalnız atası və bacılarından biri olacaqdı. Hətta Təbrizdə yaşayan və evlərinə getdiyimiz əmisi də qardaşı arvadının qorxusundan məclisdə iştirak etməsin deyə oğlugilə getmişdi. Mənim İranda heç kimim yox idi, yaxınlarımın da İrana gəlməyə maddi imkanları yol vermirdi. Ancaq lal-dinməz və səssiz-səmirsiz də olmazdı. Hövzə uşaqlarından və Bəsicdən bir neçə nəfəri ailəvi dəvət etdim. Yüz nəfər olduq. Aşağıda kişilər toplaşdı, yuxarıda qadınlar.

11.11.87 tarixində nişan və toy məclislərini birlikdə keçirdik. Nikah əqdimizi Şəhid fondunun sədri ağa Ruhani oxudu. Bir nəfər də Fəqih Rəhbərin korpusda nümayəndəsi olaraq gəlmişdi.

Meyvə, şirniyyat və şam yeməyi üçün Kərim Fəthiyə on min tümən pul vermişdim. Sağ olsun,

əlindən gələni etmişdi: şirin alma və naringilər, yaşıl və dadlı xiyarlar, armudu şirniyyatı... Şam yeməyinə də toyuqplov verdik. Yaxşı bir məclis keçdi, tələbə və döyüşçülərin zarafatları ilə daha da şirin və yaddaqalan oldu.

Məclisdən sonra iki gün Kərim Fəthinin evinin ikinci mərtəbəsində qaldıq, üçüncü gün Quma bilet aldıq. Kərim sağollaşanda toy üçün verdiyim puldan yeddi min tüməni qaytarıb dedi: "Üç min tüməndən artıq xərclənmədi". İnanmırdım. Təkcə şirniyyatın pulunu hesablasaydın, üç min tümən olardı. Nə etdimsə, razılaşmadı. Pulları və hədiyyələri iki çamadana yerləşdirib Fatimə və atası ilə hava limanına getdik.

Tehranda hava limanında endik, Qum maşınlarına minmək üçün Xəzanə avtovağzalına getdik. Cümə günü axşamüstü idi, hər yer boş idi. Çox çətinliklə avtobus tapdıq. Avtobus yola düşəndən iki saat sonra Qumda olduq. O zaman avtobuslar hərəmə qədər gedirdilər. Tolidi-daru xiyabanının başında düşdük. Axşamdı, xiyaban boş idi. Əlimdə çanta Fatimə ilə yola düşdüm. Bir neçə addım gedəndən sonra yanımızda bir Peykan avtomobili dayandı. Maşına mindik. Bir qədər irəlidə küçələrdən birini sürücüyə göstərdim. Sürücü küçəyə döndü, amma küçə mənə tanış gəlmədi. Dedim: "Bağışlayın, deyəsən, səhv etdim".

Küçədən çıxdıq. Nə qədər irəlilədiksə, küçələri tanıya bilmədim. Kirayə ev idi, cəmi iki-üç dəfə getmişdim. Yavaş-yavaş sürücü də məndən

şübhələnməyə başladı. Allaha şükür, məsələ qəlizləşmədən küçəni tapdım və maşından endik.

Evi 150 tümənə kirayə etmişdim. İkimərtəbəli idi, birinci mərtəbədə bir otaq, mətbəx və hamam vardı, ikinci mərtəbədə də tək bir otaq. Fatimə toydan öncə demişdi ki, ailəsi bu evliliyə razı olmadığına görə böyük ehtimalla cehiz də olmayacaq. Buna görə özüm bir qədər avadanlıq almışdım. Korpusda onfutluq soyuducu və Tamaşa markalı bir rəngli televizor vardı. Qapılı televizorlardandı, ucuz idi. Altı qaşıq, altı boşqab, altı stəkan, bir qazan və bir qızdırıcı soba almışdım. Evin qaz ocağı vardı, yalnız balon alıb doldurmalı idim. İki nazik palaz da aldım: altı və doqquzmetrlik. Höccətiyyə mədrəsəsi ailə quranlara iki ədyal və 12 metr kovrolit verirdi; sarı və nazikdi, amma işə yarayırdı. Özümün də bir ədyalım və Türkiyədən gətirdiyim yorğanım vardı. Bir təkərli masam da vardı, təzə deyildi, amma mütaliə etmək və yazmaq üçün yaxşı idi. Üçtəkərli motosikleti, soyuducu və televizoru Təbrizdən qatarla gətirdim. Qumda gündüzlər türkiyəli tələbələrdən olan və Höccətiyyədə tanış olduğum İsmayıl Araçi ilə motosikletə minib lazımi əşyaları alır, evə gətirib köməklə düzürdük.

Fatimənin əlindən tutdum və evə girdik. Evi görəndə onun gözləri sevincdən parladı, mənimsə yox. Evə gəlin gətirmişdim, amma evdə heç kim yox idi; nə qonaqlıq, nə üzərlik. Şam yeməyimiz də yox idi. Səhərdən heç nə yeməmişdik, təyyarədə verilən azacıq xörəyin üstəydik. Küçənin başında kababçı

vardı, amma cümə günü olduğuna görə bağlı idi. Hərəmdəki kababçıya qədər də 2-3 km yol vardı.

Ev sahibimiz Fəsihinin evi bizim evimizə bitişmişdi. Qapını döydüm. Açanda sevincək dedi: "Salamat oturasınız! Xoş gəldiniz, ağa Məhdəvi. Nə vaxt çatdınız?" Dedim ki, elə indi. Bir az mızıldayandan sonra dedim: "Bağışlayın... cümə günüdür, çörəkçi bağlıdır. Bəlkə, artıq çörəyiniz olar". Gedib iki çörək gətirdi və bayat olduğuna görə çox üzr istədi. Təşəkkür edib gəldim. Soyuducudakı pendirlə çörəyi süfrəyə qoydum və bu, bizim müştərək həyatımızın ilk şam yeməyi oldu.

Ertəsi gün sübh çağı, mədrəsəyə getməzdən öncə ikimiz motosikletlə məqbərəyə getdik. Bu da bizim bal ayımız oldu. İki saat gəzəndən sonra Fatimə evə getdi, mən də mədrəsəyə. Toy xəbərini eşitmiş tələbələr üstümə tökülüşdülər ki, gərək qonaqlıq verəsən. Təbrizdə toy etdiyimi söylədim, amma razılaşmayıb dedilər: "Biz orada olmamışıq. Onu təbrizlilər yeyiblər, indi qumluların növbəsidir". Fatimə "yox" demədi. Qərara gəldik ki, beş gündən sonra, yəni cümə günü onlara qonaqlıq verək.

Fatimənin Təbriz hövzəsində birlikdə təhsil aldıqları dostu xanım Yusifidən başqa Qumda heç bir tanışı yox idi. Gəlişimizdən iki gün sonra Fatimə ev sahibinin telefonu ilə zəng vurub onu həyat yoldaşı ilə birlikdə axşama dəvət etdi. Kişilər söhbətə başladıq, xanımlar da şam hazırlığına. Süfrə səriləndə yeməyi görüb təəccübləndim: xuruşlu plov idi. Bizim cəmi bir

qazanımız vardı, Fatimə iki cür xörəyi bir qazanda necə bişirmişdi?

Qonaqlar gedəndən sonra mətbəxə keçdim. Fatimə qabları yığışdırırdı. Dedim:

– Xuruşlu plov bişirmişdin!

– Vay! Çox pis olmuşdu? - Fatimə plov buludunu quruda-quruda başını mənə çevirib dedi.

– Yox, çox gözəl idi! – tez sözünü kəsib dedim, sonra yavaşca əlavə etdim: – Axı bizim cəmi bir qazanımız vardı, sən bir qazanda plovla xuruşu necə bişirmisən?

Fatimə nə demək istədiyimi başa düşüb gülməyə başladı, mətbəx mebelinin üstündən metal dolçanı gətirib önümə qoydu.

– Bu da ikinci qazan. Gördüm ki, bir qazanımız var, tez xuruşu bişirib bu dolçaya boşaltdım, sonra da düyünü bişirib aş süzdüm.

Çox xəcalət çəkdim. Fatimədən üzr istədim və söz verdim ki, bazara gedib ona bir qazan da alacağam.

Fatimənin heç bir əskiklikdən şikayətlənmədiyinə görə də xəcalət çəkirdim. Gəlin idi, amma nə alış-verişə getmişdi, nə də gözəllik salonuna. Həmin axşam xanım Yusifiyə dörd min tümən pul verib xahiş etdim ki, ertəsi gün Fatimə ilə salona getsinlər və bazardan pal-paltar alsınlar.

Danışdığımız kimi, cümə günü qonaqlıq verdik. İranlı və türkiyəli tələbələrin hamısı gəldi; xanımlar yuxarı, kişilər aşağı. Çox pul xərclədim, şirniyyat və meyvə aldım. Boşqab və bıçaqları ev sahibindən borc aldıq. Məclisin ortalarında Müharibə Əlilləri

Fondunun rəis müavini də xoş xəbərlə gəldi: maaşlar altı min tümən olmuşdu. Mənim üçün çox yaxşı idi; min beş yüz tümən kirayə verəcəkdik, qalanı bizə qalacaqdı.

Yanvarda Fatimənin bacısı həyat yoldaşı ilə gəldi. Bir yük maşını dolu cehiz gətirmişdilər; qabdan xalçaya, belliyə və sobaya qədər. Artıq heç bir çatışmazlığımız yox idi.

İki aydan sonra, bahar yaxınlaşanda planlaşdırdıq ki, nə olursa-olsun, novruz tətillərində Hadişəhrə gedək. Fatimənin mənə görə ailəsini tərk etməsini istəmirdim. Bir neçə qutu suhan halvası alıb xəbərsiz getdik. Anası yox idi, atası ilə oturduq. Anası gələndə bizi çox yaxşı qarşıladı; nə biz üz vurduq, nə də o; sanki heç bir inciklik yoxmuş. İlk görüşdə hər şey həll oldu. Oradan qayıdanda sevincək və rahat idim, üzərimdə heç bir yük hiss etmirdim.

1988-ci il iyun ayının əvvəllərində fond bizə Şəhidlər qəsəbəsində bir ev verdi. İkimərtəbəli idi: zirzəmi və birinci mərtəbə. Zirzəmisi istifadəyə yararlı deyildi, birinci mərtəbəsi isə yaxşı idi: bir zalı və iki yataq otağı vardı.

Yeni evdə ilk qonağımız Həsən Babur oldu. Uşaqlıqda Oğrucada onunla oyun yoldaşı olmuşduq. Bir neçə il idi Almaniyaya getmişdi, ondan xəbərsiz idim, indi isə əlidolu gəlmişdi. Özünün dediyinə görə, qayınatasının dəvəti ilə Almaniyaya gedib bir yeməkxanada dönərçi işinə başlamışdı. Halal ətdən dönər hazırlayırmış. Yeməkxananın sahibi yalandan çox and içən adammış. Həsən deyirdi:

"Müştərilər gələndə dönəri baha qiymətə satır, and içirdi ki, əti baha almışam. Bir neçə dəfə ona etiraz etdim. Qulaq asır, amma məhəl qoymurdu. Bir gün bir müştəri gəlib digərləri kimi dönər istədi. Yeməkxananın sahibi dönəri çox baha qiymətə təklif etdi. Çox çalışdım ki, özümü saxlayıb bir söz deməyim. Ancaq müştəri gedəndən sonra dedim ki, niyə bu qədər yalan danışırsan? Baha satmaq istəyirsən sat, amma düzünü de. O da mənə qarşı çox hirsli idi. Dönüb dedi ki, məgər yalan danışan təkcə mənəm? Sizin Xomeyni də yalan danışır. Bunu deyən kimi elektrik cərəyanı vurmuş adam kimi yerimdən qalxdım. Dedim ki, sən mənimlə danış, niyə əqidəmi təhqir edirsən? Əşyalarımı götürüb oradan çıxdım”.

O deyirdi:

"Çətin günlər idi. Təzə ailə qurmuşdum, qərib ölkədə kimsəm yox idi. Bir neçə gün ora-bura qaçdım, faydası olmadı. Axırda qayınatam məsələdən xəbər tutdu, bir gün yanıma gəlib dedi ki, bir qədər pulum var, sənə versəm, işlədə bilərsən? Mən də sevincək cavab verdim ki, əlbəttə. Paltarının altından bir paket çıxarıb önümə qoydu. Yüz min mark idi. Onunla bir yer kirayə etdim və bir dönər aparatı aldım. Dönər hazırlayıb satırdım. Günbəgün vəziyyətim yaxşılaşdı. Belə ki, yanında işlədiyim adam da mənim müştərim oldu. Bir ildən sonra bütün yüz min markı birlikdə qayınatama qaytardım, iki ildən sonra da təşəkkür üçün ona bir Mercedes aldım. İndi də çoxlu işçim var".

O, danışıb ağlayır, deyirdi: "Bütün bunlar üçün imam Xomeyniyə borcluyam. Əgər onu müdafiə etməyib orada qalsaydım, hələ də işçi idim. İndi əlimin altında otuz adam işləyirsə, imamın hesabınadır. Mən bütün bunları ona borcluyam".

Bir müddət idi Lətifi də Quma gəlmişdi. 1988-ci ilin yayında bir gün bizi günorta yeməyinə dəvət etdi. Hava çox isti idi. İşıqlar da sönmüşdü, yanmaq bilmirdi. Yanan kimi süfrəni sərdik. Televiziyadan Xəbərlər proqramı yayımlanırdı. İlk xəbər qətnamənin qəbul olunması idi. "Zəhər camı" ifadəsi deyilən kimi Lətifi ağlamağa başladı. Heç kim heç nə yemədi. Müharibə bitmişdi və mən hələ nəfəs alırdım. Mənə elə gəlirdi ki, artıq şəhadət qapısı bağlandı. Bu isə qəm-qüssə olub ürəyimə ağırlıq edirdi.

Qətnamənin qəbul olunmasından bir həftə ötməmiş düşmənin Əhvaz və Xürrəmşəhrə hücumu başladı. Həmin həftə cümə namazını Ayətullah Xamenei qılıb dedi ki, mən cəbhəyə gedirəm, kim gəlirsə, gəlsin. Bir tərəfdən, Fatimə tək və yeddiaylıq hamilə idi, digər tərəfdən də qala bilmirdim. Fatimə bunu gözlərimdən oxuyub getməyimə etiraz etmədi. Evli türkiyəli tələbələrdən dördü ilə birlikdə qərarımızı verdik: Bayram Dalğa, Əli Əsğər Hüseyni, Şeyx Əli Salmanəki və Əhəd Talan. Qərara gəldik ki, xanımlarımız gündə birimizin evinə toplaşsınlar, Seyid Yunis Ərdoğe də onların alış-verişlərini etsin.

Mənim ata-anam getməyimi bilmirdi, qalırdı Fatimənin ailəsi. Biz onlara zəng vurmaq istəyəndə məqbərəyə gedib telefon aparatlarından zəng

vururduq. Onlar gedişimi bilməsinlər deyə Fatiməyə dedim: "Arabir hərəmə get, oradan atana zəng vur. Mən də nə vaxt imkan olsa, oradan zəng vuraram ki, şübhələnməsinlər".

Qumdan üç-dörd avtobus tələbə yola düşdük. Aşura diviziyasının Dezfuldakı qərargahına getdik. Orada bölgülər baş tutdu; bəzisi Əhvaza getdi, bizsə Dezfulda qaldıq.

O şəraitdə şayiə bazarı müharibədən də önəmli idi. Komandirlərin çoxu qətnamənin qəbul olunmasından narazıydı. Ən vacib məsələ öz cəbhəmizi sakitləşdirmək idi. Birinci gün Zülfüqar briqadasına getdim. Komandiri ağa Məhəmmədzadə idi. Namazdan sonra söhbət edib dedim: "Siz gərək vilayətə tabe olasınız. İndiyədək deyirdilər ki, müharibə-müharibə, biz də döyüşürdük, indi deyirlər ki, sülh olsun, gərək yenə qəbul edək. Hamımız Malik Əjdər kimi olmalıyıq; imam ona "qayıt" deyəndə qayıtdı. Siz də imamın Malik Əjdəri olduğunuzu göstərin".

Ertəsi gün Əmirəlmöminin batalyonuna getdim. Həmin gün Pakistan prezidenti Ziyaül-həqqin sui-qəsdə məruz qaldığı gün idi. Həm onun barəsində, həm də qətnamə haqda bacardığım qədər danışdım.

Gəlişimdən bir həftə ötürdü. Fatimə ilə razılaşmam yadıma düşdü. Atasına zəng vurmaq lazımdı. Zəng vurdum və atası dəstəyi götürdü. Hal-əhval tutandan sonra soruşdu: "Ağa İsa, sən cəbhəyə getmisən?" Özümü itirdim. Nə deyəcəyimi bilmirdim. Qırıq-qırıq səslə dedim: "Siz hardan bilirsiniz?" Mən gedəndən

sonra Fatimənin Təbrizdə yaşayan əmisi bizə gəlibmiş. Heç kimin olmadığını görüb qonşuların qapısını döyüb. Deyiblər ki, Məhdəvi cəbhədədir, xanımı da dostugilə gedib. O da Qumda heç kimi tanımadığına görə Təbrizə qayıdıb və məsələni qardaşına danışıb.

Döyüş iki həftəyə bitdi. Hesabı sıfırlayıb evə qayıtmaq üçün Əhvaza gedirdik. Maşın axtaranda gördük ki, hamı növbəyə düzülüb. Təkərli nə gəlirdisə, hücum çəkib başla içinə girir, gedirdilər. Bayram Dalğa ilə xiyabana çıxdıq. Sentyabr ayı idi, isti günəş düz başımıza saçırdı. Yarım saat oturduq, maşın gəlmədi. Çox dilxor olmuşdum. Dedim: "Bayram, gəl qayıdaq, iki-üç gündən sonra sakitlik olanda gedərik". Sözüm bitməmiş Bayram qışqırdı: "Qalx, İsa, qalx gedək". O, xiyabanın o tərəfində TIR sürücüsü olan dostunu görmüşdü. Maşına mindirib kondisionerlə və buzlu su ilə bizə qulluq etdi.

Maşında oturub yola baxırdım. Yeddi il ildırım surəti ilə ötmüşdü. Sanki dünən Cabbarın yük avtomobilinə minib İrana gəlmişdim. Sürücü radionu açdı. Diktor sərhədlərdəki sakitlikdən və düşmənin İslam döyüşçülərinin fədakarlığı sayəsində geri çəkilməsindən danışırdı. Bir anlığa ötən illər yadıma düşdü; anamla oturub radiodan İran kanalını tapırdıq. O zaman biz yalnız İran radiosundan yayımlanan Quran qiraətinə qulaq asırdıq. Anam Quran ayələrinə qulaq asa-asa işlərini görürdü. Bir gün ən yüksək səslə radioya qulaq asdığı yerdə qiraətçinin səsindən də ucadan qışqırdım: "Ana, dua elə, İrana gedib təhsil

alım, orada İran radiosundan Quran oxuyum, sən də burda mənə qulaq as". Ürəyindənmiş kimi əllərini göyə qaldırdı, ruhunun dərinliyindən gələn səslə məni dua etdi.

Bir anlığa, sanki qəlbimə ilham olundu. Həyatımın müqəddəratı zamanında əldə etdiyim bütün müvəffəqiyyətlər anamın duasının bərəkəti ilə hasil olmuşdu.

Gözlərim yaşardı. İrana gəldiyimə, cəbhəyə getdiyimə, müharibə əlili olduğuma görə Allaha nə qədər şükür etməli idim? Əgər ömrümün qalanını səcdədə keçirsəydim, yenə azdı. Anamın duası ilə Allah mənim üçün ən yaxşı taleyi yazmışdı.



Türkiyə, mənim İrana səfərimdən iki il əvvəl.



Bünabın Vəliyyi-Əsr məktəbində açdığımız və ləzzət aldığımız uzun süfrələr. Sol tərəfdən birinci Rəsul Kərimidir. Eyni tərəfdən beşinci mən özüməm. Sağ tərəfdən ikinci Əhəd Talandır.



Bünabın Vəliyyi-Əsr məktəbinin damı. Sağdan: Herit Varol, Qədir Akaras, özüm və Cəfər Bayar.



Bünabın Vəliyyi-Əsr məktəbindəki əyləncələrimizdən biri də pikapa minib Hacı Əbulhəsən Bünabinin üzüm bağına getmək idi.



Möhsin Polad.



Mikayıl Sadiqi.



Kərim Hörməti.



Dostlarımızdan biri şəhid olmuşdu və onun dəfn mərasimində iştirak etmək üçün Urmiyaya getmişdik. Qayıdanda Behruz Ləklə mən bir yerdə oturmuşduq. Həmin vaxt uşaqlar bu şəkili çəkdilər.



1985-ci il, İsfahanın Əmin xəstəxanası. Doktor Tahiri sarğımı dəyişmək üçün həmişə özü gəlirdi.



İsfahanda xəstəxanada yatdığım son günlər. Bəhmən Basir məni digər bir rəfsəncanlı yaralı ilə öz bağına apardı. Rəfsəncanlı yaralının atası, Yaqub, Bəhmən Basir, rəfsəncanlı yaralı və mən.



1985-ci ildə fond tərəfindən bizi Məşhədə apardılar. Ayətullah Təbərsinin görüşünə getdik. Həmin vaxt hərəmdə lift yox idi. Məni və Orucəli Eşqini kürəklərinə alıb pilləkanları qalxmaq istəyirdilər. Qəbul etmədik və özümüz qalxdıq. Həm də çoxlu zarafatlar və gülüşlərlə.



1985-ci il, sərhəddə tək otaq. Veteranlıqdan sonra ailəmin görüşünə getdiyim ilk dəfə. Sağdan: ata, mən, Oruc, ana, bacım Çiçək və Yaqub.



Şəhid Davud Xeyrullahi.



1986-cı il. Təbzirin Vəliyyi-Əsr məktəbinin həyəti. Abbaszadə cəbhəyə gedirdi və biz də onu yola salmağa gedirdik. Sağdan: cənab Lətifinin qardaşı, mən, Abbas Abbaszadə, Məhəmmədəli Kərimi. Bizim arxamızda dayanan Hüseyn Nəsiridir. O, sonradan şəhid oldu.



Cənab Rüstəmimehr, mən və Rza Bəxşi. Cənab Rüstəmimehrin evinin həyəti.



1999-cu il, Məhəllat, köhnə dostlarla birlikdə. Sağdan: mən, Abbas Abbaszadə və cənab Cahangiri.



2004-cü il, Uğruca kəndi. Özüm, atam və oğlum Məhdi.



2005-ci il, İstanbul, Bosfor boğazı. Sağdan: Hacı Həsən Babur, özüm, oğlum Əli, Hacı Həsənin oğlu Əli, oğlum Məhəmməd.



2005-ci il, İstanbul, Ayasofiya məscidi. Özüm, Həsən Babur, oğlanlarım Məhdi və Əli.



2022-ci il, İsfahan, Güllər Parkı. Özüm və Fatimə.